# COP29-un ilk 11 şəffaflıq hesabatı



**Bakıda keçirilən COP29 konfransı çərçivəsində 11 ölkə şəffaflıq hesabatlarını təqdim edib. Bu barədə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibinin müavini Nura Xamlaci qlobal iqlim şəffaflığı üzrə nazirlərin "dəyirmi masası"nda məlumat verib.**

Bu il Paris Sazişi çərçivəsində Təkmilləşdirilmiş Şəffaflıq Sisteminin tam tətbiqinin qeyd olunduğunu diqqətə çatdıran BMT rəsmisinin sözlərinə görə, artıq ilk İkiillik Şəffaflıq Hesabatları təqdim edilib. Həmin ölkələr Andorra, Qayana, Panama, Yaponiya, İspaniya, Türkiyə, Qazaxıstan, Almaniya, Maldiv adaları, Niderland və Sinqapurdur. "Bu ölkələr, həqiqətən də, digərləri üçün güclü nümunə göstərir. İkiillik Şəffaflıq Hesabatları hökumətlərin iqlim siyasətini dəqiqləşdirməyə və gücləndirməyə imkan verən etibarlı sübut bazası yaradır", – deyə o vurğulayıb.

Həmin hesabatların nailiyyətləri qeydə aldığını, boşluqları müəyyən etdiyini və əlavə səylər və resursların harada tələb olunduğunu göstərdiyini diqqətə çatdıran Nura Xamlaci deyib ki, sözügedən sənədlər birgə tərəqqi haqqında ətraflı mənzərə yaradır və hansı sahələrdə əlavə tədbirlər və dəstək göstərilməli olduğunu ortaya qoyur: "Biz qəbul edirik ki, bu hesabatların hazırlanması və təqdim edilməsi prosesi, xüsusən də inkişaf etməkdə olan ölkələr üçün çətin ola bilər".

*(ardı 4-cü səhifədə)*




Xalqın qəzeti!
# Xalq qəzeti
№ 254 (30658) 19 noyabr 2024-cü il, çərşənbə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Pallone Bakıya gəlməyə məcbur idi

**"Amerikanın bu mübarizədə iştiraka davam etdiyini, öhdəliklərimizdən və müttəfiqlərimizdən imtina etməyəcəyimizi nümayiş etdirmək üçün COP29 iqlim konfransında iştirakı səbirsizliklə gözləyirəm". Bunu ABŞ-nin ən fəal ermənipərəst siyasətçilərindən biri, konqresmen Frank Pallone noyabrın 16-da "X" platformasındakı hesabında yazıb. Şənbə günü Bakıya gələn Pallone ABŞ-nin COP29-dakı nümayəndə heyətinə qoşulub. Sonra da tələsik geri qayıdıb...**



Onu Bakıda Azərbaycanın vətəndaş cəmiyyəti üzvlərindən bir qrup "səbirsizliklə" gözləyirdi. ABŞ Konqresində Azərbaycana qarşı qərar və qətnamələrin təşəbbüskarı, ermənipərəst mövqeyi ilə "məşhurlaşmış" Pallonenin BMT-nin nüfuzlu tədbirinə təşrif buyurmasını adını beynəlxalq gündəmə salmaq, eləcə də Azərbaycanı okeanın o tayından xəritədə deyil, yaxından görmək fürsətini əldən qaçırmamaq istəyi ilə də izah edə bilərik. Bütün hallarda Azərbaycan ABŞ qanunverici orqanının təmsilçisini beynəlxalq hüquq və demokratik qaydalara uyğun olaraq qarşıladı. Məgər Azərbaycandan, eləcə də qardaş Türkiyədən Vaşinqtona səfər edən yüksək çinli dövlət və hökumət rəsmilərinin orada erməni fəallarının etiraz piketləri ilə "qarşılanmasını" az görmüşük?

*(ardı 6-cı səhifədə)*

# Azərbaycanın daha bir uğur hekayəsi

*COP29-a evsahibliyi mütəşəkkilliyin, vəhdət və əzmkarlığın təntənəsidir*




Səhifə ⇨ 7

## ATACMS – Baydenin sonuncu "gülləsi"



Səhifə ⇨ 6

## Bir telefon zənginin əks-sədası



**Ermənistanın baş naziri Nikol Paşinyanın noyabrın 16-da ABŞ-nin seçilmiş prezidenti Donald Trampa zəng etməsi birmənalı qarşılanmır.**

Məsələ ondadır ki, Tramp hələ 2025-ci il yanvarın 20-də inauqurasiya mərasimi keçirildikdən sonra səlahiyyətlərinin icrasına başlayacaq. O, hələlik daxili məsələlərlə, o cümlədən kadr məsələləri ilə məşğuldur. Hazırda gələcək hökumətdə mühüm vəzifələri kimlərin tutacağını müəyyənləşdirir.

*(ardı 5-ci səhifədə)*

## Bakı konfransında Xəzər müzakirələri

*Dənizin üzləşdiyi ekoloji fəlakət beynəlxalq səviyyədə etiraf olundu*



**COP29 çərçivəsində Azərbaycan milli pavilyonunda "İqlim dəyişikliyi fonunda Xəzər dənizinin səviyyəsinin azalması" mövzusunda Xəzəryanı ölkələrin rəsmilərinin toplantısı keçirilib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyası Katibliyinin birgə təşkilatçılığı ilə təşkil olunan toplantıda Xəzəryanı ölkələrin rəsmiləri, BMT-nin Ətraf Mühit Proqramının icraçı direktoru və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbirdə açılış nitqi ilə çıxış edən ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva son illər iqlim dəyişmələri nəticəsində Xəzər dənizinin səviyyəsində baş verən azalmalara diqqət çəkib, bu unikal ekosistemin qorunması üçün regional əməkdaşlığın vacibliyini vurğulayıb.

*(ardı 10-cu səhifədə)*



## Qlobal İqlim Şəffaflığı üzrə Nazirlərin Bakı Bəyannaməsi

**COP29 çərçivəsində Bakıda Qlobal İqlim Şəffaflığı üzrə Nazirlərin Dəyirmi masasında Bakı Bəyannaməsi qəbul edilib.**

Sənədə imza atan ölkələr Paris İqlim Razılaşmasının tərəflərini iqlim şəffaflığı üzrə hesabatlarını 31 dekabr 2024-cü ilədək müvafiq qaydada təqdim etməyə çağırıb.

*(ardı 10-cu səhifədə)*



COP29 Baku Azerbaijan
COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024
COP29 Baku Azerbaijan

# Prezident İlham Əliyevin ABŞ nümayəndə heyəti ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də ABŞ Nümayəndələr Palatasının üzvü Avqust Pflügerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Dövlətimizin başçısı COP29-un uğurla keçdiyini deyərək vurğuladı ki, baxmayaraq, Paris razılaşmasının 6-cı bəndi üzrə on ildən artıqdır danışıqlar aparılıb, COP29-un ilk günündə bununla əlaqədar ciddi irəliləyiş əldə edilib. Prezident İlham Əliyev qeyd etdi ki, COP29 maliyyə mövzusuna həsr olunub və burada yeni iqlim maliyyə hədəfinin müəyyənləşdirilməsi gözlənilir. Beynəlxalq ictimaiyyət də bunu gözləyir. Azərbaycan Prezidenti beynəlxalq maliyyə və bank strukturları tərəfindən COP29-da iqlim maliyyəsi ilə bağlı verilən açıqlamaları da bu istiqamətdə ümidverici addım kimi qiymətləndirdi.

Qonaqlar, ilk növbədə, Azərbaycanın COP29-a ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdırdılar.

Görüşdə Azərbaycan ilə ABŞ arasında əməkdaşlıq və ölkəmizin yaşıl keçid strategiyası məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycanın müstəqilliyinin bərpasından sonra ABŞ-ın ölkəmizə dəstəyi xatırlandı, enerji strategiyamızın inkişafında onun dəstəyi qeyd olundu.

Avqust Pflüger Nümayəndələr Palatasının sədri Mayk Consonun adından nümayəndə heyəti ilə görüşə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Ölkəmizə səfərdən məmnun qaldıqlarını deyən qonaq Azərbaycan-ABŞ əməkdaşlığının inkişafına töhfə verməyə hazır olduğunu vurğuladı.

Dövlətimizin başçısı son 30 ildə ölkələrimiz arasında müxtəlif sahələrdə uğurlu və qarşılıqlı faydalı əməkdaşlığımızı qeyd etdi.

Prezident İlham Əliyev 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nə toxundu, o zaman ABŞ hökumətinin bu layihəyə dəstəyini xatırladı və bu müqavilənin ABŞ və onun müttəfiqlərinin enerji təhlükəsizliyinin təmin olunması işinə töhfə verdiyini vurğuladı, həmin dövr ərzində energetika sahəsində əsaslı əməkdaşlığın möhkəmləndiyini dedi.

Dövlətimizin başçısı Azərbaycanın yaşıl enerji strategiyası haqqında danışaraq, ölkəmizin beynəlxalq tərəfdaşlarla birlikdə bərpaolunan enerjinin istehsalı potensialını artırdığını və 2027-ci ilədək Azərbaycanın enerji istehsalının 30 faizinin yaşıl enerjinin payına düşəcəyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın bərpaolunan enerji potensialı əsasında Qara dənizin dibi ilə çəkilməsi nəzərdə tutulan elektrik enerjisi kabeli layihəsinə toxundu, bu xüsusda dövlətimizin region ölkələri – Gürcüstan, Rumıniya və Macarıstanla əməkdaşlığını qeyd etdi. Həmçinin Mərkəzi Asiya ölkələri ilə Xəzər dənizi vasitəsilə yaşıl enerji sahəsində əməkdaşlığı, COP29 zamanı Azərbaycan, Özbəkistan və Qazaxıstan arasında yaşıl enerjinin inkişafı və transmissiyası haqqında imzalanmış sənədi vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan region ölkələri ilə birlikdə Xəzər və Qara dəniz hövzələrini birləşdirən yaşıl enerji dəhlizi formalaşdırır.

Prezident İlham Əliyev Azərbaycanın Xəzər dənizində böyük həcmdə bərpaolunan külək enerjisi potensialının olduğunu vurğuladı, hidroenerji resurslarının da inkişaf etdirildiyini və bunun da böyük enerji istehsalı həcmlərinə çatacağını vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın yaxın dövr ərzində 4 giqavat gücündə bərpaolunan enerjinin Avropa İttifaqı bazarına ixrac etmək imkanına malik olacağını bildirdi və Avropa İttifaqı bazarının enerji tələbatının artmaqda olduğunu dedi.

Söhbət zamanı Azərbaycan ilə ABŞ arasında bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün böyük perspektivlərin olduğu qeyd edildi.

Prezident İlham Əliyev ölkəmizin regional sülh gündəliyinə sadiq qaldığını, onu dəstəklədiyini vurğuladı, sülh müqaviləsinin təşəbbüskarının Azərbaycan olduğunu xatırladı.

Ölkəmizin otuz il ərzində Ermənistan tərəfindən işğala və hərbi təcavüzə məruz qaldığını, hazırda Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyini deyən dövlətimizin başçısı bu münaqişənin Azərbaycan üçün artıq keçmişdə qaldığını bildirdi.

Azərbaycan Prezidenti Ermənistanın militarizasiya və silah yarışı siyasətinin regional sülh və təhlükəsizliyə təhdid olduğunu vurğuladı, sülh müqaviləsinin imzalanması üçün Ermənistanın Konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddialarına son qoyulmasının vacibliyini qeyd etdi. Bildirdi ki, Ermənistan tərəfindən konstitusion əsasda Azərbaycana qarşı ərazi iddiaları olmamalıdır.

Söhbət zamanı regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə ABŞ Konqresi ilə Azərbaycan arasında dialoqun gücləndirilməsi, qarşılıqlı səfərlərin artırılması məsələləri müzakirə olundu, Azərbaycan ilə ABŞ arasında əməkdaşlığın və tərəfdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivlərinə toxunuldu.

# Prezident İlham Əliyevin Kuala Lumpur meri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Malayziyanın paytaxtı Kuala Lumpur şəhərinin meri, BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) sabiq icraçı direktoru xanım Maimuna Mohd Şərif ilə görüşüb.**

Maimuna Mohd Şərif Prezident İlham Əliyevə COP29-da yerli icmalar statusunda Kuala Lumpur şəhərinin meri kimi çıxış etməsinə yaradılan imkana və COP29-da Azərbaycanın Sədrliyi yanında yaradılmış Məşvərət Şurasına daxil edilməsinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Qonaq COP29-un yüksək səviyyədə təşkili ilə bağlı Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Söhbət zamanı Maimuna Mohd Şərifin UN-HABITAT rəhbəri olduğu dövrdə Azərbaycan ilə bu qurum arasında əməkdaşlığın inkişafına verdiyi töhfə qeyd olundu, ölkəmizin 2026-cı ildə BMT-nin ən vacib tədbirlərindən biri olan Dünya Urban Forumuna ev sahibliyi edəcəyi məmnunluqla vurğulandı və buna hazırlıq prosesinin artıq başlanıldığı bildirildi.

Görüşdə Bakının və ölkəmizin digər şəhərlərinin inkişafı kontekstində Azərbaycanın urban planlaşdırma və urbanizasiya sahəsində nailiyyətləri xüsusilə qeyd olundu, işğaldan azad edilmiş ərazilərimizdə şəhərlərin və kəndlərin qurulması prosesindəki təcrübəsi vurğulandı.

Söhbət zamanı Bakı və Kuala Lumpur arasında əməkdaşlığın inkişafı ilə bağlı təcrübə mübadiləsinin aparılması məsələsinə toxunuldu, Bakının və Kuala Lumpurun qardaşlaşmış şəhərlər kimi əlaqələrinin qurulması istiqamətində fikir mübadiləsi aparıldı.

Bütövlükdə, Azərbaycan ilə Malayziya arasında dost münasibətlərinin olduğu, ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini daim dəstəklədikləri qeyd edildi. Siyasi əlaqələrimizin ruhuna uyğun olaraq iqtisadiyyat, ticarət, mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyevin Beynəlxalq idman federasiyalarının prezidentləri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Beynəlxalq Kanoe Federasiyasının prezidenti Tomas Konietzko, Beynəlxalq Avarçəkmə Federasiyasının prezidenti Jan Kristof Rollan və Beynəlxalq Draqon Qayıqları Federasiyasının prezidenti Klaudio Şermi ilə görüşüb.**

Beynəlxalq Kanoe Federasiyasının prezidenti Azərbaycan paytaxtının dünyanın ən gözəl şəhərlərindən biri olduğunu dedi və bu gün Bakıda COP29 ilə əlaqədar keçiriləcək avarçəkmə yürüşünün yüksək səviyyədə təşkil edildiyini və bunun üçün hər cür şəraitin yaradıldığını qeyd etdi.

COP29-un əhəmiyyətinə toxunan Prezident İlham Əliyev qonaqların bu tədbirdə iştiraklarına görə minnətdarlığını bildirdi.

Bu tədbirin ən yüksək səviyyədə təşkil edildiyini deyən Tomas Konietzko burada iştirakçıların rahatlığı üçün hər cür şəraitin yaradıldığını vurğuladı.

Prezident İlham Əliyev COP29-a hazırlıq vaxtının az olmasına baxmayaraq bütün təşkilati işlərin qısa zamanda həyata keçirildiyini qeyd etdi.

Qonaq Qarabağa, Suqovuşana səfər etdiklərini məmnunluqla deyərək, orada görülən bərpa-yenidənqurma işlərinin, idmanın inkişafının, o cümlədən avarçəkmə üçün yaradılan şəraitin çox böyük təəssürat bağışladığını dedi. O, ölkəmizdə kanoe idman növü üçün də yaxşı şəraitin yaradıldığını vurğuladı və buna görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Azərbaycanın idmanın, o cümlədən idmanın avarçəkmə növünün inkişafında böyük rol oynadığını deyən qonaq bunun da ətraf mühitin qorunmasına töhfə verdiyini bildirdi.

Qonaqlar dövlətimizin başçısına xatirə hədiyyələri təqdim etdilər.

# Prezident İlham Əliyevin ICESCO-nun Baş direktoru ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşüb.**

Dövlətimizin başçısı COP29-da iştirak etdiyinə görə ICESCO-nun Baş direktoruna minnətdarlığını bildirdi.

Salim bin Məhəmməd əl-Maliki, öz növbəsində, COP29-un yüksək səviyyədə təşkilinə görə təşəkkürünü ifadə etdi.

Söhbət zamanı Azərbaycan ilə ICESCO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu. Bu xüsusda Prezident İlham Əliyev Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ICESCO-nun Mərakeşdə yerləşən qərargahında olmasının və Salim bin Məhəmməd əl-Maliki ilə görüşünün onda çox xoş təəssüratlar doğurduğunu vurğulayaraq, orada göstərilən qonaqpərvərliyə görə ICESCO-nun Baş direktoruna minnətdarlığını bildirdi.

Görüşdə əlaqələrimizin daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyevin Rusiya rəsmiləri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Rusiya Federasiyasının maliyyə naziri Anton Siluanov və Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri Leonid Slutski ilə görüşüb.**

Söhbət zamanı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi bildirildi, bu görüşün əməkdaşlığın perspektivlərinin müzakirəsi baxımından önəmi qeyd olundu.

Ölkələrimiz arasında ticarət dövriyyəsinin artması, milli valyutalarda ödənişlərin həyata keçirilməsi əlaqələrimizin möhkəmlənməsinin yaxşı göstəricisi kimi dəyərləndirildi.

# Prezident İlham Əliyevin Palau Prezidenti ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Palau Respublikasının Prezidenti Surangel Uipps ilə görüşüb.**

Palau Prezidenti COP29-un yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Qonaq qeyd etdi ki, səfər çərçivəsində ölkəmizlə, mədəniyyətimizlə tanış olmaq imkanları olub. Bu görüşün Azərbaycan və Palau prezidentləri arasında yüksək səviyyədə ilk görüş olduğunu deyən Surangel Uipps bunun münasibətlərimizin inkişafına təkan verəcəyinə ümidvarlığını ifadə etdi.

Palau dövlətinin başçısı Azərbaycan Prezidenti və Azərbaycanın COP29-a Sədrliyi tərəfindən kiçik ada dövlətlərinin iqlim dəyişmələrinin təsiri nəticəsində onların üzləşdiyi problemlərin əsas prioritetlərdən biri kimi müəyyən edilməsinə görə təşəkkürlərini çatdırdı. O vurğuladı ki, kiçik ada dövlətləri iqlim dəyişmələrinin bilavasitə təsirinə məruz qalan və ekzistensional təhlükə ilə üzləşən ölkələrdir.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın sədrliyi dövründə kiçik ada dövlətlərinin üzləşdiyi iqlim problemləri əsas prioritet kimi qiymətləndirilib və kiçik ada dövlətlərinin iştirakı ilə məhz bu məsələyə həsr olunmuş Zirvə toplantısı keçirilib. Dövlətimizin başçısı Azərbaycanın Millətlər Birliyi (Commonwealth of Nations) təşkilatı ilə birlikdə kiçik ada dövlətlərinə xüsusi yardım proqramını həyata keçirdiyini dedi. Prezident İlham Əliyev bu xüsusda təşkilat çərçivəsində Azərbaycanın kosmik imkanlarını səfərbər edərək həmin dövlətlərin üzləşdiyi iqlim problemləri barədə məlumat bazası sisteminin yaradılması məsələsini qeyd etdi.

Prezident vurğuladı ki, on ildən artıqdır Paris razılaşmasının 6-cı bəndi üzrə danışıqlar aparılsa da məhz Bakıda keçirilən COP29-da bununla bağlı irəliləyiş əldə olunub. Dövlətimizin başçısı bundan başqa, İtki və Zərərə Cavab Fondunun tam işlək olması istiqamətində tərəqqinin əldə edilməsini irəliyə doğru atılan mühüm addım kimi dəyərləndirdi.

Söhbət zamanı bütün dünyadan, xüsusilə də inkişaf etmiş dövlətlərdən yeni maliyyə hədəfləri ilə əlaqədar gözləntilərin olduğu qeyd edildi.

Palau Prezidenti dövlətimizin başçısına xatirə hədiyyələri təqdim etdi.

# Prezident İlham Əliyevin Millətlər Birliyi təşkilatının Baş katibi ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Millətlər Birliyi təşkilatının (Commonwealth of Nations) Baş katibi Patrisia Canet Skotland ilə görüşüb.**

Patrisia Canet Skotland COP29-un yüksək səviyyədə təşkilinə, ilk dəfə olaraq COP çərçivəsində kiçik ada dövlətləri ilə əlaqədar Zirvə toplantısının keçirilməsinə və Azərbaycanın COP Sədrliyinin prioritetləri sırasında bu dövlətlərin iqlim problemlərinin əsas istiqamətlərdən biri kimi müəyyən edilməsinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Qonaq Azərbaycanla Millətlər Birliyi təşkilatı arasında qurulmuş əməkdaşlığa, ölkəmizin bu təşkilata üzv kiçik ada dövlətləri ilə bağlı maliyyə dəstəyi fonduna görə də təşəkkürünü çatdırdı.

Millətlər Birliyi təşkilatının Baş katibi, həmçinin Azərbaycanın kosmik imkanlarını səfərbər edərək Millətlər Birliyinin üzvü olan kiçik ada dövlətlərinin üzləşdiyi iqlim problemlərinin təhlil edilməsini və məlumat bazası sisteminin yaradılmasını təqdir etdiklərini dedi. O, ümumilikdə Azərbaycanın sədrliyi dövründə kiçik ada dövlətləri ilə əlaqədar çoxsaylı tədbirlərin keçirildiyini və dünyanın kosmik agentliklərinin səylərinin də səfərbər edildiyini vurğuladı.

Patrisia Canet Skotland bundan sonra da Azərbaycanla əməkdaşlığın davam etdirilməsində maraqlı olduqlarını bildirdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan COP-a sədrliyi dövründə kiçik ada dövlətlərinin iqlim problemləri ilə bağlı onlarla əməkdaşlığı əsas istiqamətlərdən biri kimi müəyyən edib, ölkəmiz tərəfindən bununla əlaqədar Zirvə toplantısı keçirilib. Azərbaycanın Millətlər Birliyi təşkilatı ilə əməkdaşlığını davam etdirəcəyini deyən Prezident İlham Əliyev kiçik ada dövlətlərinin iqlim problemlərinin daim diqqət mərkəzində saxlanılacağını qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində formalaşdırılmış həmrəyliyin məhz COP sədrliyi dövründə də davam etdiriləcəyini dedi.

Söhbət zamanı Azərbaycan ilə Millətlər Birliyi təşkilatı arasında əməkdaşlığın perspektivləri müzakirə olundu.

***AZƏRTAC***

# Baş nazirin “Barselona” prezidenti ilə görüşü

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 17-də İspaniyanın “Barselona” futbol klubunun Prezidenti Xuan Laporta ilə görüşüb.**

Nazirlər Kabinetindən bildirilib ki, görüşdə X.Laportanın Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-da iştirakının əhəmiyyəti vurğulanıb.

Sonra Azərbaycan futbolunun inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb, dünyanın aparıcı futbol klublarından biri olan “Barselona” ilə birgə layihələrin həyata keçirilməsi, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Görüşdə Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının prezidenti Rövşən Nəcəf iştirak edib.

**XQ**



# Omanın Sultanı Əlahəzrət Heytəm bin Tariq Al Səidə

**Əlahəzrət!**

Oman Sultanlığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Oman xalqına daim firavanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 15 noyabr 2024-cü il**

# V.İ.Qurbanovun Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vüqar İsrayıl oğlu Qurbanov Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 noyabr 2024-cü il**

# Z.M.Əliyevin Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Zamin Məmməd oğlu Əliyev Türkiyə Respublikasının Qars şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 noyabr 2024-cü il**

# A.F.Süleymanlının Qazaxıstan Respublikasının Aktau şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ayxan Firudin oğlu Süleymanlı Qazaxıstan Respublikasının Aktau şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 noyabr 2024-cü il**

# F.S.Əzizovun Gürcüstanın Batumi şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fuad Süleyman oğlu Əzizov Gürcüstanın Batumi şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 noyabr 2024-cü il**

# Birinci vitse-prezidentin Milli Dirçəliş Günü münasibətilə paylaşımı




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında 17 Noyabr Milli Dirçəliş Günü münasibətilə paylaşım edib.**



# Milli Məclis sədrinin görüşləri

**Milli Məclisin sədri Sahibə Qafarova noyabrın 18-də COP29-da iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan ATƏT Parlament Assambleyasının vitse-prezidenti və iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi Pere Joan Pons ilə görüşüb.**

Görüşdə COP29-un və Parlament Görüşünün uğurlu təşkili, bu tədbirlər zamanı aparılan müzakirələrlə bağlı fikir mübadiləsi aparılıb. Tərəflər COP29-un iqlim dəyişikliyi ilə effektiv mübarizə aparmağa imkan verəcək mühüm qərarların əldə edilməsi ilə nəticələnəcəyinə inamlarını ifadə ediblər.

İqlim dəyişikliyi ilə bağlı məsələlərin həllində parlamentlərin önəmli rolunun vurğulandığı söhbət zamanı iki gün davam edən Parlament Görüşündə milli parlamentlərdən, parlamentlərarası təşkilatlardan və digər qurumlardan 90-dan çox nümayəndə heyətinin iştirak etdiyi xatırladılıb.

ATƏT PA-nın vitse-prezidenti belə mötəbər tədbirə uğurla ev sahibliyi etdiyi üçün Azərbaycanı təbrik edib. Qonağın fikrincə, iqlim dəyişikliyi ilə bağlı məsələlərə qlobal yanaşma dəyişməli və bu sahəyə diqqət daha da artmalıdır. O, COP29-da qəbul olunmuş qərarların bütün dünya üçün əhəmiyyətli nəticələrə gətirib çıxaracağına inamını ifadə edib.

**Milli Məclisin sədri Sahibə Qafarova həmin gün Zimbabve Milli Assambleyasının sədri Yakob Mudenda ilə də görüşüb.**

Parlament Görüşünün uğurla başa çatdığını qeyd edən Milli Məclisin sədri bildirib ki, iclasın yekunu olaraq qəbul edilmiş yekun sənəd iqlim dəyişikliyi məsələsində bizim ümumi mövqeyimizi əks etdirir.

Yakob Mudenda həm COP29, həm də Parlament Görüşünün çox uğurla təşkil olunması münasibətilə təbriklərini çatdıraraq, Azərbaycanın ev sahibliyi ilə keçirilən bu mühüm qlobal tədbirə beynəlxalq marağın böyük olduğunu bildirib. O, COP29 çərçivəsində keçirilən müzakirələrdə az inkişaf etmiş ölkələrə dəstək göstərilməsi ilə bağlı çağırışların vacib olduğunu söyləyib.

Görüşdə ölkələrimiz və parlamentlərimiz arasında əməkdaşlıq məsələləri də müzakirə olunub.

**XQ**

# ATƏT PA-nın vitse-prezidenti XİN-də



**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov COP29 çərçivəsində ölkəmizə səfər edən ATƏT Parlament Assambleyasının vitse-prezidenti Pere Xuan Pons Sampietro ilə görüşüb.**

Söhbət zamanı Azərbaycan və ATƏT arasında əməkdaşlıq gündəliyində duran məsələlər, regional vəziyyət, habelə COP29 çərçivəsində əməkdaşlıq perspektivləri müzakirə olunub. Tərəflər ölkəmiz ilə ATƏT PA arasında intensiv dialoqun mövcudluğunun məmnunluq doğurduğunu, parlament diplomatiyasının, o cümlədən bu çərçivədə qarşılıqlı səfərlərin ümumi maraq kəsb edən məsələlərin müzakirəsi baxımından əhəmiyyətli olduğunu bildiriblər.

İqlim dəyişikliyi təhdidinin insan təhlükəsizliyi və dayanıqlı inkişafa hədə olduğu, iqlim dəyişikliyinin bölgəmizdə və dünyamızda müşahidə olunan fəsadlarının aradan qaldırılması səylərinin gücləndirilməsi və bu istiqamətdə ən həssas qrupların dəstəklənməsinin COP29 Sədrliyimizin prioriteti olduğu bildirilib.

Sədrliyimiz çərçivəsində aparılan danışıqlar prosesində əldə olunan bir sıra uğurların, xüsusilə sessiyanın gündəliyinin ilk gündən razılaşdırılması, Paris Sazişinin 6.4-cü maddəsi üzrə razılıq əldə edilməsi və maliyyə institutları tərəfindən illik əsasda iqlim maliyyəsi öhdəliyinin 75 milyarddan 170 milyard ABŞ dollarına qədər artırılmasının məmnunluq doğurduğu qeyd edilib.

Qarşı tərəf, həmçinin Ermənistan–Azərbaycan münaqişəsinin tarixi, Ermənistanın hərbi işğalının nəticələri, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, habelə regional sülh prosesinin gedişatı barədə məlumatlandırılıb.

Vitse-prezident COP29 Sədrliyi münasibətilə ölkəmizi təbrik edib, sədrlik fəaliyyətində uğurlar arzulayıb. ATƏT çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə səylərinə əhəmiyyət verildiyi diqqətə çatdırılıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**XQ**

# COP29-un ilk 11 şəffaflıq hesabatı

**(əvvəli 1-ci səhifədə)**

Yeri gəlmişkən, Azərbaycanın xarici işlər nazirinin müavini, COP29 üzrə baş danışıqçı Yalçın Rəfiyev COP29 çərçivəsində keçirilən tədbirdə jurnalistlərə açıqlamasında bildirib ki, ölkəmiz İkiillik Şəffaflıq Hesabatlarının təqdim edilməsində mühüm rol oynayır və bu prosesə əhəmiyyətli töhfə verir: "Şəffaflıq hesabatları hər iki ildən bir bu planların icrasının effektivliyini qiymətləndirən sənədlərdir. Azərbaycan bu il ilk dəfə belə hesabatlar təqdim edəcək. İlin əvvəlindən biz İkiillik Şəffaflıq Hesabatlarını prioritet elan etdik, müxtəlif dövlətlərlə fəal işlədik və bu gün onların çoxu artıq hesabatlarını təqdim edib və ya ilin sonuna qədər təqdim edəcək".

Şəffaflığın iqlim fəaliyyəti sahəsində əsas elementlərdən biri olduğunu diqqətə çatdıran baş danışıqçının sözlərinə görə, burada əsas məqam dövlətlərin hər beş ildən bir öz məqsədlərini bəyan edərək növbəti beş il üçün ambisiyaların müəyyənləşdirilməsi və onların icra planlarının hazırlanması ilə bağlıdır.

COP29 çərçivəsində keçirilən Nazirlər Görüşündə İkiillik Şəffaflıq Hesabatlarını təqdim edən nümayəndə heyətləri mükafatlandırılıb.

**XQ**

# Büdcə haqqında qanun layihəsi plenar iclasa tövsiyə edilib

**Noyabrın 18-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib. Komitə sədri Azər Əmiraslanov iclasda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin birinci oxunuşda müzakirə olunacağını söyləyib. O, qanun layihəsinin ölkə Prezidenti tərəfindən parlamentə təqdim edildiyini bildirib.**

Komitə sədri diqqətə çatdırıb ki, 2025-ci il üçün dövlət büdcəsinin gəlirləri 38 milyard 316 milyon manat, xərcləri 41 milyard 367,6 milyon manat, büdcə kəsirinin yuxarı həddi isə 3 milyard 51,6 milyon manat proqnozlaşdırılır. O, təqdim edilən makroiqtisadi proqnozlar nəzərə alınaraq, büdcə layihəsinin pozitiv rəqəmlərə əsaslandığını, makroiqtisadi sabitlik şərtlərinə cavab verdiyini, gəlir və xərclərin artımla proqnozlaşdırıldığını qeyd edib. Bildirilib ki, növbəti il üçün dövlət büdcəsinin əsas xüsusiyyətlərindən biri də onun iqtisadi strategiyanın müddəalarının, milli inkişaf prioritetlərinin, maliyyə ehtiyaclarının vaxtında qarşılanmasının nəzərə alınmasıdır.

Sonra iclasda maliyyə naziri Samir Şərifov "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsini təqdim edib.

Qeyd olunub ki, 2025-ci ilin dövlət və icmal büdcələrinin tərtibi zamanı İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş baza proqnozu əsas götürülərək, ölkədə ÜDM-in artım tempi 3,5 faiz, qeyri-neft-qaz ÜDM-in artım tempi 4,9 faiz, orta illik inflyasiya 4,6 faiz, xam neftin 1 barelinin qiyməti 70 ABŞ dolları, təbii qazın 1 min kubmetr ixrac qiyməti 242 ABŞ dolları, manatın məzənnəsi isə 1 dollar üçün 1,7 manat səviyyəsində qəbul edilib.

Növbəti dövrdə ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin gücləndirilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, ölkə iqtisadiyyatına reinteqrasiyası və bu ərazilərə Böyük Qayıdışın təmin edilməsi, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası, qeyri-neft sektorundan əldə olunan gəlirlərin ümumi büdcə gəlirlərində payının artırılması və bir sıra digər çağırışlar aktual olaraq qalır.

Bildirilib ki, 2025-ci ilin dövlət büdcəsinin xərcləri 41 milyard 367,6 milyon manat nəzərdə tutulur ki, bu da 2024-cü illə müqayisədə 1 milyard 625,3 milyon manat və ya 4,1 faiz çoxdur. Büdcə xərclərinin strukturunda cari xərclər 60,1 faiz və ya 24 milyard 845,2 milyon manat, əsaslı xərclər 34,1 faiz və ya 14 milyard 122,8 milyon manat, dövlət borcuna xidmətlə bağlı xərclər 5,8 faiz və ya 2 milyard 399,6 milyon manat təşkil edəcək.

Qeyd olunub ki, ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da möhkəmləndirilməsi, ordu quruculuğunun daha da müasirləşdirilməsinin vacibliyi nəzərə alınaraq, bu istiqamətdə xərclərin artırılması labüd hesab edilib. Buna əsasən, müdafiə və milli təhlükəsizliklə bağlı xərclərə 8 milyard 396 milyon manat məbləğində vəsait nəzərdə tutulub. Bu, cari ilin proqnozuna nisbətən 1 milyard 270 milyon manat çoxdur.

Digər prioritet istiqamət - Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında nəzərdə tutulmuş sosialyönümlü tədbirlərin maliyyələşdirilməsi üçün 893 milyon manat və investisiyayönümlü layihələr üçün 1 milyard 100 milyon manat, cəm olaraq 1 milyard 993 milyon manat ayrılması nəzərdə tutulur. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər icrası üçün 150 milyon manat vəsait ayrılacaq.

Diqqətə çatdırılıb ki, vətəndaşların rifahının yaxşılaşdırılması, sosial müdafiəsinin təmin edilməsi də növbəti ildə prioritet məsələlər olaraq nəzərdə saxlanılır. Belə ki, 2025-ci il üçün dövlət büdcəsinin sosialyönlü xərcləri 2024-cü illə müqayisədə 1 milyard 370 milyon manat və ya 8,8 faiz artırılaraq 16 milyard 909,7 milyon manata çatdırılır.

Bildirilib ki, büdcə layihəsində təhsil xərclərinə 4 milyard 946,1 milyon manat proqnozlaşdırılır və bu, 2024-cü illə müqayisədə 395,7 milyon manat və ya 8,7 faiz çoxdur. Elmin maliyyələşdirilməsi üçün 244,4 milyon manat vəsait proqnozlaşdırılır ki, bu da 2024-cü illə müqayisədə 8,3 milyon manat və ya 3,5 faiz çoxdur. Səhiyyə xərcləri üçün 1 milyard 999,4 milyon manat vəsait nəzərdə tutulur ki, bu, 2024-cü illə müqayisədə 133 milyon manat və ya 7,1 faiz çoxdur. Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələrinin maliyyələşdirilməsinə nəzərdə tutulan xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 1,5 faiz olmaqla 635,3 milyon manat təşkil edəcək.

Dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri üçün 2 milyard 685,4 milyon manat nəzərdə tutulub. Tikinti, bərpa, yenidənqurma, əsaslı təmir və müxtəlif əsaslı alışların həyata keçirilməsi üçün 1 milyard 662,3 milyon manat, kənd təsərrüfatı, mənzil və kommunal təsərrüfatı, ətraf mühitin mühafizəsi xərclərinə cəm olaraq 1 milyard 953,8 milyon manat, nəqliyyat və rabitə xərcləri üçün 515,6 milyon manat vəsait ayrılacaq.

Vurğulanıb ki, 2025-ci ilin dövlət büdcəsinin layihəsində beynəlxalq münasibətlər, xarici yardımlar, Azərbaycan Respublikasının xaricdəki ticarət nümayəndələrinin saxlanılması və Azərbaycanın həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalından Azərbaycan tərəfinin payı ilə bağlı xərclər üzrə 754,2 milyon manat vəsait proqnozlaşdırılır.

Layihəyə əsasən, 2025-ci il üçün dövlət büdcəsinin gəlirləri 38 milyard 316 milyon manat proqnozlaşdırılır ki, bu da 2024-cü ilin proqnozu ilə müqayisədə 1 milyard 928 milyon manat və yaxud 5,3 faiz çoxdur. Gəlirlərin 49 faizi və ya 18 milyard 773 milyon manatı neft-qaz sektorunun, 51 faizi və ya 19 milyard 543 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşür.

2025-ci il üçün dövlət büdcəsi kəsirinin yuxarı həddi 3 milyard 51,6 milyon manat məbləğində nəzərdə tutulub. Dövlət büdcəsi kəsirinin ÜDM-də xüsusi çəkisi 2,4 faiz təşkil edəcək.

Sonra iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli, Mərkəzi Bankın sədri Taleh Kazımov, Dövlət Gömrük Komitəsi sədrinin müavini Natiq Şirinov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxış edərək 2025-ci il üzrə dövlət büdcəsinin layihəsinə münasibət bildirib.

İclasda deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirilib, səsləndirdikləri suallar cavablandırılıb.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

**XQ**

# XİN Milli Azlıqların Müdafiəsi haqqında

## *Çərçivə Konvensiyasının Azərbaycan tərəfindən icrasına dair Məşvərət Komitəsinin Beşinci Rəyinin şərhi*

**Azərbaycan Respublikası Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyasına fəal, məsuliyyətli tərəf kimi və bütün dünyada etnik, mədəni, dil, dini tolerantlığın və etimadın təşviqi fəaliyyətləri ilə çox yaxşı tanınan ölkə olaraq monitorinqin beşinci dövrü ərzində Çərçivə Konvensiyasının Məşvərət Komitəsi ilə yaxından əməkdaşlıq edib. Bu dövr üzrə hesabat təqdim olunduqdan sonra Komitənin nümayəndə heyəti Azərbaycana səfər edib, çoxsaylı aidiyyəti dövlət qurumlarının təmsilçiləri ilə yanaşı, regionlarda milli azlıqların nümayəndələri ilə görüşüb, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) Aparatında və milli azlıqların QHT-ləri ilə görüşlər keçirib.**

Bu barədə redaksiyamıza Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumatda bildirilir ki, noyabrın 18-də dərc olunmuş Məşvərət Komitəsinin Beşinci Rəyində konvensiyanın həyata keçirilməsində hökumətin göstərdiyi səylərin qeyd edilməsinə baxmayaraq, rəydəki bir sıra mülahizələrin əsassızlığı və ölkədəki reallıqları dəqiqliklə əks etdirməməsi Komitənin tətbiq etdiyi müəyyən yanaşmaya dair ciddi suallar doğurur. Rəydə bir çox müsbət milli nailiyyətlərə, uğurlu milli siyasətlərə, islahat və təşəbbüslərə diqqət yetirilməyib və onlara etinasız yanaşılıb.

Bundan əlavə, 2023-cü ilin sentyabrında antiterror tədbirlərindən sonra baş verən inkişaflara dair rəydə yer alan əsasən siyasiləşdirilmiş iddialar beşinci monitorinq dövrünün müddətinin çərçivəsindən kənara çıxır. Azərbaycanın Beşinci Dövlət Hesabatında 2017-2022-ci illər üzrə müddətə aid müvafiq məlumatların yer alması, habelə davam edən hərbi işğal və respublikamızın erməniəsilli şəxslərin yaşadığı ərazilər üzərində qanuni suveren nəzarətinin olmamasına görə konvensiyanın hesabatın əhatə etdiyi dövr ərzində həyata keçirilə bilmədiyinə dair qeydlərin həmin hesabatda əksini tapması Məşvərət Komitəsinin sözügedən iddialarının konvensiyanın konkret müddət çərçivəsində icrasını qiymətləndirmək üçün verilən mandatdan kənara çıxdığını göstərir.

Azərbaycan ərazilərinin bir hissəsində, bu ərazilərdə suveren nəzarətin həyata keçirilməsinə və oradakı erməniəsilli şəxslərə münasibətdə Çərçivə Konvensiyasının müddəalarının tam tətbiqinə mane olan hərbi işğalın aradan qaldırılmasının ardınca postmünaqişə dövrü üçün nəzərdə tutulan həssas səylərin planlaşdırma mərhələsində olduğu bir məqamda Məşvərət Komitəsi mühakimə yürütməyə tələsməməli və kifayət qədər kövrək olan prosesə əngəl törətməmək məqsədilə lazımi qədər ehtiyatlı davranmalı idi.

Komitənin öz qiymətləndirməsinin əhatə dairəsini ona tapşırılan müddət çərçivəsindən birtərəfli qaydada kənara çıxararaq siyasi motivli və qərəzli yanaşmadan xəbər verən fərqli yol tutması təəssüf doğurur. Məşvərət Komitəsinin digər etnik qruplara etinasızlıq göstərildiyi halda, erməni etnik qrupunu diqqət mərkəzində saxlayan seçici yanaşması və müvafiq misallar göstərmədən naməlum mənbələrdən alınan məlumatlara həddən artıq əsaslanması sözügedən Komitənin qeyri-obyektiv yanaşmasını daha aydın nümayiş etdirir.

XİN-in açıqlamasının davamında bildirilir ki, Beynəlxalq Ədalət Məhkəməsinin müvafiq qərarlarının yanlış təfsiri və Avropa Şurasının insan hüquqları üzrə komissarının rəyindən əhəmiyyətli dərəcədə fərqlənən qiymətləndirmələr də daxil olmaqla, Komitənin təcrübə sahəsinə və mandatına aid olmayan məsələlərə (misal üçün, Laçın yolu ətrafında vəziyyət və ya etnik ermənilərin Qarabağ bölgəsindən Ermənistana köçməsi) dair bir çox yalan iddialar qəbuledilməzdir.

Çərçivə Konvensiyasının təkcə milli azlıqlara mənsub şəxslərin hüquqlarının müdafiəsinin təmin edilməsini nəzərdə tutmadığı, eyni zamanda, qanunun aliliyinə və əlaqədar dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşuna hörmət edilməsinin zəruriliyinə əsaslandığı həmçinin bir daha qeyd olunmalıdır. Buna baxmayaraq, rəydə birtərəfli qaydada erməni sakinlərinin hüquqlarının müdafiəsinin zəruriliyi qeyd edilir, həmin kateqoriyaya aid olan şəxslərin Azərbaycanın qanunvericiliyinə əməl etmək öhdəliyinə isə məhəl qoyulmur.

Böyük narahatlıq doğuran digər məsələ standartların üzv dövlətlərə münasibətdə qeyri-düzgün tətbiqidir. Azlıqların hüquqları ilə əlaqədar bənzər vəziyyətlərdə olmalarına baxmayaraq, bəzi ölkələrə fərqli münasibətin göstərilməsi təəssüf doğurur. Etnik təmizləmə siyasəti nəticəsində Ermənistanda öz doğma yurdlarından zorla qovulmuş azərbaycanlıların hüquqlarına Komitə tərəfindən etinasızlıq nümayiş etdirilməkdədir.

XİN-in şərhində sonda qeyd edilir ki, ölkədə insan hüquqlarının ümumi vəziyyətinin qiymətləndirilməsinin aparılması Məşvərət Komitəsinin mandatından və Konvensiyanın əhatə dairəsindən kənara çıxılması deməkdir və bu qiymətləndirmənin rəyin məqsəd və hədəfləri ilə əlaqəsi yoxdur. Bu baxımdan, Məşvərət Komitəsinin Media haqqında və QHT-lər haqqında qanunlara yenidən baxılmasına dair çağırışı qeyri-adekvatdır və uyğun deyil.

Vətəndaşları üçün insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi, layiqli yaşayış səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Azərbaycanda bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilib və hazırda da həyata keçirilir.

**XQ**

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Bir telefon zənginin əks-sədası

## *Rəsmi İrəvan Trampın hakimiyyətə qayıdışından məyus olanlar sırasındadır*



**(əvvəli 1-ci səhifədə)**

İndiyədək D.Tramp ABŞ-nin bütün sahələr, o cümlədən təhlükəsizlik və kəşfiyyat sahəsi üzrə on illərdir mühüm strateji tərəfdaşı olan İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu, həmçinin Almaniyanın Federal Kansleri Olaf Şoltzla telefonla danışıb. Onun digər dünya liderləri ilə telefon əlaqəsi saxlamasına dair məlumat yoxdur. Belə bir məqamda Paşinyanın Trampa zəng etməsi onun seçkiqabağı dövrdə Demokratlar Partiyasının namizədi Kamala Harrisi dəstəkləməsi ilə bağlı ola bilər. Məsələ ondadır ki, demokratlar "erməni məsələsi"nə hər zaman xüsusi həssaslıqla yanaşıblar. Bu yanaşmanın kökləri hələ 1913-1921-ci illərdə ABŞ Prezidenti olmuş demokrat Vudro Vilsonun zamanına gedib çıxır. Onun siyasətini davam etdirən demokratların təmsilçisi Co Bayden açıq ermənipərəst siyasət aparırdı. Doğrudur, 1915-ci ilin aprelində Osmanlı imperiyasında baş vermiş hadisələrlə bağlı "soyqırımı" sözünü işlədən ilk ABŞ Prezidenti respublikaçı Ronald Reyqan olub. O, 1981-ci il aprelin 22-də qondarma olaylarla bağlı müraciətində "soyqırımı" sözünü işlədib. Amma bu da Ağ evin nitq yazıları şöbəsinin rəhbəri Ken Xaçikyanın sayəsində mümkün olmuşdu. Reyqanın məşhur çıxışını da erməni miqrantlarının nəslindən olan kaliforniyalı Xaçikyan yazmışdır. Reyqanın çıxışından 30 il sonra – 2021-ci ilin aprelində qondarma hadisələrlə bağlı "soyqırımı" sözünü işlədən məhz C.Bayden olmuşdur.

2018-ci ildə milyarder Corc Sorosun əli ilə Ermənistanda hakimiyyətə yiyələnmiş Nikol Paşinyan da təbii olaraq, Qərblə, xüsusilə ABŞ ilə çox yaxın münasibətlər qurmağa çalışırdı. Bayden Administrasiyası isə birmənalı şəkildə ermənipərəst mövqe tutmaqda idi. Vaşinqton Cənubi Qafqaz siyasətini məhz Ermənistan üzərindən reallaşdırmağa çalışırdı. Baydenin dövründə Ağ ev Ermənistana həm hərbi, həm də siyasi dəstək verməklə diqqəti çəkirdi. Rəsmi İrəvan isə Ağ evə güvənərək, sülh prosesindən uzaqlaşmağa da cəsarət edirdi. ABŞ-nin kobud müdaxiləsi Azərbaycan və Ermənistan arasında yekun sülh sazişinin imzalanması qarşısında ən ciddi əngəlləyici faktorlardan sayılırdı. İrəvan sülh sazişinin imzalanmasını mümkün qədər uzatmaqla, ABŞ-nin, bütövlükdə, Qərbin dəstəyini alaraq, Azərbaycana qarşı revanşist niyyətlər güdürdü. Başqa sözlə, ABŞ, Avropa İttifaqı və xüsusilə, Fransanın yardımları ilə Cənubi Qafqazda geopolitik şərtləri özünün xeyrinə dəyişə biləcəyinə böyük ümidlər bəsləyirdi. Sırf bu hədəflərinə çatmaq üçün Ermənistan ABŞ başda olmaqla, Qərbdən gələn bütün təlimatları qeyd-şərtsiz icra edirdi.

Ermənistanın "Past" qəzetinin yazdığına görə, seçkidən əvvəl ABŞ-dəki bəzi dairələr Ermənistan hakimiyyəti qarşısında keçirilən sorğuların və aparılan təhlillərin nəticəsini qoyublar. Onlar Paşinyanı inandırmağa çalışıblar ki, demokratların namizədi Kamala Harris qalib gələcək: "Onlar Ermənistan hakimiyyətini inandırıblar ki, Trampın şansları aşağıdır, demokratların daha çox imkanları var. Nəticədə Paşinyan demokratlara "stavka" etmək məcburiyyətində qalıb. Təsadüfi deyildir ki, Ermənistanın ABŞ-dəki səfiri Lilit Makunts Demokratlar Partiyasının qurultaylarında və tədbirlərində fəal iştirak edib. Hətta Ermənistandan böyük nümayəndə heyəti də bu məqsədlə Vaşinqtona gedib. Beləliklə, Paşinyan iqtidarının mənsubları bütün yumurtaları demokratların səbətinə yığaraq, onlar istiqamətində birtərəfli işləyiblər. Seçkilərdən sonra isə Paşinyan səfir Makuntsdan və ona yalan danışan, respublikaçılarla münasibət qurmayan analitik mərkəzlərdən ciddi narazılığını bildirib. Trampın qələbəsi Paşinyan, Ermənistan xarici işlər nazirliyi və diplomatlar arasında ciddi söz-söhbətə səbəb olub".

Güman etmək olar ki, Paşinyan Trampa seçildikdən dərhal sonra təbrik məktubu ünvanlamaqla, sonra isə necə deyərlər, ürəyi soyumayaraq, zəng etməklə "günahını yumağa", gələcək ABŞ Administrasiyasından dəstəkdən məhrum olmamağa çalışıb. Amma onun səylərinin ciddi nəticə verəcəyini az ehtimal olunandır. Məsələ ondadır ki, respublikaçılar Azərbaycanın regiondakı önəmini hər zaman yüksək qiymətləndiriblər. İstənilən respublikaçı prezidentin hakimiyyət dövrü ABŞ–Azərbaycan münasibətlərinin rəvan olması ilə seçilib. Üstəlik, Tramp gələn ilin əvvəlindən ikinci müddətə vəzifə səlahiyyətlərinin icrasına başlayır. Biz onun birinci prezidentliyi dövründə Azərbaycana bəslədiyi münasibəti yaxşı xatırlayırıq. Prezident İlham Əliyevin noyabrın 6-da D.Trampa ünvanladığı təbrik məktubunda da bu münasibət xatırladılıb: "Siz birinci prezidentlik dövrünüzdə Azərbaycanla Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə, əməkdaşlığımızın davamlı və ardıcıl inkişafına böyük diqqət ayırırdınız. Məmnunluqla qeyd etmək istərdim ki, bu dövr ərzində qarşılıqlı etimad və dəstəyə əsaslanan tərəfdaşlığımız, o cümlədən bir sıra mühüm sahələrdə, xüsusilə də qlobal çağırışlara və terrorizmə qarşı mübarizədə, beynəlxalq sülhün və təhlükəsizliyin gücləndirilməsində, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində birgə fəaliyyətimiz dinamik və yüksələn xətt üzrə inkişafı ilə səciyyələnirdi. Azərbaycanın enerji strategiyasına Sizin daim qətiyyətli dəstəyinizi xüsusi qeyd etmək istərdim..."

Siyasi ekspert Viktoq Sjoq Paşinyanın Trampa zəng etməsini mənasız iş adlandırıb. O, "X" platformasındakı paylaşımında qeyd edib ki, D.Tramp və Tramp ailəsi türklərlə yaxın dostdur. Onun sözlərinə görə, bu fikri Respublikaçılar Partiyasının üzvlərinə də aid etmək olar: "Respublikaçılar Partiyasında Ermənistanla əlaqəsi olan adam yoxdur. Onların hamısı Bakı və Ankara ilə işləyirlər. Bayden Administrasiyası Ermənistan üçün 2021–2025-ci illərdə əldən verilmiş fürsət oldu. Bayden Ermənistan üçün ən çox işlər görən prezidentlərdən biridir. Pik, əlbəttə ki, "erməni soyqırımı"nın tanınması, həmçinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosi və onun nümayəndə heyətinin 2022-ci ildə İrəvana yüksək səviyyəli səfəri idi. Lakin sonra, bu, sona çatdı. Eyni zamanda, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Avrasiya İqtisadi İttifaqını tərk etməyib. Ermənistan Trampın bütün prezidentliyi dövründə bu təşkilatlarda qalacaq".

V.Sjoq bildirib ki, Demokratlar Partiyasının Kaliforniyadakı ofisi Ermənistanı ABŞ ilə dostlaşdıran əsas təsisatlardandır. Onlar ermənipərəst baxışlara malikdirlər və eyni zamanda, yəhudi mənşəlidirlər: "Bir çoxları Amerika Erməni Milli Komitəsi – ANCA-nın tədbirlərində iştirak edirlər. Bu sıraya A.Şiff, B.Şerman, B. Bokser, J.Şpeyer, J.Şakovski, B.Şenieder kimi konqresmenlər və senatorlar daxildirlər. Onlar ABŞ, Ermənistan və İsraili müttəfiq etmək istəyirlər. Hətta, yeni alyansı "USAMIL" adlandırırlar. Zənnimcə, biz ən azı 2029-cu ilin yanvarına qədər gözləməliyik".

Mözvu ilə bağlı fikirlərini XQ ilə bölüşən **Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov** bildirdi ki, D.Trampın hakimiyyətə qayıdışı bəzi dövlətlərin liderlərinə çox böyük məyusluq gətirdi. Onun sözlərinə görə, məyus olanlar arasında Ukrayna, Moldova və Ermənistan kimi ölkələrin rəhbərləri var. Hər halda Baydenin arxasında dayanan qüvvələr, yaxın çevrəsi, həqiqətən də, Paşinyanla sıx münasibətlərə malik idilər: "Biz bu sıraya Corc Sorosu, Baydenə, demokratlara yaxınlığı ilə seçilən dünyada "rəngli inqilablar" edən mərkəzləri aid edə bilərik. Bütövlükdə, Bayden Administarasiyası ilə Ermənistan hakimiyyəti arasında çox ciddi, sıx və dərin əməkdaşlıq mövcud idi. Həm Ermənistan, həm də ABŞ tarixində ilk dəfə idi ki, demək olar, hər ay demokratların nümayəndləri İrəvana səfər edirdilər. Onlar bu səfərlər zamanı müxtəlif görüşlər keçirirdilər. Ümumiyyətlə, ABŞ-də hansı partiyanın hakimiyyətdə olmasına baxmayaraq, xarici siyasət üçün cavabdehlik daşıyan mərkəzlərin planlarına görə, Ermənistan gələcək siyasətdə xüsusi rol oynamalı idi. Yəni, Ermənistan Ukrayna və Moldovada bu gün Rusiya ilə aparılan mübarizə kontekstində önəmli paya malik olmalı idi".

Z.Məmmədov dedi ki, biz bu kontekstdə Fransa və Hindistan tərəfindən Ermənistan ordusunun silahlandırılmasını, İrəvana müxtəlif adlar altında edilən maliyyə yardımlarını görürük. Eyni zamanda, Paşinyan hər il keçirilən Demokratiya sammitinə ABŞ Prezidenti tərəfindən dəvət edilir, Ermənistana Avrasiya ölkələri



arasında xüsusi diqqət yetirilir, hətta, Hayastanın "avropalaşdırılması" istiqamətində xüsusi işlər görülürdü: "Heç kimə sirr deyil ki, Baydenin zamanında Ermənistan KTMT-dəki statusunu minimallaşdırdı, NATO-ya daha çox inteqrasiya etməyə başladı. Ermənistanın Avropa İttifaqı ilə münasibətləri daha intensiv xarakter aldı. Bu çərçivədə Paşinyanın istəyi, əlbəttə, demokratların hakimiyyətdə qalmaları idi. Amma respublikaçıların – Trampın hakimiyyətə qayıdışı, əlbəttə, rəsmi İrəvanda ciddi narahatlıqlara səbəb oldu. Bu narahatlıq Trampla Putinin yaxın vaxtlarda Ukrayna məsələsində, dünyanın ayrı-ayrı bölgələrindəki vəziyyətlə bağlı dil tapacaqları təqdirdə Ermənistanın aqibətinin necə olacağı ilə bağlıdır".

Politoloq bildirdi ki, Tramp əsas hədəfinin Çin Xalq Respublikası, o cümlədən qlobal istiləşmə ilə mübarizə olduğunu açıq şəkildə bəyan edir. Əgər Tramp ABŞ-nin əsas rəqibi kimi Çini görürsə, o zaman Rusiyanı ən pis halda neytral mövqeyə qoyur: "Neytral mövqe isə Rusiya–Ukrayna müharibəsinin dondurulması, yaxud tərəflərin diplomatik yolla məsələnin həllinə başlamaları halında mümkün ola bilər. Bu isə təbii ki, ABŞ və Rusiya arasında təkcə Ukrayna ilə bağlı deyil, Mərkəzi Asiya və Cənubi Qafqazla bağlı müəyyən razılaşmalara gətirib çıxaracaq.

Müharibənin dayandırılmasından sonra Putinin hərbi əməliyyatlar zamanı ona qarşı çıxmış liderlərə münasibəti necə olacaq? Paşinyanın Trampa zəngi də bu narahatlıqdan irəli gəlir. Nikol ümid edir ki, ABŞ Tramp Administrasiyası dövründə Ermənistanı unutmayacaq, İrəvanı proseslərdən kənarlaşdırmayacaq və onu yenidən Rusiyanın çətiri altına verməyəcək. Paşinyanın istəyi Trampın Cənubi Qafqazla bağlı radikal addımlar atmaması, onu qoruması ilə bağlıdır. Paşinyan özünün şəxsi təhlükəsizliyi, vəzifə kürsüsü naminə bu zəngi edib".

Müsahibimiz onu da əlavə etdi ki, Ermənistan hakimiyyəti çaşqın durumdadır və bundan sonrakı proseslərin necə olacağı ilə bağlı narahatdır. Onun Trampa zəngi də bu çaşqınlığın aşkar göstəricisidir.

***Səxavət HƏMİD***
***XQ***

# Paşinyan komandasında "yarpaq tökümü"

## *Bu, Hayastan liderinin 6 ildə apardığı ilk köklü kadr islahatıdır*

**Ərazi idarəetmə və infrastruktur naziri, Dövlət gəlirləri komitəsinin rəhbəri Nikol Paşinyanla təcili iclasa çağırılandan sonra, onların ardınca Daxili işlər naziri, İstintaq komitəsinin rəhbəri, Ali Məhkəmə Şurasının, Antikorrupsiya komitəsinin sədrləri tutduqları postlarından istefa verdiklərini açıqlayıblar.**

Hələlik səs-küylü istefaların qəbul edilməsinin rəsmi təsdiqi yoxdur. Bununla bağlı baş nazirin tezliklə qərar verəcəyi gözlənilir. İqtidar komandasında qəfil "yarpaq tökümü"nün Paşinyanın nazirlər kabinetinin iclasında təhlükəsizlik qüvvələrinin rəhbərlərinə verdiyi son töhmətin ardınca başladığı diqqətdən yayınmayıb.

Nikol Paşinyan hakimiyyətə gəlməsindən 6 il sonra komandasında apardığı kadr dəyişiklikləri ilə bağlı xalqa müraciətində bunun səbəbini açıqlayıb: "Hörmətli həmvətənlər, mətbuatda və sosial şəbəkələrdə



gedən geniş müzakirələri nəzərə alaraq bildirməyi zəruri hesab edirəm ki, mən bəzi yüksək vəzifəli şəxslərdən tutduqları vəzifələrdən getmələrini xahiş etmişəm. Belə bir müraciətin edilməsinin səbəbləri şəxsi deyil, açıq şəkildə söylədiyim sistem xarakterlidir. Eyni zamanda, adları çəkilən tərəfdaşlarımızın dövlətçiliyimizin inkişafında xidmətlərini inkar edə bilmərəm və hər kəsə töhfələrinə və xahişimi başa düşdüklərinə görə təşəkkür edirəm".

İqtidar partiyasından istefalarla bağlı reaksiyaların hamısı bir məntiqə köklənib: hüquq-mühafizə və məhkəmələrin rəhbərlərinin genişmiqyaslı istefaları baş nazir tərəfindən onların ünvanına səslənən son tənqidlərin məntiqi davamı kimi qəbul edilməlidir. Bu barədə dünən Ermənistan Milli Assambleyasında keçirilən ənənəvi brifinqdə hakim "Mülki müqavilə" partiyasının parlament fraksiyasının rəhbəri Hayk Koncoryan danışıb. Bu məqamda oxuculara xatırladaq ki, iki gün əvvəl parlament iclasında iqtidar partiyasından olan deputat Ovik Ağazəryanla Ermənistan istintaq komitəsinin keçmiş sədri Argişti Kərəmyan arasında ciddi münaqişə baş verib. Bu zaman tərəflər bir-birini hətta küçə söyüşləri ilə təhqir ediblər. İnsidentlə bağlı H.Koncoryan bildirib ki, cəmiyyətdə birmənalı şəkildə qayda-qanun yaradılmalıdır: "Bu, parlamentin iclas zalında da müzakirə mövzusuna çevrilib".



Ermənistanın ədliyyə sistemində problemlərin 30 ildir yığıldığını və onların köklü xarakter daşıdığını xatırladan deputat buna seçki yolu ilə və ya başqa üsulla deyil, kadr siyasəti nöqteyi-nəzərindən baxmaq lazımdır. Az sonra isə parlament çoxluğunun rəhbəri etiraf edib ki, ayrı-ayrı adamları dəyişdirməklə hər hansı sistem dəyişikliyinə nail olmaq qeyri-mümkündür.

"Siz hər şeyə görə cavab verməli olacaqsınız!". Bu sözləri Ermənistan siyasi sistemində başlamış kadr dəyişikliyi və geniş miqyaslı ixtisarlarla bağlı danışarkən müxalifətdən olan deputat, Respublika partiyasının üzvü Tiqran Abramyan bildirib. "Ermənistanın hazırkı baş naziri Nikol Paşinyan hakimiyyətdə olduğu 6 il ərzində bir çox vədlər verib. O cümlədən müstəqil məhkəmə sisteminin formalaşdırılması, həmçinin korrupsiya ilə mübarizə sahəsində islahatla bağlı. Amma heş bir vədini yerinə yetirməyib"– deyən T.Abramyan bu barədə Milli Assambleyada təşkil olunan ənənəvi brifinqdə danışıb.

"Ancaq illər boyu hakimiyyətin maraqlarına xidmət edənlər indi rüsvayçılıq içində yaşayırlar. İntəhası, işdən çıxmaq onları vəzifədə olarkən törətdikləri əməllərə görə məsuliyyətdən azad etmir. Amma vaxt gələcək və onlar indiki hərəkətlərinə görə cavab verməli olacaqlar".

Ermənistan hökumətində köklü kadr dəyişikliklərinin maraqlı hadisələrin fonunda baş verməsi də nəzərdən yayınmır. Söhbət bir neçə gün əvvəl baş nazir Nikol Paşinyanın imicini qəfil dəyişməsi – saqqalını qırxmasından gedir. Sosial şəbəkələrin erməni seqmentlərində baş nazirin yeni sima görünüşü ilə komandasında başladığı kadr islahatları arasında qəribə paralellər aparılmaqdadır. Hay siyasi təhlilçiləri, eksspertləri Paşinyanın yeni imic jesti ilə "komandasının simasını təzələmək" addımları arasında birbaşa bağlılıq axtarırlar.

Yəni, sosial mediada belə bir fikir geniş yayılmaqdadır ki, Nikol Paşinyan saqqalını qırxmaqla Ermənistan hakimiyyətində yeni mərhələnin başlandığı mesajını verir və o, hökumətdə başladığı kadr islahatını daha qətiyyət və sürətlə həyata keçirmək niyyətindədir.

Əslində, erməni blogerlərin "saqqal və kadr dəyişikliyi" arasında apardıqları paralellərdə baş nazirin həm daxili, həm də xarisi siyasət strategiyasında ciddi korrektələr edəcəyi kimi xarakterizə olunur. Yaxın vaxtlarda Hayastan iqtidarında qəfil "yarpaq tökümü"nün arxasında daha nələrin gizləndiyinin şahidi olacağıq.

***İ.HƏSƏNQALA***
***XQ***

COP29 Baku Azerbaijan

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

COP29 Baku Azerbaijan

# Pallone Bakıya gəlməyə məcbur idi

**(əvvəli 1-ci səhifədə)**

Mövzu ilə bağlı XQ-yə danışan **Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycan–ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupun və AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov** əvvəlcə COP29-un əhəmiyyəti və Azərbaycana verdiyi şansları qeyd etdi: “Bu gün Azərbaycanı dünyaya, dünyanı da Azərbaycana ən yüksək səviyyədə təqdim edirik. Bu, təsadüfi deyil. Ona görə ki, Azərbaycanın yaratdığı yeni reallıq beynəlxalq münasibətlərə, dünya düzəninə ciddi təsir göstərib. Məhz bu təsirin nəticəsində dünyanın əksər dövlətləri COP29-un bizim ölkəmizdə keçirilməsinə müsbət yanaşdılar. BMT-nin bu tədbiri özlüyündə Azərbaycanın dünya siyasətində aparıcı ölkələrdən birinə çevrilməsinin göstəricisidir. Bakıya gələn qonaqların içində dostlarımızla yanaşı, düşmənlərimiz də var idi. Yəni, bizi qəbul edənlər və qəbul etməyənlərdir. Bəli, bu da təsadüfi deyil. Çünki Azərbaycan elə bir siyasət formalaşdırıb ki, onun reallığını nəzərə almamaq və burada olmamaq dünyada gedən proseslərdən kənarda qalmaq deməkdir”.



S.Seyidov ermənipərəst mövqeyi və anti–Azərbaycan çıxışları ilə tanınan Frenk Pallonenin COP29-a gəlməsi ilə bağlı bunları söylədi: “Düşünürəm ki, onun gəlişinin əsas səbəbi gündəmdə qalmaq, özünü dünya siyasətinin içində hiss etməkdir. Onlar ABŞ-da olduğu kimi, dünyada da uduzurlar və Bakıya gəlməyə məcburdurlar. Amma, bu, heç də o demək deyil ki, həmin qüvvələr mövqelərini dəyişəcəklər. Pallone Azərbaycana gəlişi ilə başa düşür ki, Bakı ilə başqa dildə danışmaq mümkün deyil. Yalnız bir dil var: Azərbaycanın mili maraqlarını nəzərə almaqla qarşılıqlı hörmət və qarşılıqlı anlaşma. Azərbaycan bu mövqeyini ərazi bütövlüyünü, suverenliyini bərpa etməklə, şəhidlərin qanı ilə qazanıb. Azərbaycan Prezidentinin apardığı qəti siyasəti, onun dəmir iradəsi, diplomatik fəhmi və cəsarəti ilə qazanıb. Bizim siyasətimiz yalnız cəsarətlə, qalxıb ucadan nəsə deməklə bağlı deyil. Elələrini eşidənlər azdır. Azərbaycanın sözü ona görə ağıllı və cəsarətlidir ki, 30 il müddətində bunu dilə gətirmək haqqını qazanıb”.

Azərbaycan Prezidentinin COP29-un tribunasından etdiyi çıxışının Böyük Britaniyanın “Telegraf” qəzetində dərc olunmasına diqqəti çəkən S.Seyidov bunun nadir hadisə olduğunu vurğuladı: “İndiyə qədər belə bir presedent olmayıb. Bu gün Azərbaycanın yürütdüyü dişli siyasət pallonelərin Bakıya gəlməsini şərtləndirir. Avropa Parlamentində bizə qarşı səs verən, danışan deputatları Azərbaycana gəlməyə məcbur edən həmin siyasətdir. Bu siyasətin dünyanın böyük dövlətləri tərəfindən nəzərə alınması artıq reallıqdır. Ölkəmiz Qərb və Şərq, Şimal və Cənub arasında sadəcə logistik əlaqələri deyil, eyni zamanda, qitələrarası siyasi əlaqələri ən yüksək səviyyədə təşkil etməklə dünyanın güc mərkəzlərindən birinə çevrilib. Unikal proses baş verir. COP29 bunu əyani şəkildə göstərdi. Dünyanın əksər dövlət başçıları, beynəlxalq təşkilatlar, tanınmış simalar Bakıdadırlar. Bu, dövlətimizin başçısının və Azərbaycan xalqının ən böyük uğurlarından biridir”.

*

ABŞ Konqresinin üzvü Palloneni Bakıda bu formada qarşılamaqla əndazənin bir qədər aşıldığını etiraf edən **Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** həmin etirazın hansısa başqa şəkildə nümayişini məqbul saydığını bildirdi: “Pallone, sadəcə olaraq, ona görə Bakıya gəlmişdi ki, varlı dövlət kimi Azərbaycandan ermənilər üçün nəsə qoparmağın mümkün olub-olmadığını yoxlasın. Hamı kimi Pallone də çox gözəl anlayır ki, erməniləri onların istədiyi şəkildə Qarabağa qaytarmaq qeyri-mümkündür. Yəni, bundan sonra Qarabağdan könüllü getmiş erməniləri geri qaytarmaqdan ötrü heç kəs qolunu çırmayıb Azərbaycanla müharibə aparası deyil. Mənə elə gəlir ki, ABŞ Konqresində Pallonenin daxil olduğu həmin ermənipərəst qrupun məqsədi Azərbaycanı hansısa formada maliyyə baxımından yükləməkdir. Aydın məsələdir ki, rəsmi Bakı heç vaxt buna getməyəcək. Frenk Pallonenin Bakıda qarşılanma “mərasiminə” gəldikdə isə onu burada küncə sıxışdırmaq, səs-küy qaldırmağa ehtiyac yox idi. Çünki biz





COP29-un bütün qonaqlarının təhlükəsizliyinə təminat vermişik. Amma onu da vurğulamaq istərdim ki, ABŞ-də bu, bir qayda olaraq, qəbul edilib: hansısa ölkədən rəsmi qonaqlar gələndə orada etiraz aksiyaları, piketlər keçirilir. Onlar bunu söz azadlığı, sərbəst toplaşmaq kimi insan hüquqları ilə izah edirlər. Azərbaycan və Türkiyənin rəhbərlərinə qarşı Vaşinqtonda ermənilər tərəfindən təşkil olunan biabırçılıqları yada salmaq istərdim. Bu zaman onlar da anlamalıdırlar ki, Bakıda adekvat münasibətlə üzləşə bilərlər. İntəhası, COP29 beynəlxalq tədbir olduğuna görə düşünürəm ki, Palloneni o cür emosional səviyyədə qarşılamağa ehtiyac yox idi”.

Məlum hadisəyə münasibətini açıqlayan **Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri Fərid Şəfiyev** də Pallonenin qarşılanması qaydasının daha düşünülmüş şəkildə qurulmasının gərəkliyini söylədi: “Digər tərəfdən, bizim fəalların emosionallığını da başa düşmək lazımdır. Frank Pallone uzun müddətdir ki, ABŞ Konqresində erməni lobbisinin əsas simalarından biridir. O ki qaldı onun BMT-nin iqlim sammitində iştirak etmək üçün gəldiyi Bakıda görüşləri, yaxud hər hansı çıxışlarını görmədim, oxumadım. Hətta sosial şəbəkələrdə postlarını da izlədim, amma hələlik Azərbaycana səfəri ilə bağlı heç bir paylaşım etməyib. Ümumiyyətlə, erməniləri dəstəkləyən konqresmen



üçün Azərbaycanı ziyarət etmək bir fürsət idi. Bildiyim qədər, o, Bakıya qısa səfəri çərçivəsində Azərbaycan rəsmiləri, bəzi mötəbər şəxslərlə görüşmək arzusunu bildirib, amma ona bu imkanı yaratmayıblar. Yəni, heç kim onunla görüşmək istəməyib. Xatırladım ki, COP29-un gedişində ABŞ Senatı və aşağı palatada keçirilən bir neçə mətbuat konfransında da Polleni gözümə dəymədi. Həm də buna görə hesab edirəm ki, onun Bakıya səfəri, burada təmasları, fəaliyyəti tam aydın olmadı. Hesab edirəm ki, sadəcə, burada nələrin baş verdiyi ilə maraqlanmaqdan ötrü gəlmişdi. Ola bilsin ki, o, COP29-u Azərbaycanı görmək üçün yaranan bir fürsət kimi dəyərləndirib”.

Mövzu ilə bağlı XQ-yə açıqlama verən **siyasi icmalçı Yeganə Hacıyeva** beynəlxalq təcrübədə istər vətəndaş cəmiyyəti, istərsə də idman nümayəndələrinin bu və ya digər məsələyə, nəticəyə öz etirazlarını bildirmək mədəniyyətinin mövcud olduğunu qeyd etdi: “Misal üçün, Amerika Birləş-



miş Ştatlarına səfər edən, az qala, hər ikinci dövlət rəsmisinə, tanınmış şəxsə qarşı görüşlərin keçirildiyi məkanlarda etiraz aksiyaları, piketlər təşkil olunur. Azərbaycan QHT-ləri də bu demokratik təcrübədən yararlanıblar. Sadəcə olaraq, etirazın forması ev sahibi olan dövləti haqlı olduğu halda haqsız duruma salmamalıdır. Amma, təkrar edirəm, QHT-lərin belə etiraz formaları dünyada qəbul edilmiş təcrübədən qaynaqlanır. Mən özüm COP29-un panellərinin qurulması, eləcə də nümayəndələrin qarşılanması və onların müşayiət olunması prosesinin iştirakçısıyam. Hökumətin müvafiq strukturlarının sammitə çox yüksək səviyyədə hazırlaşdığını, necə böyük və məsuliyyətli işləri gördüyünü müşahidə edirəm. Digər tərəfdən onu da demək istəyirəm ki, Frank Pallonenin Bakıya gəlişini bəlkə də, təxribat adlandırmaq olar”.

Yeri gəlmişkən, Pallonenin yerləşdiyi hotelin pəncərəsindən Hərbi Qənimətlər Parkı və Zəfər Tağı aydınca görünürmüş. Yəqin o, Azərbaycanın tarixi qələbəsinin əyani nişanələrinə ürək ağrısı ilə tamaşa edirmiş. Beləliklə, ABŞ-nin ermənipərəst konqresmeninin COP29 bəhanəsilə Bakıya gəlməyini və necə qarşılanmasını gördük, amma onun Azərbaycanı nə zaman tərk etdiyindən xəbərimiz olmadı. Bütün hallarda adı rəsmi Bakının “qara siyahısı”na düşmüş ermənipərəst siyasətçinin BMT-nin nüfuzlu tədbirinə qatılmasını əngəlləyən olmadı. Yəqin, Frank Pallonenin özü də hələ səfərindən xeyli əvvəl bilirdi ki, onu Bakıda gül-çiçəklə qarşılamayacaqlar...

***İmran BƏDİRXANLI***
***XQ***

# ATACMS – Baydenin sonuncu “gülləsi”

## *Qərb – Rusiya ziddiyyətlərində növbəti mərhələ*

**Hazırda dünyanı düşündürən məsələlərdən biri də ABŞ-nin fəaliyyətdə olan Prezidenti Co Baydenin Ukraynanın Rusiyaya qarşı ATACMS uzaqmənzilli raketlərinin istifadəsinə icazə verməsinə dair qərarıdır. Bu qərar, faktiki olaraq, ikincinin daxilindəki hədəflərin də vurulması anlamına gəlir. Belə hal yaşansa, şübhəsiz, Rusiya cavab tədbirləri görəcək və həmin tədbirlərin nə ilə nəticələnəcəyini təxmin etmək çox çətindir. Hər halda, dünyanın daha böyük təhlükəyə girəcəyini söyləmək mümkündür. Söhbətimiz bu barədədir. Ancaq əvvəlcə bir məqama diqqət yetirək.**



ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Trampın seçkiöncəsi açıqlamaları onu deməyə əsas verirdi ki, o, Rusiya ilə Ukrayna arasındakı müharibəni dayandırmağa köklənib. Yəqin elə buna görədir ki, jurnalistlər ATACMS raketləri ilə bağlı məsələyə Trampın keçid komandasının üzvlərinin münasibət bildirməsinə maraq göstəriblər. Məsələn, CNN bunun üçün ABŞ-nin yeni seçilmiş prezidentinin kommunikasiyalar üzrə direktoru Stiven Çunqu danışdırıb.

Böyük anlamda götürsək, S.Çunq duruma şərh verməkdən boyun qaçırıb. O, Trampın seçkiqabağı kampaniyası zamanı hər iki tərəfi sülh danışıqları aparmağa və müharibəni dayandırmağa razı salacaq yeganə şəxs olduğunu dilə gətirməsini xatırladıb. Çunq, həmçinin, Bayden Administrasiyasının Trampa və ya onun nümayəndələrinə Rusiya – Ukrayna müharibəsində ciddi nəticələrə səbəb ola biləcək qərarlar barədə əvvəlcədən məlumat verib-vermədiyi barədə sualı da cavablandırmayıb.

Hazırda cərəyan edən proseslər ABŞ başda olmaqla, kollektiv Qərbin Rusiya-Ukrayna müharibəsinin başa çatmasında maraqlı olmadığının təsdiqidir. Nəzərə alaq ki, ATACMS raketləri məsələsinin gündəmə gəlməsi adi qarşılana bilməz. Əvvəldə də bildirdik ki, həmin raketlərdən istifadə təqdirində Rusiyanın cavab tədbirlərinin olacağı şübhəsizdir. Bu tədbirlərin vəziyyəti daha da çıxılmaza salacağı durumunda isə Trampın verdiyi vəd əhəmiyyətini itirə bilər. Belə qənaətə gəlmək mümkündür ki, hazırkı Ağ ev Administrasiyası yeni dövlət başçısı üçün indidən problem yaratmaqla məşğuldur. Görünür, qoca Bayden getməzdən əvvəl sonuncu gülləsini – ATACMS-ni atmaq fikrindədir.

Bəli, Baydenin ATACMS uzaqmənzilli raketlərinin Rusiya ərazisində istifadəsinə icazə verməsi rəsmi Vaşinqton üçün tamam fərqli perspektiv açır. Bu perspektiv Birləşmiş Ştatları, faktiki olaraq, müharibə iştirakçısına çevirir. Əlbəttə, vəziyyəti savaşda iştirakçılığı yeni müstəviyə daşımaq kimi də qiymətləndirmək mümkündür.

Hər bir halda, durum Rusiya ilə ABŞ arasındakı gərginliyi əhəmiyyətli dərəcədə şiddətləndirəcək. Bəs Rusiya ATACMS hücumlarına cavab olaraq nə edə bilər? Əlbəttə, ilk növbədə ağla gələn ölkənin Ukrayna ərazisində yeni, əvvəlkilərdən daha geniş miqyaslı əməliyyatlara başlaması ehtimalıdır. Nəzərə alaq ki, belə bir ehtimal reallaşsa, Moskvanın hədəfi yalnız Ukrayna olmayacaq. Yəni, cavab tədbirlərinin NATO ölkələrinin infrastukturuna da təsirsiz ötüşməyəcəyi barədə düşünməyə dəyər. “Yaralı ayı”nın önünə keçən hər şeyi darmadağın etmək xarakterinin olduğunu hər kəs yaxşı bilir.

Qeyd edək ki, Fransanın “Le Figaro” nəşri Fransa və Böyük Britaniyanın da Ukraynaya Rusiyanın dərinliklərinə zərbələr endirməsinə icazə verdiyi barədə məlumat yaymışdı. Sonradan həmin məlumat xəbər lentindən silinsə də, aktuallığını saxladı. Çünki orada bildirilirdi ki, Parisin və Londonun “SCALP” və “Storm Shadow” raketləri ilə Rusiyaya hücumlara razılığı olub.

Yeri gəlmişkən, Almaniyanın yüksək təsnifatlı yeni super silahının uğurlu sınaqdan sonra artıq Ukraynanın şərqində real şəraitdə istifadə olunduğuna dair məlumat da yayılıb. Məlumatda bildirilib ki, həmin silahın kütləvi şəkildə Ukraynaya çatdırılmasına dekabrda başlanılacaq. Söhbət dronlardan gedir. Almaniyanın “Bild” nəşri öyrənib ki, alman süni intellekt şirkəti “Helsing” 2024-cü ilin sentyabrında Ukrayna Müdafiə Nazirliyi ilə 4000 ədəd “hücum dronları”nın tədarükü üçün müqavilə imzalayıb. Müqavilə üzrə maliyyələşməni Almaniya federal hökuməti həyata keçirir.

Maraqlı məqam ondadır ki, sözügedən dronlar insan tərəfindən idarə olunan kamikadzelər yox, süni intellektə malik yüksək texnologiyalı təyyarələrdir. Onlar ərazini özü öyrənir, hədəf yerini müəyyənləşdirərkən minlərlə işarədən istifadə edir. Almaniyanın müdafiə naziri Boris Pistorius isə məsələ ilə bağlı bunları deyib: “Mən çox şadam ki, (Ukraynaya – red.) süni intellektli hücum dronlarının çatdırılmasına başlanılır. Bu silahlar Ukrayna silahlı qüvvələrinin komanda məntəqələri və ya logistika obyektləri kimi Rusiyanın yüksək prioritetli hərbi obyektlərinə zərbələr endirməsinə imkan verəcək”.

Nəhayət, ABŞ başda olmaqla kollektiv Qərbin Ukrayna müharibəsi fonunda anti-Rusiya köklənişinin gücləndiyini görürük. Bu, Qərbin savaşa müdaxiləsinin genişlənməsi anlamına gələn durum formalaşdırır. Müvafiq olaraq, Rusiya ilə qarşıdurmanın dərinləşməsi ehtimalını xeyli gücləndirir. Hərçənd, başlıca məqsədin Moskvanı, necə deyərlər, diz çökdürmək olduğu aydındır. Bəs, bu nə dərəcədə realdır? Yəni, demək olarmı ki, Kreml mövqeyindən geri duracaq?

Məsələ ondadır ki, Qərb, o cümlədən, ABŞ 2022-ci ildən başlayaraq, Ukraynanı ən müasir silahlarla təmin etməkdədir. Ancaq yekun nəticə etibarilə bunun heç nəyə yaramadığı aşkar görünməkdədir. Deməli, indi ATACMS raketlərinin istifadəsi Ukraynaya müəyyən hərbi üstünlük qazandıra bilər. Amma bu, heç də o demək deyil ki, müharibədə hansısa köklü dəyişiklik olacaq. Alınmayacaq, əvəzində dağıntılar, insan tələfatları artacaq, barış mühitinin formalaşması bir qədər də çətinləşəcək. Üstəlik, ümumən beynəlxalq münasibətlər sistemində də təbəddülatlar güclənəcək.

***Ə.RÜSTƏMOV***
***XQ***

# COP29-un geosiyasi və siyasi-tarixi əhəmiyyəti




**V MƏQALƏ**

## COP tarixində "Azərbaycan möhürü"

İndi biz çəkinmədən COP tarixində "Azərbaycan möhürü"ndən danışa bilərik. Bu, sülh, əməkdaşlıq, həmrəylik, humanitarlıq və tərəfdaşlıqla ekoloji faktorun bir-birini tamamlaması nümunəsi kimi dünya üçün yenilikdir. Bu cür qiymətləndirmənin kökündə ölkə rəhbərliyinin həyata keçirdiyi siyasi-diplomatik kursun dayandığını vurğulamalıyıq.

Sözdə çox lider sülh, əməkdaşlıq, həmrəylik, humanitarlıq və tərəfdaşlığın uyğunlaşdırılmasından, onların bir-birini tamamlamasından danışır. Lakin real siyasətdə bunun məhz belə olduğunu nadir hallarda müşahidə edirik. Müxtəlif səbəblərdən liderlər eqoist, proteksionist və ambisiyalı addımlar atırlar. Onlar faktiki olaraq bununla, bütövlükdə, qlobal geosiyasətin "ekologiyasını" pozurlar. Üstəlik, dürüst siyasi liderlərə böhtan atmaqdan da çəkinmirlər ki, nəticədə bütövlükdə dünya üçün yeni risklər meydana çıxır. Əminik ki, iqlim dəyişmələrinin bu dərəcədə təhlükəli səviyyəyə yüksəlməsi birbaşa liderlərin siyasətdə səmimiliklə qeyri-səmimiliyi qarışdırmaları ilə bağlıdır.

Bunların fonunda keçən əsrin 90-cı illərində Heydər Əliyevin dürüstlüyü, humanitarlığı, ədalət və hüquqa üstünlük verməsi ilə müstəqil bir dövlətin başçısı olaraq beynəlxalq siyasət meydanında yenidən çıxmasına, etiraf edək ki, bir müddət şübhə ilə yanaşdılar. Lakin Azərbaycan rəhbərinin "Əsrin müqaviləsi"ni nəinki imzalaması, sonra onu davamlı və qətiyyətlə vəd etdiyi kimi həyata keçirməsi göstərdi ki, dünya siyasətində real bir tendensiya yetişməyə başlayır. İndi bu məqamı dünyanın bütün ölkələrinin liderləri açıq etiraf edirlər. O etiraflar müxtəlif formada COP29-da da özünü göstərdi.

Ulu öndərin fəaliyyətindən aydın görünürdü ki, Azərbaycan Avrasiyada sülh, əməkdaşlıq, həmrəylik, humanitarlıq və tərəfdaşlıqla "siyasi, geosiyasi, iqtisadi, energetik ekologiya"nın bir-biri ilə uzlaşdırılmasını həyata keçirən qətiyyətli dövlətdir. Məsələnin bu tərəfini XXI əsrdə Prezident İlham Əliyev liderlik fəaliyyəti ilə dünyaya sübut etdi. COP29 fəlsəfəsinin ana xəttini bu tezis təşkil edir. Onun üzərində geniş dayanaq.

## COP29: sülh və əməkdaşlıq

Azərbaycan rəhbərliyinin XXI əsrin başlanğıcından fəaliyyətində sülh və əməkdaşlıq təməl prinsiplər sırasında olmuşdur. Prezident İlham Əliyev dəfələrlə müxtəlif beynəlxalq tədbirlərdə, danışıqlar masasında bəyan etmişdir ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başda olmaqla Cənubi Qafqazdakı münaqişələri sülh yolu ilə həll etməyə üstünlük verir. Əgər 2003-cü ildən bu yana bütün danışıqlar prosesini təkrar incələsək, İlham Əliyevin bu xətdən zərrə qədər də kənara çıxmadığını və verdiyi sözlərə daim əməl etdiyini görərik. Bu xüsusiyyət lider üçün çox önəmlidir.

Sonra, İlham Əliyev münaqişələrin həlli üzrə aparılan danışıqlar prosesinə iki mühüm keyfiyyətin gətirilməsinə nümunə olmuşdur. Onlardan biri tarixi ədalətdir, digəri isə məsələlərin beynəlxalq hüquq normaları çərçivəsində həllidir.

Bu prinsiplərə paralel olaraq rəsmi Bakı regional, regionlararası və qlobal miqyasda əməkdaşlıq xəttini davamlı inkişaf etdirmişdir. Keçən əsrin enerji layihələrindən başlayaraq, yeni enerji layihələrini irəli sürmüşdür, qeyri-neft sektoru üzrə əməkdaşlığın təşəbbüskarı olmuşdur, bir sıra ikitərəfli, üçtərəfli və dördtərəfli əməkdaşlıq platformalarını hazırlamışdır, ekoloji cəhətdən təmiz olan bərpaolunan və "yaşıl enerji" üzrə əməkdaşlığın regionda əsas təşəbbüskarı olmuşdur, müxtəlif sivilizasiyaların, mədəniyyətlərin və dinlərin dialoqu üçün güclü tədbirlər keçirmişdir, geniş bir geosiyasi məkanda haqq, ədalət və hüququn təmin edilməsi üçün müxtəlif regional və beynəlxalq təşkilatlar çərçivəsində son dərəcə fəallıq göstərmişdir.

Bütün bunlara mütləq surətdə II Qarabağ müharibəsi və antiterror tədbirlərindən sonra yaranmış postmüharibə mərhələsində rəsmi Bakının həyata keçirdiyi sülh və əməkdaşlıq siyasətini əlavə etmək gərəkdir. Bunu prinsipial olaraq Vətən Müharibəsində böyük qələbə əldə etmiş bir müstəqil dövlətin siyasi-diplomatik "kimliyi"nin nümayişi olaraq qəbul etmək gərəkdir.

Müxtəlif istiqamətlərdən olan güclü təsirlərə baxmayaraq, Azərbaycan rəhbərliyi sülh və əməkdaşlıq siyasətindən bir addım da kənara çıxmadı. Bununla tutduğu yolda qətiyyət və dəyanətlilik nümunəsi olduğunu bir daha göstərmiş oldu. COP29 həmin məqamı bütün məzmunu ilə təsdiq etməkdədir!

## COP29: həmrəylik və humanitarlıq

Həmrəylik və humanitarlıq məsələlərini COP29 kontekstində aktuallaşdıran lider Prezident İlham Əliyevdir. Bu, dərin fəlsəfədir. Real olaraq həmrəylik və humanitarlıq daxili məntiqi bağlantısı olan faktorlardır. Çünki həqiqi humanitarlıq üçün real həmrəylik gərəkdir.

Azərbaycan rəhbərliyi həmrəyliyə daxili birliklə (multikultural xarakterli və mahiyyətli) xarici fikir birliyinin sintezi kimi yanaşmışdır. Bu məsələ reallıqda çox çətin yerinə yetirilən prosesdir. Çünki indiki mərhələdə dövlətlər daxili birlik və həmrəylik xüsusyyəti ilə beynəlxalq miqyasda həmrəyliyi uyğunlaşdıra bilmirlər. Məsələni mürəkkəbləşdirən dövlətin daxili birliyini müasir dünyanın çağırışlarına uyğun təmin etməsindən qaynaqlanır. Azərbaycan rəhbərliyi həmin məsələni azərbaycançılıqla multikulturalizmin sintezində əbədi olaraq həll etmişdir. Buna görədir ki, istər regional, istər regionlararası, istərsə də qlobal miqyaslarda Prezident İlham Əliyev həmrəyliklə humanitarlığın vəhdətini uğurla təmin edən davamlı siyasi-diplomatik kurs müəyyən edə bilmişdir.

Bu sırada iqlim dəyişikliyi ilə sülh və əməkdaşlığın bir-birinə fəlsəfi və siyasi-nəzəri səviyyədə bağlandırılması çox mühüm məqamdır. Ona görə ki, iqlim dəyişikliyi hər şeydən öncə dövlətlərin digərlərinə və təbiətə münasibətlərini müəyyən edən şüur məsələsidir. Dövlət başqa dövlətlərin maraqlarına və təbiətə necə yanaşırsa, ona uyğun olaraq iqlim dəyişikliyinə töhfəsini verir. Məhz bu məqamda həmrəyliklə humanitarlığın fəlsəfi mənası ön plana çıxır.

Praktiki fəaliyyətdə İlham Əliyev həmrəylik xəttinin humantiralıq aspekti ilə münasibətlərinin əməkdaşlıq və paylaşma ilə əlaqəsini əyani sübut etmişdir. Bu, Azərbaycan Prezidentinin BMT, Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı çərçivəsində fəaliyyətində özünü tam göstərmişdir. Bu yerdə COVID-19 dövründə İlham Əliyevin vurğulanan aspektlərdə Qoşulmama Hərəkatının sədri kimi fəaliyyətini xatırlamaq kifayətdir. Burada onu qeyd edək ki, Azərbaycan Prezidenti həmin fəaliyyəti BMT və TDT-dəki aktivliyi ilə sıx koordinasiyalı həyata keçirmişdir.

Bunlardan COP29 kontekstində tərəfdaşlığın fəlsəfi anlamına maraqlı çıxış etmək olar.

## COP29: tərəfdaşlıq və regionallıq

Hazırda dövlətlər arasında strateji tərəfdaşlığın səmərəliliyi və davamlılığı məsələsi daha aktual faktora çevrilmişdir. Təcrübə göstərir ki, sənəd üzərində tərəfdaş olan ölkələr reallıqda strateji tərəfdaşlıq tələblərinə cavab verməyən münasibətlərdə olurlar. Azərbaycan isə regional və regionlararası miqyaslarda nəticəverici tərəfdaşlıq platformalarının təşəbbüskarı kimi tanınır.

Bu aspektdə Azərbaycan-Avropa İttifaqı münasibətləri ayrıca qeyd edilə bilər. Bakı Aİ-nin 10 ölkəsi ilə strateji tərəfdaşlıq sazişi imzalamışdır. Həmin sazişlər real əməkdaşlıq layihələri ilə məzmunlaşmışdır. Aİ hazırda Azərbaycanın bir nömrəli ticari tərəfdaşıdır. Xüsusilə, enerji və ayrıca "yaşıl enerji" üzrə geniş əməkdaşlığı olan təşkilatdır. Bu tendensiyanın getdikcə daha da güclənəcəyi proqnozlaşdırılır.

Rəsmi Bakının Qoşulmama Hərəkatı təşkilatı daxilində dünyanın çox sayda dövlətləri ilə əlaqəni dinamik inkişaf etdirdiyi faktını heç kim inkar edə bilməz. Hətta, həmin təşkilatdakı dövlətlərin hüquqlarını qorumaqda Bakının fəallığı aydın görünür.

Azərbaycanın MDB və TDT daxilində tərəfdaşlığı real əməkdaşlıq müstəvisində inkişaf etdirdiyi çox maraqlı fakt kimi qəbul edilir. Hər iki təşkilatda Azərbaycan regionlararası münasibətlərə çıxışın səmərəli formulunu müəyyən etmişdir.

Bununla rəsmi Bakı BMT–Aİ–Qoşulmama Hərəkatı–TDT "zənciri"ndə regionlararası tərəfdaşlıq istiqamətində dinamizmə nail olmuşdur. Son zamanlar isə bu dinamikanı İlham Əliyev BRICS və Şanxay Əməkdaşlığı Təşkilatına doğru genişləndirməkdədir.

Azərbaycan rəhbərliyinin tərəfdaşlıq və əməkdaşlığı regionlararası miqyasa uğurla inkişaf etdirməklə faktiki olaraq sübut etmişdir ki, COP səviyyəsində tədbirlərin təşkilinə haqqı vardır. Bu mənada da COP29 fəlsəfəsinin yaradıcısı Azərbaycan Prezidentidir. Bu fəlsəfədə gələcəyə yönəlmiş ciddi proqnostik məqamlar da mövcuddur.

COP29-da Prezident İlham Əliyevin çıxışı göstərdi ki, Azərbaycan yeni tarixi mərhələdə qlobal miqyasda fəaliyyətini növbəti səviyyəyə yüksəldəcəkdir. Burada Bakının müxtəlif sferalarda əməkdaşlıq platformalarını inkişaf etdirmək və genişləndirmək qətiyyətini ayrıca vurğulamaq istərdik. Çünki həmin məqam özündə strateji mənası böyük olan bir trendi ehtiva edir.

Məsələ ondan ibarətdir ki, Azərbaycan üçün yeni tarixi mərhələ regionlararası miqyasdan qlobal miqyasa tərəfdaşlıq və əməkdaşlığın yeni platformalarını proyeksiya etmək baxımından xüsusi əhəmiyyət daşıyır. Bu mənada COP29 bir başlanğıcdır. Daha güclü və geniş təsir imkanlarına malik Azərbaycan Respublikasının yeni mərhələdə tərəqqisinin başlanğıcıdır.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Azərbaycanın daha bir uğur hekayəsi

**Noyabrın 11-dən Bakıda start götürmüş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı – COP29 işini uğurla davam etdirir. Amma artıq indidən noyabrın 22-dək sürəcək dünyanın ən mötəbər tədbirini baş tutmuş saymaq olar. Heç şübhəsiz, Azərbaycanın toplantıya yüksək evsahibliyi gerçəkləşdirdiyini də söyləmək üçün ciddi əsaslar var. Qətiyyətlə demək olar ki, COP29 müasir Azərbaycanın növbəti uğur hekayəsidir. Bunu şərtləndirən bir çox amillər var.**

**Əvvəla,** Azərbaycanın nüfuzlu toplantılara evsahibliyi fonunda güclü lider amilinə xüsusi diqqət yetirmək vacibdir. Bu mənada Prezident İlham Əliyevin dünya miqyaslı siyasətçi obrazı üzərində dayanaq.

Bəli, dövlətimizin başçısının güclü lider obrazının COP29 məsələsində də tam parlaqlığı ilə canlandığını gördük. Nəzərə alaq ki, dünya sürətlə dəyişir. Bir çox müstəqil dövlətlərin öz suverenliklərini itirmələri, onların ərazi bütövlüklərinin pozulması hallarını görürük. Görürük ki, dünyada beynəlxalq hüquq prinsiplərinə məhəl qoyan yoxdur. Belə bir durumda hər bir ölkənin ayaqda qalması, təminatlı olması üçün özünün müstəsna uğur hekayəsinə ehtiyac var. Bir çox mötəbər toplantılar kimi, COP29 da uğur hekayəmizin tamlığı baxımından son dərəcə ciddi əhəmiyyətə malikdir. Belə bir tədbirə evsahibliyi edən ölkə həmişə var olmağa layiqdir, onu hesabdan silmək mümkünsüzdür.




Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin ayrı-ayrı mövzulardakı çıxışları dünyanın Azərbaycanı yenidən kəşf etməsinə şərait yaratdı. Dövlətimizin başçısı hər zaman olduğu kimi, yenə də hədəfləri son dərəcə dəqiqliklə nişan alırdı.

**İkincisi,** ölkəmizin müstəqillik illərində topladığı təcrübəni vurğulamaq lazımdır. Nəzərə alaq ki, Azərbaycan indiyədək bir çox dünya miqyaslı tədbirlərə evsahibliyini gerçəkləşdirib. COP29 uğuru, bir növ, bu təcrübənin təntənəsidir. Heç şübhəsiz, bu uğur, eyni zamanda, gələcək mötəbər toplantılar üçün də bazadır.

**Üçüncüsü,** nüfuzlu toplantılara evsahibliyimiz heç də asan başa gəlməyib. Həmişə anti-Azərbaycan qüvvələr və dünya ermənipərəstləri ölkəmizi nüfuzdan salmaq, tədbirin reallaşmaması üçün əllərindən gələni edib, boykot ssenarisini işə salıblar. Lakin heç vaxt niyyətlərinə çata bilməyiblər və bu dəfə də eyni hal yaşandı. Qətiyyətlə vurğulaya bilərik ki, həmin anti-Azərbaycan qüvvələr və ermənipərəst dairələr növbəti də məğlubiyyətə uğradılar, rəzil və miskin duruma düşdülər.

**Dördüncüsü,** ümumən paytaxtımızın COP29-a uğurlu evsahibliyi ölkəmizi beynəlxalq ictimaiyyətə tamamilə yeni qiyafədə tanıtdı. İndiki məqamda bu tanınma son dərəcə əhəmiyyətlidir. Fikrimizi izah etmək üçün yaxın keçmişə qayıdaq. Söhbət 44 günlük müharibə dönəmindən gedir.

Məlum olduğu kimi, Azərbaycanın 2020-ci ilin sentyabrın 27-də başlatdığı Zəfər yürüşü birmənalı qarşılanmamışdı. Bir çox xarici dairələr bu yürüşü, az qala, işğalçılıq kimi qiymətləndirmişdilər. Hətta BMT Təhlükəsizlik Şurası müstəvisində ölkəmizi durdurmaq, haqq yolundan daşındırmaq üçün cəhdlər göstərilmişdi.

Sonrakı zaman kəsiyi də heç də rəvan keçməmiş, Ermənistan və havadarları ölkəmizə qarşı qarayaxma kampaniyası gerçəkləşdirməyə çalışmış, Zəfərimizin yaşadığımız Cənubi Qafqaz siyasi coğrafiyasına gətirdiyi reallıqları dəyişdirmək istəmişdilər. Hesab edirik ki, COP29-a uğurlu evsahibliyimiz, eyni zamanda, bu sayaq mənfi tendensiyaları sıradan çıxarmaq əzmimizin növbəti təntənəsidir. Azərbaycan dünyaya sübut etdi ki, çətinliklərə baxmayaraq, öz yolunda inamla addımlamağı, problemləri, onları kimin, hansı qüvvənin yaratmasından asılı olmayaraq, aradan qaldırmağı bacarır.

**Beşincisi,** qeyd etdiyimiz kimi, Azərbaycan indiyədək bir çox nüfuzlu toplantılara evsahibliyini gerçəkləşdirib. Bakıda keçirilmiş "Eurovision" mahnı müsabiqəsini, I Avropa, İslam Həmrəyliyi Oyunlarını bu baxımdan xüsusi fərqləndirmək mümkündür. Hərçənd, miqyasına görə başqa tədbirlər barədə də söz açmaq olar.

Əlqərəz, bütün bunlar, eyni zamanda, gələcək üçün müstəsna təminatdır.

**Altıncısı,** COP29-un uğurları Azərbaycanın idarəçilik sisteminin mütəhərrikliyindən xəbər verir. Ayrı-ayrı dövlət qurumlarımızın tədbirə yüksək səviyyədə hazırlaşdıqları, koordinasiya edilmiş səmərəli fəaliyyətə üstünlük verdikləri diqqətimizdən yayınmır. Sanki, bir dövlət orqanın gördüyü iş digərinin işini tamamlayır. Hesab edirik ki, belə bir sinxronluğun özü də sistemin effektivliyinin nəticəsidir və bununla qürurlanmağa dəyər.

**Yeddincisi,** Azərbaycan cəmiyyətinə COP29 ab-havası hakimdir. Yəni, cəmiyyətdə tədbirlə bağlı mütəşəkkillik hiss olunmaqdadır. Bu durum ölkəmizdəki xalq-iqtidar vəhdəti və həmrəyliyinin növbəti bariz nümunəsidir. İnsanlarımız COP29-a yalnız mötəbər toplantı kimi yox, eyni zamanda, Vətənimizin başını uca edəcək, dövlətimizə mühüm dividend qazandıracaq tədbir kimi yanaşırlar.

**Səkkizincisi,** Azərbaycan evsahibliyini etdiyi bütün mötəbər toplantılara, belə demək mümkünsə, özünün ağırlığını və sanbalını qoymağı bacarır. Ölkəmiz heç bir tədbiri tədbir xatirinə keçirmir, onun səmərəliliyinin təminatı üçün öz töhfəsini verir. Bunu müzakirə olunan mövzularla əlaqədar yeni təşəbbüslər irəli sürməklə gerçəkləşdirir.

Nəticə etibarilə Azərbaycandakı hər bir toplantı, eyni zamanda, dünyaya mesaj xarakteri daşıyır. İndidən tam əminliklə vurğulaya bilərik ki, COP29 da bu baxımdan seçildi. Ölkəmizin nüfuzlu toplantıya evsahibliyi iqlim məsələlərini ön plana çıxardı, iqlim və əlverişli ekoloji mühit naminə səfərbərlik formalaşdırdı. Elə bir səfərbərlik ki, real mexanizmə əsaslanır. Mexanizm iqlim maliyyələşməsini beynəlxalq aləm üçün prioritet vəzifə kimi müəyyənləşdirir. COP-29-un reallıqla fiksasiya təbiəti də elə budur.

**Nəhayət,** COP29 ölkəmiz üçün əlamətdar edən daha bir vacib məqama toxunaq. Tədbir Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra gerçəkləşdirdiyi dünyamiqyaslı ilk və ən böyük toplantıdır. Hesab edirik ki, belə bir toplantıda həm də ilahi ədalətin təcəlli payı var. Ölkəmiz haqqı olanı əldə etmək üçün uzun yol qət etdi və istəyinə çatdı. COP29 haqqımızın mükafatıdır. Tam əminik ki, ulu öndər Heydər Əliyevin təbirincə desək, dünyaya Günəş kimi doğan Azərbaycanın mükafatlarının sayı bundan sonra daha çox olacaq.

*Ə.CAHANGİROĞLU*
*XQ*




# Leyla Əliyeva COP29-un gənclər və ətraf mühit müzakirəsində

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Beynəlxalq Təbiəti Mühafizə İttifaqı (BTMİ) və IDEA İB-nin birgə təşkilatçılığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində həyata keçirilən "İqlim dayanıqlığı üçün təhsilə investisiya: erkən inkişaf və ətraf mühit savadlılığının artırılması" mövzusunda müzakirələrdə iştirak edib.**






Leyla Əliyeva tədbirdə çıxış edərək, gənclərin ekoloji problemlərin həllində fəal iştirakının qlobal miqyasda iqlim dəyişmələri ilə mübarizədə vacib rol oynadığını vurğulayıb. IDEA İB-nin təsisçisi və rəhbəri ekoloji təhsil və maarifləndirmə proqramları, eləcə də müxtəlif beynəlxalq platformalar vasitəsilə gənclər üçün bilik və təcrübə mübadiləsinin aparılması imkanlarının genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

IDEA-nın həyata keçirdiyi layihə və tədbirlərə toxunan Leyla Əliyeva bildirib ki, təşkilat tərəfindən ötən müddət ərzində gənclərin iqlim dəyişmələri məsələləri və təbiətə məsuliyyətli yanaşmaları kimi mövzulara həsr olunan bir sıra fəaliyyətlər icra edilib. Leyla Əliyeva təşkil olunan ekodüşərgələr, məlumatlandırma kampaniyaları və hazırlanan sənədli filmlər, eləcə də görülən işlərin nəticələri barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Elm və təhsil naziri Emin Əmrullayev, BTMİ-nin baş direktoru Grethel Aguilar, "Earthday.org" təşəbbüsünün tədris məsələləri üzrə direktoru Bryce Coon və başqaları müzakirədə çıxış edərək, ətraf mühit savadlılığının rolunu qeyd ediblər.

**XQ**

# Heydər Əliyev Fondunun vitse-prezidenti "Manqurt" tamaşasında





**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, COP29 çərçivəsində ölkəmizdə səfərdə olan İordaniya Haşimilər Krallığının şahzadəsi, UNESCO-nun xoşməramlı səfiri, Petra Milli Trestinin prezidenti Dana Firas və ICCROM-un baş direktoru Aruna Françeska noyabrın 17-də Azərbaycan Dövlət Pantomim Teatrında "Manqurt" tamaşasını izləyiblər.**

Dünyaşöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun "Gün var əsrə bərabər" əsərinin motivləri əsasında hazırlanan səhnə əsərinin quruluş müəllifi Ceyhun Dadaşov, rəssamı Sənubər Səmədova, musiqi tərtibatçısı Elman Rəfiyev, plastik həll üzrə rejissoru Xalq artisti Bəxtiyar Xanızadədir. Tamaşada teatrın bütün aktyor heyəti çıxış edir.

Uzun illərdir teatrın repertuarında olan tamaşa bu mövsümdə sənətsevərlərə yeni üslubda təqdim edilir. Səhnə əsəri tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

# Baş Prokurorluqda xarici qonaqlarla görüşlər

**Noyabrın 16-da Baş prokuror Kamran Əliyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək məqsədilə ölkəmizə səfərə gələn İnterpolun prezidenti Ahmed Naser Al-Raisinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Kamran Əliyev qonaqları səmimi salamlayaraq ən böyük beynəlxalq qurumlardan biri olan İnterpol ilə Azərbaycanın hüquq-mühafizə orqanları arasında qarşılıqlı faydalı əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsinin zəruriliyini diqqətə çatdırıb.



COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyasının uğurla başa çatması barədə danışan tərəflər ətraf mühitin mühafizəsində hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığının vacibliyini vurğulayıblar.

İnterpolun prezidenti Ahmed Naser Al-Raisi ölkəmizdə prokurorluq orqanlarında həyata keçirilən islahatları müsbət dəyərləndirərək rəhbərlik etdiyi təşkilatla Azərbaycanın hüquq-mühafizə orqanları arasında qarşılıqlı-faydalı əlaqələrin inkişaf etdirilməsinin perspektivlərindən danışıb.

**Həmin gün Baş prokuror Kamran Əliyev Braziliyanın Baş prokurorun müavini Hindenburq Çatebriandın rəhbərlik etdiyi nümayəndə heyəti ilə də görüşüb.**

Ölkələrimiz arasında isti münasibətlərin mövcud olduğunu söyləyən baş prokuror Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ən yüksək səviyyədə təşkil olduğunu vurğulayıb.

COP29 çərçivəsində keçirilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyasının uğurla başa çatması barədə danışan tərəflər ətraf mühitin mühafizəsində hüquq-mühafizə orqanlarının qarşılıqlı əməkdaşlığının vacibliyini vurğulayıblar.

Azərbaycanın COP29 kimi mötəbər beynəlxalq tədbirə hazırlığının ən yüksək səviyyədə olduğunu qeyd edən qonaq COP29-un dünya üçün böyük töhfələr verəcəyindən əminliyini vurğulayıb.

**Dünən Baş prokuror Kamran Əliyev Keniya Dövlət Prokurorluğunun Direktoru Renson Mulele İnqonqanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə də görüşüb.**

Prezident İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyətindən bəhs edən Kamran Əliyev, bunun beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsi olduğunu qeyd edib.

Səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirən Renson Mulele təmsil etdiyi qurumun Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini qeyd edərək, iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın genişlənəcəyinə əminliyini ifadə edib.

**XQ**

# AHİK sədrinin BHİK-nin baş katibi ilə görüşü

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov COP29-da iştirak etmək üçün Bakıya səfər edən Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) baş katibi Luk Trianql ilə görüşüb.**



Konfederasiya sədri Sahib Məmmədov bildirib ki, Azərbaycanın yüksək peşəkarlıqla ev sahibliyi etdiyi COP29 şəffaf, qərəzsiz və inklüziv şəkildə keçir. O, COP29-un nəticələrinin ekoloji təsirlərin azalmasına, iqlim dəyişmələri ilə mübarizədə yüksək nəticələrin əldə olunmasına və geniş ictimai iştiraka gətirib çıxaracağını qonağın diqqətinə çatdırıb. Konfederasiya sədri Azərbaycanda təhlükəsiz və layiqli əmək şəraitinin yaradılması istiqamətində atılan addımlardan da söz açıb, həmkarlar ittifaqları tərəfindən işçilərin sağlamlıqlarına göstərilən qayğını, normal istirahətləri üçün yaradılan şəraiti qeyd edib.

Həmçinin vurğulanıb ki, qurum fəaliyyətində beynəlxalq əməkdaşlığı prioritet hesab edir, əmək hüquqları sahəsində dünyanın mütərəqqi təcrübələrinin öyrənilməsi və tətbiqi istiqamətində iş aparır. Bu aspektdə BHİK ilə əməkdaşlığın faydalarından danışan Sahib Məmmədov münasibətlərin bundan sonra da genişləndirilməsi istiqamətində müvafiq addımlar atmaq, daha sıx təmaslar qurmaq niyyətində olduqlarını baş katibin nəzərinə çatdırıb.

BHİK-nın baş katibi Luk Trianql isə Azərbaycanda olmaqdan, COP29-da iştirak etməkdən məmnunluğunu bildirib. Qeyd edib ki, COP29 yüksək səviyyədə təşkil olunub və nəticələri iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizədə xeyli faydalı olacaq. AHİK-in fəaliyyəti ilə yaxından tanış olduğunu qeyd edən qonaq əməkdaşlığın daha da inkişaf etdirilməsinə maraq göstərdiklərini deyib.

**XQ**

# Fransa nüvə sınaqlarına görə təzminat ödəməlidir

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində dekolonizasiya və yaşıl gələcəyə həsr edilmiş konfransın iştirakçıları Mavi Zonada aksiya keçiriblər.**

Bakı Təşəbbüs Qrupu tərəfindən keçirilmiş "Dekolonizasiya və yaşıl gələcək naminə həmrəylik" adlı aksiyanın iştirakçıları - Afrikanın Mali, Keniya, Konqo Demokratik Respublikası, Nigeriya, Cibuti, Toqo, Mavritaniya, Zimbabve, Zambiya və Kamerundan olan deputatlar, qeyri-hökumət təşkilatlarının rəhbərləri, siyasətçilər, ekofəallar, hüquq müdafiəçiləri öz ölkələrindəki acınacaqlı ekoloji vəziyyətlə bağlı məlumat verib, ekoloji çağırış ediblər.

Aksiyada Fransanın həyata keçirdiyi nüvə sınaqlarının ətraf mühitə, yerli əhalinin sağlamlığına və geosiyasi dinamikaya ciddi və davamlı mənfi nəticələri nümayiş olunub. "Soyuq müharibə" və Fransanın müstəqil nüvə gücü əldə etmək istəyi fonunda həyata keçirilən bu sınaqlar həyata keçirildiyi bölgələrdə zəhərli miras qoyub. Fransanın Afrikadakı nüvə sınaqları torpağın, havanın və yeraltı suların kütləvi şəkildə radioaktiv çirklənməsinə səbəb olub.

Bildirilib ki, nüvə sınaqları ətraf mühitə və əhaliyə təsirləri məhdudlaşdırmaq üçün kifayət qədər ehtiyat tədbirləri görülmədən həyata keçirilib. Bu sınaqların təsirləri Fransa tərəfindən rəsmi olaraq tanınmayıb və yerli əhali rəsmi üzrxahlıq və təzminat tələb edib.

Aksiya zamanı Fransanın nüvə sınaqlarının mənfi təsirlərini əks etdirən fotolardan ibarət sərgi nümayiş olunub.

**XQ**

# COP29-da Paris Sazişinə istinad olunan qərar qəbul edilib

**Noyabrın 18-də COP29 çərçivəsində Tərəflər Paris Sazişinin 6-cı maddəsinin 8-ci paraqrafında istinad olunan qeyri-bazar yanaşmaları çərçivəsində iş proqramına dair qərar qəbul ediblər.**

6.8-ci maddə qeyd olunan yanaşmalar vasitəsilə Tərəflərə milli iqlim planlarını, o cümlədən mitiqasiya və adaptasiya üzrə planların həyata keçirilməsi və davamlı inkişafın təşviqi imkanı yaradır.




COP29 Sədrliyi Paris Sazişinin 6-cı maddəsinin tam şəkildə işlək vəziyyətə gətirilməsini əsas prioritetlərindən biri kimi müəyyən edib. Bu maddə ölkələrin iqlim hədəflərinə çatmaq üçün əməkdaşlıq zamanı etibarlı və şəffaf karbon bazarlarının təmin edilməsini nəzərdə tutur. Həmin maddəyə uyğun bazarlar inkişaf etməkdə olan ölkələrə daha çox investisiya yönəltmək üçün önəmli vasitədir. 6-cı maddənin tam şəkildə tətbiqi ölkələrin Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin həyata keçirilməsi üçün sərf etdikləri vəsaiti ildə, təxminən, 250 milyard ABŞ dolları azalda bilər.

Xatırladaq ki, COP29-un ilk günündə - noyabrın 11-də Paris Sazişinin 6.4-cü maddəsinə uyğun olaraq, Tərəflər karbon kreditlərinin yaradılması üzrə standartlar barədə razılığa gəliblər. Bu, beynəlxalq karbon bazarının BMT-nin nəzarəti altında fəaliyyət göstərməsini təmin edəcək. Sözügedən standartlar beynəlxalq karbon bazarının yüksək etibarlılığına və emissiyaların azaldılmasına imkan verəcək.

**XQ**

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Su Ehtiyatları Agentliyinin şirin su layihəsi

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin müşaviri Əsəd Şirinov COP29 konfransı çərçivəsində keçirilən "Davamlı su ehtiyatlarının idarə edilməsində innovatov yanaşmalar" mövzusunda sessiyada Xəzər dənizinin suyundan istifadə etməklə Bakı və Abşeron yarımadası üçün etibarlı alternativ ehtiyatlar yaradılmasının qarşıya mühüm vəzifə kimi qoyulduğunu bildirib.**

O, iqlim dəyişikliyinin özünü davamlı büruzə verməsi və artan tələbat nəticəsində yaranan su qıtlığının aradan qaldırılması məsələsinin Azərbaycanın su siyasətində önəmli yer tutduğunu vurğulayıb. Agentlik müşavirinin sözlərinə görə, təmiz su probleminin həlli Dayanıqlı İnkişaf Məqsədlərində də diqqət çəkir. Bu da ölkəmizdə gələcək nəsillərin belə bir mühüm resursdan istifadə imkanlarına xələl gətirmədən cari ehtiyacların ödənilməsinə dair öhdəliyə sadiqliyini göstərir.



Azərbaycanın bu yaxınlarda hazırlanaraq təsdiqlənən Milli Su Strategiyası da bu baxışı əks etdirir. Strategiya iqlimə davamlılığı gerçəkləşdirməklə bərabər, ədalətli, səmərəli və davamlı su idarəetmə təcrübələrini təşviq edir. Bu strategiya ilə regional və iqlim dəyişikliklərinə qarşı həssas məsələlər, o cümlədən transsərhəd çaylardan və atmosfer yağıntılarından asılılıq da daxil olmaqla, problemlərin təhlilini aparmaqla, bu çağırışları birbaşa həll etməklə kənd təsərrüfatından tutmuş sənaye istehlakına qədər bütün sektorlar üçün uzunmüddətli su əlçatanlığını reallaşdırmaq hədəflənir".

Müşavir qeyd edib ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin və Dövlət Su Komissiyasının yaradılması qurumlararası koordinasiyanı təkmilləşdirərək su ehtiyatlarının idarə olunmasına kompleks yanaşmanı asanlaşdırıb. Bundan əlavə, investisiya imkanlarını səfərbər etmək, texnoloji innovasiyaları artırmaq və davamlı həlləri genişləndirmək məqsədilə dövlət–özəl tərəfdaşlığının yaradılmasına başlanılıb. Özəl sektoru cəlb etməklə sudan istifadədə səmərəliliyi artırmaq, itkiləri azaltmaq və smart ölçmə, eləcə də sızma – aşkarlama sistemləri kimi qabaqcıl texnologiyaların tətbiqinin həyata keçirilməsi qarşıya önəmli vəzifələr kimi qoyulub.

Beləliklə, dayanıqlılıq Azərbaycanın su siyasəti üçün təkcə rəhbər prinsip deyil, zərurətdir. İnnovativ idarəetmə, möhkəm planlaşdırma və maraqlı tərəflərlə əməkdaşlıq təhlükəsiz və davamlı su gələcəyi üçün əlverişli zəmin yaradır. Artan iqlim problemləri qarşısında alternativ su mənbələri isə Azərbaycanın su strategiyasının mühüm tərkib hissəsi kimi diqqət çəkir.

Dövlət Su Ehtiyatları Agentliyi müşavirinin fikrincə, iqlim dəyişikliyi uzun müddətli quraqlıqlar və planlaşdırıla bilməyən yağıntı nümunələri ilə onsuz da məhdud su ehtiyatlarına əlavə problemlər yaradaraq suyun mövcudluğunda daha çox dəyişkənliyə gətirib çıxarır. Bu çağırışlar cəsarətli və innovativ həllər tələb edir və ölkəmizin bu istiqamətdə yüksəlişini şərtləndirir.

Hazırda Azərbaycanın ən perspektivli təşəbbüslərindən biri duzsuzlaşdırma texnologiyalarıdır. Xəzər dənizinin suyundan istifadə etməklə Bakı və Abşeron yarımadası üçün etibarlı alternativ ehtiyatlar yaratmaq hədəflənir. Bu yanaşma təkcə ölkəmizin su mənbələrini şaxələndirmir, həm də su ehtiyatlarının 70 faizdən çoxunu təşkil edən transsərhəd çaylardan asılılığı azaldır. Bu həllin davamlılıq məqsədlərinə uyğun olmasını gerçəkləşdirmək məqsədilə enerjiyə qənaət edən duzsuzlaşdırma proseslərinə üstünlük verilir.

Azərbaycanda duzsuzlaşdırma ilə yanaşı, suyun təkrar emalı və təkrar istifadə proqramları üzərində də böyük işlər görülür. Hazırda çirkab suların kənd təsərrüfatı və sənaye məqsədləri üçün təmizlənməklə şirin su ehtiyatlarına əlavə olunması nəzərdə tutulur. Bu təşəbbüslər təkrar emala yönəldilən suyun səmərəli və təhlükəsiz şəkildə istifadəsini gerçəkləşdirərək şəhər və kənd planlaşdırılmasına inteqrasiya olunur.

Azərbaycanda işğaldan azad edilən ərazilərdə müasir su anbarlarının tikilməsi və iqlimin yaratdığı çətinliklərə tab gətirmək üçün əsas su infrastrukturunun bərpası da perspektiv həllər sırasında yer alır. Bütün bunlarla bərabər, buludların əkilməsi, yağış sularının yığılması və yeraltı suların kəşfiyyatı kimi potensial layihələrin davamlı şəkildə reallaşdırılması da nəzərdə tutulur.

Enerjiyə qənaət edən duzsuzlaşdırma proseslərinə sərmayə qoymaqla Azərbaycan su təchizatının yaxşılaşdırılması və iqlim dəyişkənliyinə qarşı davamlılığı artırmaq istiqamətində fəal addımlar atır.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov 29-cu iqlim konfransında "Davamlı su ehtiyatlarının idarə edilməsində innovativ yanaşmalar" mövzusundakı tədbirdə çıxışı zamanı bu barədə ətraflı məlumat verib. Onun sözlərinə görə, diqqətçəkən təşəbbüslərdən biri Abşeron yarımadasının alternativ içməli su mənbələri ilə təmin edilməsi üçün duzsuzlaşdırma texnologiyasının, xüsusən də Xəzər dənizinin suyunun planlaşdırılmış istifadəsidir: "İqlim dəyişikliyinin su qıtlığının gücləndirilməsinə, hava şəraitinin pozulmasına, quraqlıq və daşqınların tezliyinin artırılmasına təsiri nəticəsində davamlı su idarəçiliyinə ehtiyac daha da aktuallaşır. Əhali artımı və urbanizasiya su ehtiyatlarını daha da məhdudlaşdırır və bu, təhlükəsiz, etibarlı su təchizatını gerçəkləşdirmək üçün qabaqcıl həllərin qəbulunu vacib edir: "Qlobal miqyasda su ehtiyatları çirklənmə, həddən artıq istifadə və mövcud iqlim dəyişiklikləri səbəbindən ciddi təzyiq altındadır. Bu reallıqlar sudan istifadənin səmərəliliyini artıran və davamlılığı gücləndirən innovativ, uyğunlaşa bilən həllərin aktuallığını vurğulayır".

Agentlik rəhbəri bildirib ki, Azərbaycan bu çağırışlara cavab olaraq su idarəçiliyində innovativ yanaşmalara üstünlük verir. Ölkədə adambaşına illik su ehtiyatı 3253 kubmetr olsa da, transsərhəd mənbələri nəzərə almasaq bu rəqəm əhəmiyyətli dərəcədə azalaraq 1051 kubmetr düşür. Proqnozlar göstərir ki, 2025-ci ilə qədər Azərbaycan qlobal miqyasda adambaşına düşən yerli su ehtiyatlarının ən aşağı səviyyələrini yaşaya bilər.

Z.Mikayılovun sözlərinə görə, Azərbaycanda əkinlərə birbaşa lazımi miqdarda su çatdıran və bununla israfı minimuma endirən damcı və pivot sistemlər kimi qabaqcıl suvarma üsulları tətbiq olunur. Müxtəlif sektorlarda lazımsız su itkisinin qarşısını almaq məqsədilə "ağıllı" ölçmə və sızma aşkarlanması da daxil olmaqla suya qənaət edən texnologiyalardan yararlanılır. Bu vahid yanaşma dayanıqlı su ehtiyatlarının idarə edilməsini dəstəkləyir, karbon emissiyalarını azaldır və istiləşməni 1,5°C-ə qədər məhdudlaşdırmaq kimi qlobal məqsədə uyğun gəlir.

Davamlı su idarəçiliyi və iqlim davamlılığı beynəlxalq miqyasda birgə fəaliyyət tələb edir. Su qıtlığı və iqlim dəyişikliyi milli sərhədləri aşan qlobal problemlərdəndir. Tərəfdaşlıq, bilik mübadiləsi və birgə səylər nəticəsində xüsusilə inkişaf etməkdə olan ölkələrdə innovativ su idarəçiliyi təcrübələri inkişaf etdirilə, tənzimləyici bazalar gücləndirilə və potensial yaradıla bilər.

# COP29 Azərbaycan Əməliyyat Şirkətinin uğur sertifikatı

**COP29 Azərbaycan Əməliyyat Şirkəti "TÜV Austria Turk" şirkəti tərəfindən İSO 20121 sertifikatı ilə təltif edilib. Sertifikatı komandaya "TÜV Austria Turk" şirkətinin əməliyyatlar üzrə meneceri Rəhimə Cavanşirli təqdim edib.**

Bunu tarixi məqam adlandıran COP29 Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova deyib: "Davamlı hadisələrin idarə edilməsi və çatdırılması üçün sertifikat alırıq. Biz bir neçə ay əvvəl davamlı hadisələrin idarə edilməsi və davamlı tədbirlərin çatdırılması sahəsində asan ISO 2121 sertifikatlaşdırma prosesinə qədəm qoyduq və bu coğrafiyada qlobal meqa tədbirlərə ev sahibliyi etmək üçün yeni bir fəsil açdıq. Bu, bizim hamımız, bütün şirkət və komandamız üçün asan məsələ deyildi".



O, davamlı əməliyyatların təminatı, davamlı satınalma, insan resursları, işçi qüvvəsi və könüllülük, məkanın dizaynı və çatdırılması, qonaq xidmətləri, ziyarətçi təcrübəsi, iaşə, nəqliyyat təhlükəsizliyini COP29 tədbirinin əsas sütunları kimi dəyərləndirib. Baş icraçı vaxt məhdudiyyətinə baxmayaraq, komandanın "yaşıl" enerji ilə təchiz olunmuş obyektdə yüksək əzmkarlıq göstərdiklərini bildirib.

# TDT ölkələri meteoroloji əməkdaşlıq quracaq




**Türkiyənin Baş Meteorologiya İdarəsi Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflərin Konfransının 29-cu sessiyası çərçivəsində "Türk Dövlətləri Təşkilatı (TDT) ölkələrində inteqrasiya olunmuş erkən hava xəbərdarlığı sistemi" mövzusunda panel müzakirəsi təşkil etməyi planlaşdırır. Müzakirənin noyabrın 19-da Türkiyə pavilyonu ərazisində "Qida, kənd təsərrüfatı və su" tematik gün çərçivəsində keçirilməsi nəzərdə tutulur.**

Panel müzakirələrinə Türkiyənin fövqəladə halların nəticələrinin aradan qaldırılması İdarəsinin sədr müavini Həmzə Taşdelenin moderatorluq edəcəyi panel müzakirələrdə Türk dövlətləri arasında meteorologiya sahəsində əməkdaşlıq yollarının nəzərdən keçirilməsi planlaşdırılır.

# Qlobal istiləşmə və insan inkişafı sərmayəsi



**Dünən Elm və Təhsil Nazirliyinin təşkilatçılığı, COP29 Sədrliyi, UNESCO, Ümumdünya Səhiyyə Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı, UNICEF, Asiya İnkişaf Bankı və Yaşıl İqlim Fondunun dəstəyi ilə iqlim dayanıqlılığı üçün insan inkişafı üzrə Bakı Təşəbbüsünə dair yüksək səviyyəli iclas keçirilib.**

Tədbirdə insan inkişafına investisiya qoyulmasının iqlim dayanıqlılığının təmin edilməsində mühüm əhəmiyyəti vurğulanıb. BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva çıxış edərək bildirib ki, ilk dəfə olaraq COP Sədrliyi çərçivəsində ev sahibi ölkənin təşəbbüsü ilə İnsan İnkişafı Günü müəyyən edilib.

COP29-un baş danışıqçısı, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev qeyd edib ki, qlobal iqlim probleminin ən kritik və bir-biri ilə əlaqəli olan aspektlərindən sayılan insan inkişafı təhsil, səhiyyə, sosial müdafiə, bacarıqlar və məşğulluq kimi sahələri əhatə edir. İqlim dəyişikliyinin həyatımızın hər tərəfinə – sağlamlığa, təhsilə, əmək bazarına və ən əsası gələcək nəsillər üçün mövcud olan imkanlara təsir göstərdiyini vurğulayan baş danışıqçının sözlərinə görə, qlobal istiləşmə ilə bağlı çağırışlara cavab vermək üçün insan inkişafına sərmayə qoyulmalıdır. O deyib ki, bu investisiya həyatın ən erkən mərhələlərində başlamalıdır ki, uşaqların və gənclərin təhsil, səhiyyə və bacarıqların inkişafı yolu ilə güclənməsi təmin edilsin.

Natiq iqlim dayanıqlılığı üçün insan inkişafı üzrə Bakı Təşəbbüsündən danışaraq bildirib ki, bu təşəbbüs insana yönümlü iqlim fəaliyyətinə sadiqliyimizin təbii davamıdır. Onun sözlərinə görə, təşəbbüs sektorlar üzrə qlobal əməkdaşlığı gücləndirəcək, investisiyaları səfərbər edəcək və insan inkişafının iqlim strategiyamızın əsas sütunu olmasını təmin edəcək çoxşaxəli və vahid yanaşma tələb edir. Baş danışıqçı daha sonra iqlim dayanıqlılığı üçün insan inkişafı üzrə Bakı Rəhbər Prinsiplərini elan edib. Onun sözlərinə görə, bu prinsiplər iqlim strategiyalarında insan inkişafı üzrə fəaliyyətin istiqamətləndirilməsi üçün əsas rol oynayacaq, iqlimlə bağlı fəaliyyətin əsas hərəkətvericiləri kimi bu sahələrdə inteqrasiya olunmuş yanaşmanı təşviq edəcək.

İclasda iqlim dayanıqlılığının təmin edilməsində təhsilin rolu çərçivəsində aparılan müzakirələrdə gələcək nəsillərin iqlim problemləri ilə mübarizə üçün zəruri bilik və bacarıqlarla təmin edilməsi məqsədilə "İqlim dostu" tədris proqramlarının hazırlanmasının vacibliyi qeyd edilib.

Elm və təhsil naziri Emin Əmrullayev çıxışında diqqəti dayanıqlı cəmiyyətin fərdlərin ətraf mühit çağırışları qarşısında uyğunlaşması üçün lazımi bilik, bacarıq və dəstək sistemləri ilə təmin edilməsinin vacibliyinə yönəldib. Bakı Təşəbbüsünün gəncləri iqlim dəyişiklikləri ilə mübarizədə davamlı tədbirlərin fəal iştirakçıları kimi gücləndirməsini hədəfləyən nazir Azərbaycan Beynəlxalq Şagird Qiymətləndirmə Proqramı vasitəsilə ətraf mühit savadlılığı ilə bağlı biliklərin ölçülməsini təklif edib.

Birgə iclasda məktəblərdə iqlim şüurunun artırılması, müəllimlərin bu sahədə hazırlanması, iqlim dayanıqlı təhsil sistemlərinin qurulması kimi məsələlər müzakirə edilib. Bununla yanaşı, tələbələrin yaşıl iqtisadiyyat üçün zəruri bacarıqlara yiyələnməsi məqsədilə strateji yanaşmalar təqdim olunub.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev çıxışında rəhbərlik etdiyi nazirliyin əsas prioritetlərindən birinin işçi qüvvəsinin bacarıqlarının əmək bazarının dəyişən tələblərinə uyğun davamlı inkişafına nail olmaqdan ibarət olduğunu vurğulayıb. Nazir moderatorun davamlılıq və işçi qüvvəsi siyasətinin rəhbəri Efrem Bayserin işçi qüvvəsinin əmək bazarının ehtiyaclarına uyğun bacarıqlara yiyələnməsi, habelə yaşıl bacarıqların inkişaf etdirilməsi sahəsində görülən işlərə dair suallarını cavablandırıb. O qeyd edib ki, 2021-2024-cü illər ərzində nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin sifarişi ilə, ümumilikdə, 1600 peşə təlimi kursu təşkil edilib. Nazir növbəti illərdə bu sahədə peşə təhsili mərkəzləri, dövlət və özəl tədris müəssisələri ilə əməkdaşlıq şəbəkəsinin daha da genişləndiriləcəyini diqqətə çatdırıb.

Panel müzakirələrində, həmçinin İtaliya, Niderland, Böyük Britaniya, Braziliya və digər ölkələrdən qurum rəsmiləri, beynəlxalq təşkilatların nümayəndələri fikirlərini bölüşüblər.

# Süni intellekt ekoloji mübarizəyə qoşulur

**29-cu iqlim konfransı çərçivəsində keçirilən "İqlim dəyişikliyi ilə mübarizədə texnologiyadan istifadə edilməsi" adlı sessiyada texnologiyanın, o cümlədən süni intellektin iqlim dəyişikliyi ilə mübarizədəki rolunun araşdırılması, eləcə də iqlim fəaliyyətinin səmərəliliyinin artırılmasında yeni texnologiyalardan yararlanması barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda, parlamentlərin texnologiyalardan təhlükəsiz, məsuliyyətli və inklüziv şəkildə istifadəsinin gerçəkləşdirilməsi yolları müzakirə edilib.**



Sessiyada bildirilib ki, iqlim dəyişikliyi müasir dövrün ən ciddi qlobal problemlərindən biridir. Dəniz səviyyəsinin yüksəlməsi, buzlaqların əriməsi və kəskin hava hadisələrinin artması planetin gələcəyini təhlükə altında qoyur. Bu problemin öhdəsindən gəlmək üçün innovativ həllər tələb olunur və texnologiya bu məsələdə vacib rol oynayır. Lakin texnologiyanın tətbiqi təkcə effektivlik deyil, həm də ədalətli çıxışı reallaşdırmaqla həyata keçirilməlidir.

Diqqətə çatdırılıb ki, texnologiyanın düzgün və hərtərəfli istifadəsi ilə iqlim dəyişikliyinin təsirlərini minimuma endirmək mümkündür. Bunun üçün dövlətlər, şirkətlər və vətəndaş cəmiyyəti birlikdə çalışmalı, ədalətli çıxışı təmin etmək üçün birlikdə konkret addımlar atılmalıdır. İqlim dəyişikliyinə qarşı mübarizə yalnız qlobal həmrəylik və innovativ yanaşma ilə uğurlu ola bilər. Texnologiyanın potensialından tam istifadə edərək ədalətli və davamlı gələcək qurmaq insanlığın əsas məqsədi olmalıdır.

# Xarici QHT-lərin Bakı aksiyası



**Xarici ölkələri təmsil edən qeyri-hökumət təşkilatlarının təmsilçiləri iqlim dəyişmələrinə qarşı mübarizəyə daha çox pul ayrılması tələbi ilə aksiya keçiriblər. COP29-un Mavi Zonasına toplaşan iştirakçılar əllərində müxtəlif plakatlar tutub, şüarlar səsləndiriblər.**

Kiçik ölkələri təmsil edən etirazçılar bildiriblər ki, böyük ölkələr havanı xeyli dərəcədə çirkləndirdikləri üçün iqlim dəyişmələri ilə mübarizəyə daha çox vəsaiti də onlar ayırmalıdırlar.

**Səhifəni hazırladılar:
Vaqif BAYRAMOV,
Mirbağır YAQUBZADƏ
XQ**

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Bakı konfransında Xəzər müzakirələri

(əvvəli 1-ci səhifədə)

Nazir müavini dənizin səviyyəsinin məruz qaldığı dəyişikliklərin hərtərəfli öyrənilməsi və uyğunlaşma tədbirlərinin hazırlanması üçün Xəzəryanı ölkələrin ekspertlərinin birgə fəaliyyətinin əhəmiyyətini qeyd edib.



O, regionun zəngin biomüxtəlifliyi və ekosistemi ilə unikal təbii mühiti təmsil edən Xəzərin son onilliklərdə ciddi ekoloji problemlərlə üzləşdiyini diqqətə çatdıraraq deyib ki, hazırda dənizin səviyyəsi müşahidələr tarixində ən aşağı həddə yaxındır: "Ekstremal hava hadisələri, təbii fəlakətlərin tezliyinin artması və biomüxtəliflikdəki dəyişikliklər – bütün bunlar yeni reallıqlara uyğunlaşmaq üçün birgə səylər tələb edir. Son 30 ildə Xəzərin səviyyəsi təxminən 2,5 metr azalıb. Son illərdə isə illik azalma həyəcan doğuran 20-30 santimetrə çatıb. Bu sürətli dayazlaşma təcili tədbirlər tələb edən ciddi ekoloji və iqtisadi risklər yaradır".

Nazir müavini bildirib ki, BMT-nin Ətraf Mühit Proqramı tərəfindən hazırlanmış "Xəzər dənizi səviyyəsinin tərəddüdləri və iqlim dəyişmələri" adlı hesabat iqlim dəyişikliyi, regional hidrologiya və dəniz səviyyəsinin azalması arasındakı mürəkkəb əlaqəni başa düşməyə imkan verir. Onun sözlərinə görə, əsas nəticələr arasında dəniz səviyyəsinin dəyişməsinin ekosistemə, iqtisadiyyata və infrastruktura müxtəlif təsirlərini həll etmək üçün əlaqələndirilmiş transsərhəd tədqiqatlara ehtiyac var.

Xəzər dənizinin ekoloji problemləri əlaqələndirilmiş və qətiyyətli fəaliyyət tələb etdiyini vurğulayan U. Tağıyeva deyib ki, "Xəzər dənizində su səviyyəsinin azalmasına cavab tədbirləri üzrə əməkdaşlığın gücləndirilməsi barədə Xəzəryanı dövlətlərin bəyannaməsinin qəbulu bu tədbirin mühüm nəticəsi olacaq. O deyib ki, Xəzəryanı dövlətlərin bəyannaməsi ümumi regional öhdəliyi nümayiş etdirir, ekspert bilikləri, texnologiyalar və maliyyə yardımı ilə dəstəklənən birgə fəaliyyət planını müəyyən edir. Nazir müavininin sözlərinə görə, birgə fəaliyyət Xəzər regionunun sağlam və firavan gələcəyini təmin etməyin yeganə yoludur.

BMT-nin Ətraf Mühit Proqramının icraçı direktoru İnger Andersen isə qeyd edib ki, Xəzər dənizinin səviyyəsinin dəyişməsi regionun ərzaq təhlükəsizliyini təhdid edir. Regionun təhlükəsizliyinə görə narahatlığını ifadə edən proqram rəhbərinin sözlərinə görə, bu problem tezliklə həll edilməsə, 5 milyona qədər insan təhlükə altında olacaq. O deyib ki, Xəzər dənizinin dayazlaşması probleminin həllinə yalnız birgə səylərlə nail olmaq mümkündür.

Tədbir çərçivəsində BMT-nin Ətraf Mühit Proqramının icraçı direktoru İnger Andersen tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə rəhbərlik etdiyi qurumun birgə əməkdaşlığı əsasında hazırlanan "Xəzər dənizi səviyyəsinin tərəddüdləri və iqlim dəyişmələri" adlı hesabat təqdim olunub.

Toplantıda Dünya Bankı və Yaşıl İqlim Fondunun nümayəndələri də mövzu ilə bağlı təqdimatlarla müzakirələrdə iştirak ediblər.

Sonda "Xəzəryanı dövlətlərin nazirlərinin və yüksəkvəzifəli şəxslərinin Xəzər dənizi səviyyəsinin azalması ilə bağlı əməkdaşlığın gücləndirilməsi haqqında Bəyannamə" qəbul edilib.

# Qlobal İqlim Şəffaflığı üzrə Nazirlərin Bakı Bəyannaməsi



(əvvəli 1-ci səhifədə)

Bəyannamədə qeyd olunub ki, Paris Razılaşmasının 13-cü bəndinə uyğun olaraq sözügedən sənədə imza atan ölkələr özlərinin İkiillik İqlim Şəffaflığı Hesabatlarını 2024-cü il dekabrın 31-dək təqdim etməyi öhdəsinə götürür. Eyni zamanda, Paris İqlim Razılaşmasının bütün tərəflərini özlərinin iqlim şəffaflığı hesabatlarını həmin vaxtadək təqdim etməyə dəvət olunub.

Sənəddə bəzi inkişaf etməkdə olan ölkə və tərəflərin İqlim Şəffaflığı Hesabatlarının hazırlanması və hökumətlər daxilində milli hesabat sistemlərinin yaradılmasında qarşılaşdıqları çətinliklərin tanındığı, COP29 Prezidentliyi, eləcə də UNFCCC Katibliyi tərəfindən inkişaf etməkdə olan ölkələrə iqlim şəffaflığı hesabatlarının hazırlanmasında yardım göstərilməsi istiqamətindəki səylərin dəstəkləndiyi vurğulanıb.

Bəyannamədə qeyd olunub ki, ölkələrin institusional inkişafına və potensialının daha da inkişafına yönələn kollektiv səylər dəstəklənir. Bununla yanaşı, Bakı Bəyannaməsi inkişaf etməkdə olan ölkələrə texniki dəstəyin genişləndirilməsi, hesabatların hazırlanmasına və müasirləşdirilməsinə yönələn qabaqcıl təcrübə mübadiləsi, bu məqsədlə irəliləyişin əldə olunması üçün ekspertlərlə çoxtərəfli müzakirələrdə iştirakı öhdəsinə götürür, həmçinin tərəflərə və hökumətlərarası komissiyalara bu sahədə ekspert hesab olunan şəxslərlə bağlı məlumatları BMT-nin müvafiq İqlim Dəyişmələri üzrə Ekspertlərinin Reyestrinə daxil edilməsini təmin edir. Eyni zamanda, maraqlı tərəflərin və subyektlərin bu sahədəki öhdəliklərini müəyyən edilməsi, eləcə də texniki ekspertlərin rəylərinin hazırlanması prosesini dəstəkləyir.

Bildirilib ki, Qlobal İqlim Şəffaflığı üzrə Bakı Bəyannaməsini imzalayan tərəflər onu da təsdiq edir ki, sözügedən sənəd öz hesabatlarını hazırlayan ölkələr üçün digərləri ilə əməkdaşlığın qurulması, bu sahədə resursların səfərbər edilməsi, əməkdaşlığa təkan verən fəaliyyətin həyata keçirilməsi və təcrübə mübadiləsi yolu ilə şəffaflığın təminatında platforma rolunu oynayacaq. Tərəflər Bakı Şəffaflıq Platformasının inkişaf etməkdə olan ölkələr arasında qarşılıqlı etimadın möhkəmləndirilməsinə və potensialın artırılmasına yönələn səylərini dəstəklədiklərini bəyan ediblər.

# İnsan kapitalı və aqrar sahənin ekologiyası

**29-cu iqlim sessiyası çərçivəsində Kənd Təsərrüfatı Nazirliyi, Beynəlxalq Aqrar Tədqiqatlar üzrə Məsləhət Qrupu və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının birgə təşkilatçılığı ilə "AgriFuture 2024: İnsan kapitalına investisiyaların davamlı kənd təsərrüfatı transformasiyasına təsiri" mövzunda konfrans təşkil olunub. Tədbirdə dayanıqlı və ədalətli gələcək üçün qadınların, gənclərin və innovasiyaların gücləndirilməsinin iqlim təsirlərinə davamlı kənd təsərrüfatında rolu və iqlim fəaliyyətinə təsiri, iqlimə davamlı aqro-qida sistemləri üçün insan kapitalı: liderlik, elm və icma perspektivləri mövzularında panel müzakirələr keçirilib.**

Konfransı açan kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib ki, kənd təsərrüfatı iqtisadiyyatın dəstəklənməsi, əhalinin məşğulluğunun təmin olunması, ərzaqla təminatda vacib rol oynayır. Hazırda iqlim dəyişikliyi, məhdud resurslar və dəyişən bazar tələbləri aqrar sahəyə hər tərəfdən təzyiq edir. Azərbaycanda aqrar sahənin inkişafı ilə bağlı icra edilən tədbirlərin tərkib hissəsi kimi gənc və qadınların potensial imkanlarının düzgün qiymətləndirilməsi, onların məşğulluq səviyyəsinin artırılması, innovativ layihələrdə iştirakının stimullaşdırılması aqrar siyasətin əsas hədəflərindəndir.

Panel sessiyada çıxış edən Quraq Ərazilərdə Kənd Təsərrüfatı Tədqiqatları üzrə Beynəlxalq Mərkəzin icraçı direktoru İsmahane Elouafi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının İqlim Dəyişikliyi, Biomüxtəliflik və Ətraf Mühit Ofisinin direktoru Kaveh Zahedi iqlim dəyişikliyi, qida təhlükəsizliyi və su qıtlığı kimi qlobal çağırışların həlli istiqamətində qadınların və gənclərin fəal iştirakının vacibliyinə toxunub, kənd təsərrüfatında rəqəmsal texnologiyaların tətbiqinin əhəmiyyəti, rəqəmsal həllərin istehsalın avtomatlaşdırılmasında rolu, iqlim dəyişikliklərinin təsirlərinin azaldılması, məhsuldarlığın artırılması yolları ilə bağlı fikirlərini bölüşüblər.



Nazir Məcnun Məmmədov fermerlərin üzləşdikləri çətinliklərin həlli istiqamətində Azərbaycanın kənd təsərrüfatı, ətraf mühit və iqlim məsələlərini özündə ehtiva edən Fermerlər üçün "Bakı Harmoniya İqlim Təşəbbüsü"nün növbəti gündə daha ətraflı müzakirələrə açılacağını diqqətə çatdırıb. Qeyd olunub ki, Harmoniya kənd təsərrüfatında, qida sistemlərində və su idarəçiliyində iqlim dəyişikliyinə uyğunlaşma və davamlı inkişafın təşviqinə yönəlməklə, müxtəlif təşəbbüsləri, koalisiyaları və tərəfdaşlıqları birləşdirən mərkəzi platforma rolunu oynayacaq, kənd təsərrüfatı sistemlərinin transformasiyasını dəstəkləyəcək. Həmçinin davamlı kənd təsərrüfatını dəstəkləyən investisiyaları səfərbər etməyə imkan verəcək, kənd təsərrüfatının onurğa sütunu və gələcək dayanıqlığın əsas hərəkətverici qüvvəsi olan fermerlərin, xüsusilə qadınların və gənclərin imkanlarının artırılmasına xidmət edəcək.

Çıxışlarda fərdi təsərrüfatlara dəstək, ərzaq təhlükəsizliyinin təmin olunması, iqlim dəyişikliyinin aqrar sahəyə təsiri, rəqəmsal kənd təsərrüfatı, torpaq və su resurslarından səmərəli istifadə, təbii sərvətlərin və ekoloji tarazlığın qorunması, aqro-ərzaq sistemlərinin rəqəmsal transformasiyası, kənd yerlərinin və icmaların davamlı inkişafı üçün dayanıqlı kənd təsərrüfatı sisteminin qurulması mövzularına da toxunub, tədbir iştirakçılarının sualları cavablandırılıb.

# "Təmiz" enerji – təhlükəsiz ətraf mühit

**Bakıda keçirilən COP29 çərçivəsində Dayanıqlı Enerji üzrə Biznes Şurasının təşkilatçılığı ilə "Təmiz enerjinin faydalarının genişləndirilməsi: icma iştirakçılığı və gələcək nəsil işçi qüvvəsinin inkişafı" mövzusunda seminar keçirilib.**



Tədbirdə Dayanıqlı Enerji üzrə Biznes Şurasının prezidenti Lisa Jakobson çıxış edərək 2030-cu ilə qədər sıfır karbon keçid etməyin önəmini diqqətə çatdırıb. Bunun son dərəcə çətin olduğunu vurğulayan L. Jakobson deyib ki, sıfır emissiya bir sıra biznes sahələrini zəiflətsə də, digər sahələrin inkişafına təkan verir. Onun sözlərinə görə, yaşıl enerji istehsalı sahəsinə sərmayə yatırılması və əldə olunan enerjinin reallaşdırılması yeni biznes sahələrinin inkişafı üçün münbit şərait yaradır.

"Edison İnternational" elektrik enerjisi istehsal edən şirkətlərin rəhbərləri Pedro Pizzaro, SMUD şirkətinin nümayəndəsi Qreqq Fişer və başqaları çıxışlarında təmsil etdikləri istehsal prosesində dekarbonizasiya istiqamətində gördüyü işlərdən bəhs ediblər. Bildirilib ki, "yaşıl" enerji istehsalı dövrümüzün tələbidir və şirkətlər bu sahənin inkişafına sərmayə yatırmağı davam edirlər.

Artıq dünyanın bir sıra regionlarında sıfır emissiyaya nail olmaq üçün iri şirkətlər tərəfindən su, günəş, külək elektrik stansiyalarının inşa olunduğunu xatırladan çıxışçılar bu prosesin davam etməsinin nəticəsi olaraq korbonsuzlaşmaya yaxınlaşmağın asanlaşacağını vurğulayıblar. Qeyd olunub ki, enerji sahəsində çalışan şirkətlər, tədricən də olsa, enerji transformasiyasını həyata keçirməlidirlər.

Sonra tədbir müzakirələrlə davam edib. Şirkətlər gördükləri işlər barədə ətraflı məlumat veriblər.

# OPEC Fondunun Su Ehtiyatları Agentliyinə dəstəyi



**"COP29 çərçivəsində Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayilovun OPEC Fondunun vitse-prezidenti Şaima Al-Şeybi ilə görüşündə ölkəmizin su təsərrüfatı sisteminin inkişafını hədəfləyən potensial infrastruktur layihələri müzakirə olunub.**

Vitse-prezident Şaima Al-Şeybi fondun ölkəmizdə davamlı su təchizatını təmin edəcək bütün layihələrdə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə dəstək verəcəyini bildirib.

# G20 ölkələri "yaşıl" maliyyənin önəmli mənbəyidir

**Böyük Britaniya Qreşem Kollecinin professoru Avinaş Persaud COP29 çərçivəsində keçirilən mətbuat konfransında bildirib ki, iqlim dəyişikliyi ilə mübarizə üçün inkişaf etməkdə olan ölkələrin illik maliyyə ehtiyacının 2,4 trilyon dollar olduğu təxmin edilir. Bu vəsaitin ən azı 1 trilyon dolları beynəlxalq maliyyə mənbələrindən təmin olunmalıdır.**



Britaniyalı professorun sözlərinə görə, göstərilən məbləğin əsas hissəsi dövlət maliyyəsi və çoxtərəfli inkişaf banklarının güzəştli kreditləri vasitəsilə reallaşdırılmalıdır. Əgər COP29-da ədalətli və ambisiyalı Yeni Kollektiv Kəmiyyət Hədəfi qəbul edilməzsə, milli səviyyədə müəyyənləşdirilən öhdəliklər də kifayət qədər ambisiyalı olmayacaq və bu, ümumi sistemin pozulmasına gətirib çıxara bilər. Buna görə də uğurlu iqlim maliyyələşməsi üçün inkişaf etmiş ölkələrdən dövlət maliyyəsi üzrə öhdəliklərin ən azı 3 dəfə artırılması tələb olunur. Bu məqsədlə G20 ölkələrinin siyasi liderliyi və çoxtərəfli inkişaf banklarının maliyyə dəstəyi vacibdir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

# Bakı konfransının emissiya çağırışı

## *5 ildə karbonu 42 faiz azaldaq!*

**2030-cu ilə qədər istixana qazı emissiyaları 42 faiz azaldılmalıdır. Bunu Bakı iqlim konfransında keçirilən nazirlərin qlobal iqlim şəffaflığı üzrə “dəyirmi masası”nda BMT Baş katibinin müavini, qurumun Ətraf Mühit Proqramının icraçı direktoru İnqer Andersen bildirib.**



O deyib ki, 2023-cü ildə qlobal karbon dioksid emissiyaları çoxsaylı beynəlxalq öhdəliklərə baxmayaraq, 1,3 faiz artıb. 2035-ci ilə qədər istixana qazı emissiyalarını 57 faiz azaltmaqla böyük irəliləyiş əldə etmək imkanının olduğunu vurğulayan icraçı direktorunun sözləinə görə, bu, genişmiqyaslı bir çağırışdır, lakin mümkündür: “Əgər buna nail ola bilməsək, nəticələr fəlakətli olacaq. Bəşəriyyət iqlim dəyişiklikləri ilə mübarizədə yanlış istiqamətdə hərəkət etməyə davam edir”.

Emissiyaların azaldılması günəş və külək enerjisindən istifadənin artırılması, meşələrin qırılmasının azaldılması, meşə sahələrinin bərpası və idarə edilməsi, eləcə də metan emissiyalarının azaldılması strategiyalarının həyata keçirilməsi və dövri iqtisadiyyat prinsiplərinin tətbiqi ilə mümkündür.

Qlobal səfərbərlik üçün məhz bu vaxtın ən doğru zaman olduğunu vurğulayan İnqer Andersen bildirib: “Bizə konkret sektoral və milli hədəfləri, real keçid yollarını, siyasətləri və maliyyələşdirməni nəzərdə tutan yeni öhdəliklər lazımdır. Bu tədbirlərin uğuru, verilmiş vədlərin yerinə yetirilməsinin izlənməsinə imkan verən tam şəffaflıqdan asılıdır”.

Proqram rəhbəri Paris Sazişi çərçivəsindəki Şəffaflıq Sistemi haqqında razılaşmanın iqlim dəyişikliyi ilə mübarizədə irəliləyişin dəqiq məlumatlarla təmin edilməsi və etimadın yaradılmasında mühüm rol oynadığını xüsusi vurğulayıb.

# Ekoloji böhran və yeni iş yerlərinin dəstəklənməsi

**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev ölkəmizin evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində keçirilən “İqlimə Dayanıqlı Gələcək üçün İnsan İnkişafına İnvestisiya üzrə Yüksək Səviyyəli Görüş”ün panel müzakirələri zamanı çıxış edib.**




Bildirib ki, nazirliyin əsas prioritetlərindən biri işçi qüvvəsinin bacarıqlarının əmək bazarının dəyişən tələblərinə uyğun davamlı inkişafına nail olunmasıdır. Qurum bu istiqamətdə dövlət qurumları, beynəlxalq təşkilatlar, QHT-lər və özəl sektoru əhatə edən geniş əməkdaşlıq şəbəkəsi yaradıb.

Nazir moderator Efrem Bayserin işçi qüvvəsinin əmək bazarının ehtiyaclarına uyğun bacarıqlara yiyələnməsi, habelə yaşıl bacarıqların inkişaf etdirilməsi sahəsində görülən işlərə dair suallarını cavablandıraraq deyib ki, hazırda nazirliyin peşə hazırlığı mərkəzləri işaxtaran şəxslərə yaşıl bacarıqlar üzrə kurslar təklif edir. Bu sahədə təlim proqramları yaşıl iqtisadiyyata keçid üçün vacib olan yeni iş sektorlarını dəstəkləmək məqsədi daşıyır.

S.Babayev qeyd edib ki, əsas məqsəd əmək bazarının tələblərinə uyğun bacarıqlara malik işçi qüvvəsini inkişaf etdirmək, eyni zamanda yeni məşğulluq imkanlarının yaradılmasını təşviq etməkdir. Eyni zamanda, aparıcı İKT və innovasiya şirkətləri ilə əməkdaşlıq çərçivəsində işçi qüvvəsinin yeni bacarıqlar qazanmaları üçün peşə hazırlığı proqramları təşkil edilir. Xüsusi sosial müdafiəyə ehtiyacı olan insanların məşğulluq imkanlarını asanlaşdırmaq üçün birgə layihələr də həyata keçirilir.

2021–2024-cü illər ərzində nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin sifarişi ilə ümumilikdə 1600 peşə təlimi kursunun təşkil edildiyini bildirən nazir bu sahədə peşə təhsili mərkəzləri, dövlət və özəl tədris müəssisələri ilə əməkdaşlığı, növbəti illərdə daha da genişləndiriləcəyini diqqətə çatdırıb. Qeyd edib ki, nazirlik yaşıl iqtisadiyyata keçidlə bağlı yaşıl iş yerlərinin yaradılması üzrə də bu tərəfdaşlığı genişləndirməkdə maraqlıdır. Yaşıl iqtisadiyyatın ehtiyaclarına uyğun bacarıqlara malik işçi qüvvəsinin yetişdirilməsi üçün peşə təhsili mərkəzlərinin genişləndirilməsi əsas istiqamətlərdən biridir.

Hazırda nazirliyin peşə hazırlığı mərkəzləri işaxtaran şəxslərə yaşıl bacarıqlar üzrə kurslar da təklif edir. Bu sahədə peşə təlimi proqramları Azərbaycanın yaşıl iqtisadiyyata keçidi üçün vacib olan yeni iş sektorlarını dəstəkləmək və inkişaf etdirmək məqsədi daşıyır.

***Z.HÜSEYN***
***XQ***

# “Yaşıl” məqsədlərə çatmaq ciddi səylər tələb edir

**Ankara Sosial Elmlər Universitetinin dosenti İzzet Arı jurnalistlərlə söhbətində qeyd edib ki, bir çox ölkələrin ekoloqları və alimləri ABŞ-da prezidentlik yarışını xüsusi diqqətlə izləyiblər. Bu, təsadüfi olmayıb. Çünki ABŞ planetin atmosferini ən çox çirkləndirən ölkələr sırasındadır. Bundan başqa, prezidentlik yarışının qalibi Donald Tramp vaxtilə Paris Sazişindən çıxmaq qərarına gəlib.**



Ekspertin fikrincə, ABŞ-ın yeni administrasiyası çox gümanki, Paris razılaşmasının öhdəliklərindən bir daha imtina etməyəcək: “2024-cü ildə planetin ekoloji vəziyyəti Trampın birinci hakimiyyəti dövründə – 2016-cı ildə yaşadığımızdan fərqlidir. Düşünürəm ki, bu, Vaşinqtonda nəzərə alınacaq”.

Onun sözlərinə görə, iqlim dəyişikliyinin mənfi nəticələri inkişaf etmiş ölkələrdən də yan keçmir, bunu İspaniyadakı sel və daşqınlar da sübut edir.

Eyni zamanda, o vurğulayıb ki, alim və ekspertlər Paris Sazişini dəstəkləyən ölkələrin öhdəliklərinin istiləşməni 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaq kimi qlobal məqsəddən uzaq olması ilə razılaşırlar. “İstixana qazı emissiyalarının könüllü azaldılması, hətta istiləşməni 2 dərəcə Selsiyə qədər məhdudlaşdırmaq üçün yetərli deyil” deyən türkiyəli universitet dosenti BMT-nin 2019-cu ilə nisbətən 2030-cu ilə qədər istixana qazı emissiyalarının 43 faiz azaldılması üçün kollektiv öhdəliklərin vacibliyinə dair çağırışını xatırladıb.

İzzet Arı ekspert hesablamalarına da diqqət çəkib. O qeyd edib ki, ölkələrin İqlim Dəyişikliyi ilə Mübarizə üçün Milli Müəyyən Edilmiş Dəyişdirmələr kontekstində götürdükləri məcmu öhdəliklər 2030-cu ilə qədər zərərli emissiyaları cəmi 6 faiz azaldacaq. “Yəni, hətta qlobal istiləşməni 2 dərəcə Selsiyə qədər məhdudlaşdırmaq məqsədinə nail olmaq da getdikcə çətinləşir”,– deyə türkiyəli alim bildirib.

Dosent daha sonra qeyd edib: “Hazırda 120 milyard dollardan çox olacağı gözlənilən iqlim maliyyəsinin 2025-ci ildən ayrılmağa başlanılması planlaşdırılır. Eyni zamanda, dövlətlərin “ümumi xəzinə”yə töhfə verəcəyi meyarlar hələ müəyyən edilməyib; bunlar inkişaf səviyyəsinə, çirklənmənin həcminə, yoxsa hansısa başqa faktora görə olmalıdır?

Onun fikrincə, bir çox inkişaf etməkdə olan ölkələrin “yaşıl” transformasiya prosesini sırf iqlimin maliyyələşdirilməsi ilə əlaqələndirmək cəhdləri, eləcə də ABŞ-da keçirilən prezident seçkilərinin nəticələri fonunda iqlim böhranı ilə mübarizənin perspektivləri erkən uğura nail olunmasına o qədər də ümid doğurmur.

# Nigeriyanın davamlı inkişaf hədəfləri niyə gerçəkləşmir?

**Uzodinma Adirieje Nigeriya Qiymətləndiricilər Assosiasiyasının üzvü və Milli Prezidenti, Afrika Səhiyyə Təşkilatları Assosiasiyasının rəhbəridir. Genişmiqyaslı və kompleks monitorinq və qiymətləndirmələrin, layihələrin tərtib edilməsində, fərdi, ev təsərrüfatı, icma və obyekt səviyyəsində məlumatların toplanması üçün sorğuların təşkil olunmasında 15 ildən artıq təcrübəsi var. Müstəmləkə ərazilərin nümayəndələri tərəfindən yerli xalqların hüquqlarının kütləvi pozulması əleyhinə etiraz aksiyasının iştirakçısıdır. COP29 çərçivəsində ölkəmizə səfərə gələn Uzodinma Adirieje Nigeriyadakı əhalinin həyat şəraiti ilə bağlı jurnalistlərə açıqlamasında deyib:**



– Mən tədqiqat layihələrinin, proqramlarının və siyasətlərinin monitorinqi və qiymətləndirilməsində iştirak edib, potensial sınaq iştirakçıları, ağır xəstəliklər – infeksiyalardan (HİV/AİDS, vərəm, malyariya, COVID-19) əziyyət çəkənlərə kömək məqsədilə, Afrikada və qlobal cənubda icma üzvləri və səhiyyə işçiləri ilə çalışmışam. Nigeriyanın Federal Səhiyyə Nazirliyində, Nigeriya UNICEF-də və QİÇS, Vərəm və Malyariya üzrə Qlobal Fondun Nigeriyanın Ölkə Əlaqələndirmə Mexanizmində məsləhətçi kimi fəaliyyət göstərmişəm. Milli İlkin Səhiyyə Xidmətinin İnkişafı Agentliyinin müntəzəm immunizasiya üzrə qiymətləndirmə–nəzarət məsləhətçisi olmuşam. Nigeriyanın demək olar ki, bütün ştatlarında bu xidmətləri göstərmişəm. Buna görə, ölkənin hər yerində əhalinin yaşayış şəraitindən xəbərim var.

Biz Nigeriyanın yerli əhalisinin rifahı üçün tərəfdaş olaraq buradayıq. Onlar davamlı inkişaf hədəflərinə çata bilmirlər. Dünyada təxminən 8 milyard insan var. Afrikadan Amerikaya, Asiyaya, Avropadan Sakit okeana, Karib dənizindən Avstraliyaya qədər bütün yerli əhali bu 8 milyardın bir hissəsidir.

Nigeriyanın elə yerli insanları var ki, onların hüquq və imtiyazları hər gün tapdalanır. Onlardan bəziləri təbii mühitlərindən uzaqlaşdırılıb, əlverişli, əlçatan və dayanıqlı alternativ vasitələrlə təmin olunmayıb. Bu səbəbdən yerli insanlara qayğı göstərilməlidir.

Biz BMT- nin yerli əhali ilə bağlı rəsmi siyasətinin hər bir ölkə üçün təbiətə çox yaxın mövcud olan, təbii mühitin saxlanmasında ilk növbədə məsul olan, bu mühitin qorunmasına cavabdeh olan yerli insanların rifahı üçün uyğunlaşması, qəbul edilməsi və həyata keçirilməsi üçün məcburi olmasını tələb edirik. Bu insanlar ətraf mühitə, mədəniyyətlərinə, sivilizasiyalarına və rifahlarına görə sıxışdırılırlar. Əsrlər boyu insanlara ətraf mühitini qoruyub saxlamağa kömək edən bəzi yerli mədəniyyətlər məhv edilib. Dünya yerli insanlara diqqət yetirməyincə, iqlimə nəzarətə nail olmaq üçün göstərdiyimiz heç bir səylər nəticə verməyəcək. Konfransın ölkəmizin əhalisinin bu probleminin aradan qalxmasına kömək edəcəyinə əminik.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Yaşıl kart sahibini xarici ölkədə sığortalayır

**Yaşıl Kart Sistemi çərçivəsində ölkə xaricinə yüksək məbləğdə sığorta ödənişi həyata keçirilib. 79 min 680,56 manat (43 min 98,53 avro) məbləğində sığorta ödənişi Almaniyanın Dortmund şəhərində Azərbaycan Yaşıl kartı olan Qazaxıstan dövlət qeydiyyat nişanlı avtonəqliyyat vasitəsi sahibinin təqsiri üzündən baş vermiş hadisəyə görə ödənilib. Bu barədə XQ-yə İcbari Sığorta Bürosundan məlumat verilib.**

Bildirilib ki, 2024-cü ilin yanvar–sentyabr ayları ərzində Azərbaycan Yaşıl Kart sahiblərinin təqsiri səbəbindən Rusiya, Türkiyə, Latviya, Polşa, Belarus, Rumıniya, Estoniya, Niderland və Belçikada, ümumilkdə, 264 yol-nəqliyyat hadisəsi baş verib. Həmin sığorta hadisələrinə görə, ümumilikdə, 998 min 846 manat ödəniş həyata keçirilib.

Xatırladaq ki, Yasil Kart Sistemi üzv büroların qarşılıqlı zəmanəti əsasında, avtonəqliyyat vasitələri ilə xarici ölkələrə səfər edən sürücülərin mülki məsuliyyətini sığortalayan vahid təminat sistemidir. Sistemin məqsədi xarici avtonəqliyyat vasitələrinin iştirakı ilə baş verən yol-nəqliyyat hadisələri zamanı zərər çəkmiş şəxslərin tələblərinin hadisənin baş verdiyi ölkənin daxili qanunvericiliyi ilə nəzərdə tutulmuş şərtlərə və qaydalara uyğun olaraq tənzimlənməsidir.



Yeri gəlmişkən, Azərbaycanın İcbari Sığorta Bürosu 2016-cı ildən Beynəlxalq Bürolar Şurasına üzv olmaqla əlaqələndirici, ixtisaslaşmış təşkilat kimi fəaliyyət göstərir və Beynəlxalq Yaşıl Kart Sistemində ölkəmizi təmsil edir. 2023-cü il yanvarın 1-dən Gürcüstan və Qazaxıstanda qeydiyyatdan keçmiş nəqliyyat vasitələrinə də Azərbaycan yaşıl kartlarının satılması təmin edilir.

# İqlim maliyyəsi ən həssas təbəqəyə çatmır

**Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının siyasət üzrə baş məsləhətçisi Mişel Yonetani iqlim dəyişikliyinin səbəb olduğu miqrasiya və yerdəyişmə problemlərinin həlli mövzusunda keçirilən sessiyadakı çıxışında bu gün qaçqın probleminin hər kəsi təsirləndirdiyini bildirib.**



BMT rəsmisi deyib: “Biz hər kəsdən bu mürəkkəbliyi başa düşməyi, bunun fərqində olmağı və eyni zamanda, düşüncəni dəyişməyi xahiş edirik. Bu istiqamətdə atılan addımların həyata keçirilməsinə kömək edən bir neçə əsas amil var. Əvvəla, bu, faktiki məlumatdır. Lakin artıq əhəmiyyətli məlumat bazamızın olmasına baxmayaraq, milli və yerli səviyyədə baş verənlər haqqında daha çox informasiyaya da ehtiyac var”.

Mişel Yonetani qeyd edib ki, hesabata əsasən, dünyada, təxminən, münaqişə və təqiblər nəticəsində məcburi köçkün düşən, təxminən, 120 milyon insanın dörddə üçü hazırda iqlim dəyişikliyinin yüksək və ya ekstremal təsirlərinə həssas olan Sudan, Haiti, Myanma və Efiopiyada yaşayır. Məlumatları və modelləşdirmə nəticələrini birləşdirərək aşkar etdik ki, iqlimlə bağlı təhlükələrə həddindən artıq məruz qalan ölkələrin sayı 2040-cı ildə 65-ə yüksələcək. Bu ölkələrin əksəriyyəti məcburi köçkünlərə evsahibliyi edir.

**Səhifəni hazırladılar:**
**Vaqif BAYRAMOV,**
**Mirbağır YAQUBZADƏ**
**XQ**




# COP29 Azərbaycanı dünyaya yaxından və əhatəli tanıdır

*Konfrans iştirakçıları və turistlərin yekdil qənaəti belədir*




**Bakıda uğurla davam edən COP29 dünyanın diqqət mərkəzindədir. Tədbir iştirakçıları, turistlər hesab edirlər ki, planetin gələcəyi üçün mühüm əhəmiyyət daşıyan bu qlobal tədbir ölkələr, insanlar arasında sıx əlaqələrin qurulması baxımından da xüsusilə önəm daşıyır. Onlar həm COP29 layihəsi çərçivəsində Azərbaycana səfər etmələrindən, paytaxt Bakıda müşahidə etdikləri inkişaf və tərəqqidən məmnun qaldıqlarını dilə gətirdilər.**

**Vyetnamlı Van Kha** Bakıya ilk dəfədir gəlib. Ötən həftə şəhərimizin görməli



yerləri ilə tanışlıq qonaqda gözəl təəssüratlar oyadıb:

– Bakı böyük elmi-mədəni və sənaye mərkəzidir. Düşünürdüm ki, qədim şəhər görəcəyəm. Hündür mərtəbəli binalar, müasir görkəmli parklar çox xoşuma gəldi. Yeniliklərin çox olması onu göstərir ki, son illər Azərbaycanda böyük inkişaf gedir. İdman arenaları ilə, bu sahədəki modern infrastrukturla tanışlıq məmnunluq yaratdı. Azərbaycan, həm də idman ölkəsidir. Bilirəm ki, ölkənizdə çoxlu idman yarışları keçirilir.

Biz bilirik ki, böyük şəhərlərdə havanın çirklənməsi, nəqliyyatın hərəkəti, tullantılar və digər amillər iqlim dəyişikliyinə təsir edir. Su çatışmazlığı xüsusilə qlobal problemdir. Yay mövsümündə suyun azalması, bəzən kifayət qədər yağışın yağmaması böhrana gətirib çıxarır. Kənd təsərrüfatı ilə məşğul olan insanlar iqlim dəyişikliyindən, xüsusən su qıtlığından əziyyət çəkirlər. İnanırıq ki, Bakıda təşkil edilən bu mötəbər tədbirə qatılan hər bir iştirakçı dünyanı narahat edən qlobal problemin həllinə öz töhfəsini verəcək.

**Anadou Habib Sam** Seneqalda yaşayır. Neft-qaz sektorunda çalışır. O, iqlim



dəyişikliyi probleminin dünyada bütün insanlar üçün narahatlıq törətdiyini bildirdi:

– Bakıda təşkil edilən COP29 dünyanın demək olar ki, bütün dövlətlərini bir araya gətirib. İnsanların müasir zamanda istehsalın ekologiya və iqlimə təsiri barədə daha çox məlumata ehtiyacları var.

Azərbaycanda olduğum müddətdə başa düşdüm ki, xalqınız təbiətlə iç-içə yaşamağı sevir. Yaşıllıqlara böyük önəm verirsiniz. Parkları, xiyabanları gəzərkən bunu başa düşmək olar. Havanın çirklənməsi məsələlərinə də böyük diqqət göstərilir. Azərbaycanda yeni yaradılan müəssisələrlə bağlı məlumatlar əldə etdim. Öyrəndim ki, ekoloji tələblərə cavab verən müasir texnologiyaların tətbiqi ətraf mühitin qorunmasına töhfələrini verir.

**Muhammad Tahir Shabbir** Pakistanın Lahor şəhərindəndir. O, Lahorun



dünyada insanların ən sıx yerləşdiyi meqapolislərdən biri olduğunu dedi. Əvvəllər "bağlar şəhəri" kimi tanınıb, son onilliklərdə yaşıl örtüyünün 75 faizini itirib. Ağacların və yaşıl sahələrin yox olması ilə yanaşı, avtomobillərin zəhərli tüstüləri, tikinti sahələrindən çıxan tozlar, fabriklərin havanı çirkləndirən tullantıları şəhəri dəhşətli çirklənmə ilə üz-üzə qoyub.

Bakıda COP29 bütün dünya üçün müstəsna əhəmiyyət daşıyır. Bu ay bütün ölkələr həmrəy şəkildə gələcəyin "təmiz dünya"sını qurmaqla bağlı tədbirlər görürlər. "Yaşıl gələcək" naminə bütün səylər birləşdirilir. COP-un da şüarı məhz yaşıl dünya ilə həmrəylikdir. Ümid edirik ki, gənc nəsil gələcəkdə yaşıl dünyada yaşayacaq.

Pakistanlı qonaq Bakıda olduğu müddətdə Heydər Əliyev Mərkəzində bir sıra sərgilərdə olduğunu bildirdi, İçərişəhərin öz qədimliyi ilə onun diqqətini çəkdiyini söylədi.

**Jamsheer Sajna** hindistanlıdır. Bir həftədir ki, həyat yoldaşı Jamsheer və



oğlu Muhammedlə Bakıdadır. İlk dəfədir Azərbaycana gəlib. Onun paytaxtımız, bütövlükdə tədbir barədə təəssüratları maraqlıdır:

– Bakı dünya miqyasında əhəmiyyətli bir tədbirə evsahibliyi edir. COP29 möhtəşəm hadisədir, Azərbaycan üçün böyük qürurdur. Bu günlər Azərbaycanın paytaxtı qlobal iqlim dəyişikliyi məsələlərinə dair müzakirələrin mərkəzinə çevrilib. Bakının COP29-a evsahibliyi etməsi şəhərin və ölkənin beynəlxalq arenada daha da güclənməsinə və iqlim dəyişikliyi sahəsindəki mübarizəyə töhfə verməsinə səbəb olacaq.

Biz bu gözəl şəhəri qədim tarixini və mədəni irsini müasir memarlıqla birləşdirən dinamik şəhər olaraq tanıyırıq. Bu müasirlik və tarixi zənginlik Bakının COP29 üçün ideal bir məkan olduğunu göstərir. Bundan əlavə, Azərbaycan son illərdə ekoloji və davamlı inkişaf sahəsində bir sıra mühüm təşəbbüslər həyata keçirib. Xüsusilə, təbii ehtiyatların səmərəli istifadəsi, bərpaolunan enerji və karbon emissiyalarının azaldılması ilə bağlı ölkənin apardığı siyasət paytaxtınızın iqlim dəyişiklikləri ilə mübarizədəki qlobal liderliyini daha da artırır.

**Ole Rydahl Svensson** Danimarkadandır. COP29-da iştirak emək üçün ölkəmizə



gəlib. O, COP29-un dünya ölkələrinin nümayəndələrinin, eləcə də elm adamlarının, qeyri-hökumət təşkilatlarının və digər maraqlı tərəflərin iqlim dəyişikliyi mövzusunda fikir mübadiləsi apardıqları ən böyük beynəlxalq forumlardan biri olduğunu dedi:

– Bu konfrans möhtəşəm təşkil olunub. Dünya miqyasında artan iqlim böhranına qarşı yeni strategiyalar inkişaf etdirmək, karbon emissiyalarını azaltmaq və ekosistemlərin qorunmasına dair konkret tədbirlər görmək məqsədini güdür. Bu cür tədbirlər ölkələr arasında əməkdaşlıq və həmrəylik yaradır. Azərbaycan son illərdə bərpa olunan enerji sahəsində mühüm layihələr həyata keçirib və xüsusilə günəş enerjisi ilə bağlı yeni təşəbbüslər irəli sürüb. Bu, Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə sahəsindəki ciddi məqsədlərini və müasir enerjiyə olan marağını göstərir. Bu mənada Bakı, həmçinin, bir çox beynəlxalq təşkilatların və ekoloji təşəbbüslərin mərkəzlərindən birinə çevrilib. Şəhəriniz ekoloji və mədəniyyət turizmi ilə məşhurdur və bu, COP29-un keçirilməsi üçün əlavə bir üstünlük təşkil edir.

Dənizkənarı Bulvar, Ağ Şəhəri gəzmişəm. Qız Qalası, Dağüstü Park məndə xoş təəssürat yaratdı. Qarşıdakı 3 gün ərzində ümid edirəm ki, "küləklər şəhəri"ni başdan-başa gəzəcəyəm.

**Denis Krylov Rusiyadandır. O, COP29-un yalnız dövlət və mütəxəssislər üçün deyil, eyni zamanda turistlər üçün də unikal bir fürsət təqdim etdiyini bildirdi:**



– Bakı həm mədəniyyət, həm də müasir texnologiyanın və ekoloji irsin birləşdiyi bir şəhərdir. Paytaxtınızda qüsursuz memarlığı, möhtəşəm tarixi abidələri kəşf etməklə yanaşı, şəhərin ekoloji təşəbbüsləri haqqında da məlumat əldə etmişəm. Mən burada COP29 sayəsində beynəlxalq səviyyədə iqlim dəyişikliyi ilə mübarizə sahəsində atılan addımlara şahidlik etdim.

COP29-un Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq miqyasda davamlı inkişaf sahəsindəki öhdəliklərini bir daha təsdiq etdi. Azərbaycan COP29 vasitəsilə yalnız ekoloji tərəfdaşlıq və mübarizə sahəsindəki irəliləyişləri deyil, həm də yeni ideyalar, texnologiyalar və bərpa olunan enerji layihələri ilə bağlı qlobal müzakirələri öz mərkəzinə çevirəcək. Bir sözlə, COP29 bizə Azərbaycan xalqını, gözəl Bakını, bu şəhərin qonaqpərvər sakinlərini yaxından tanıdaraq sevdirdi.

*LeylaQ URBANOVA,*
*Vüsalə ƏLİYEVA,*
*Rizvan FİKRƏTOĞLU,*
*Cavid QAÇAYEV (foto)*
*XQ*

# Bakı Konfransı xarici mediada




**Dünyanın nüfuzlu media subyektləri əsas xəbər buraxılışlarında Bakıda öz işini davam etdirən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) müzakirə olunan məsələlərə, nümayəndələrin çıxışlarına geniş yer ayırırlar. Onlar bu beynəlxalq tədbirin önəmini qeyd etməklə yanaşı, ona evsahibliyi edən Azərbaycanın qlobal iqlim problemlərinin həll edilməsi üçün irəli sürdüyü təşəbbüslərin, birgə layihələrin faydalılığını da vurğulamağı unutmurlar.**

### "Hürriyət"

Türkiyənin aparıcı media orqanlarından olan "Hürriyet" qəzetinin yazdığına görə, Əminə Ərdoğan sosial media hesabında Azərbaycanın COP29 tədbirinə evsahibliyi etməsindən duyduğu məmnunluğu ifadə edib. O, konfransın iqlim dəyişikliyi ilə mübarizədə yeni bir mərhələnin başlanğıcı olacağını vurğulayıb. Türkiyənin birinci xanımı gənclərin ətraf mühitə göstərdikləri xüsusi diqqəti və fəallıqlarını yüksək qiymətləndirərək, onların iqlim böhranının həlli yollarında fəal iştirakının ümidverici olduğunu bildirib. Azərbaycanın bu prosesdəki uzaqgörən siyasətini alqışlayan Ə.Ərdoğan Bakının BMT-nin qlobal iqlim tədbirinə evsahibliyi etməsini beynəlxalq arenada mühüm bir addımı kimi dəyərləndirib.

Bundan başqa, Türkiyə ictimaiyyətində və sosial platformalarında Azərbaycanın COP29 konfransına qatqıları və məsuliyyətli mövqeyi geniş müzakirə mövzusudur. İqlim dəyişikliyi ilə mübarizədə Azərbaycanın təşəbbüsləri, qlobal səviyyədə dayanıqlı gələcək üçün yeni əməkdaşlıq təşəbbüslərinin və strateji tərəfdaşlıqların inkişafına zəmin yaratdığı vurğulanır.

### 1TV.GE

Gürcüstanın aparıcı informasiya portallarında Azərbaycanda keçirilən COP29 beynəlxalq iqlim konfransı, bu mötəbər tədbirdə iştirak etmək üçün Bakıya səfər edən Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Prezident İlham Əliyevlə görüşü barədə silsilə materiallar dərc edilib. Qeyd olunur ki, noyabrın 22-dək Bakı Olimpiya stadionunda davam edəcək BMT-nin COP29 konfransı Azərbaycanın indiyə qədər təşkil etdiyi ən nəhəng tədbirdir və regionda ilk dəfə məhz qonşu dövlətdə baş tutur.

Gürcüstanın İctimai televiziyasında (1tv.ge) yayımlanan materiallarda İrakli Kobaxidzenin Bakıda jurnalistlərə verdiyi müsahibə əsasında yayımlanan məlumatda deyilir: "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında iştirak edirik. Bu gün cənab İlham Əliyevlə görüşmək imkanım olduğu üçün şadam. Görüşdə Gürcüstan–Azərbaycan münasibətlərindən, strateji tərəfdaşlıqdan, iki qonşu ölkəni birləşdirən dostluq münasibətlərindən danışdıq. Bütün mövzularda olduqca mehriban və məhsuldar görüş keçirdik".

Həmçinin qeyd olunur ki, Gürcüstanın Baş naziri Dünya Liderlərinin Sammitinin açılış sessiyasında iştirak edib. Eyni zamanda, Baş nazirin COP29-un "dəyirmi masa" formatında müxtəlif mövzularda keçirilən panel müzakirələrində çıxış etdiyi vurğulanır.

### "ARABNEWS"

Səudiyyə Ərəbistanının "ARABNEWS" rəsmi xəbər saytında BMT-nin Bakıda keçirilən İqlim Sammitinə xüsusi yer verilib. Xəbərdə qeyd olunur ki, noyabrın 11-də Bakıda COP29-un açılış mərasimində çıxış edən COP28-in Prezidenti Sultan Ahmad Al-Jaber tədbirin təşkilinə və qonaqpərvərliyə görə Azərbaycana təşəkkürünü bildirib. O, COP28 dövründə ölkəsinin irəli sürdüyü təşəbbüslərdən danışıb və COP29-un da növbəti uğura imza atacağına əminliyini ifadə edib.

Sayt, həmçinin BMT İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29 sessiyasının Prezidenti seçilən Muxtar Babayevin çıxışından sitat verib: "Dünya artıq iqlim dəyişikliyinin mənfi təsirləri ilə üzləşir və bu çağırışlarla mübarizədə beynəlxalq əməkdaşlıq vacibdir. COP29-a sədrliyin əsas məqsədi böhranın miqyasını və aktuallığını dünyanın diqqətinə çatdırmaq üçün həm effektiv, həm də kifayət qədər ədalətli, iddialı və kollektiv iqlim maliyyəsi hədəfini razılaşdırmaqdır. Biz siyasi və maliyyə məhdudiyyətlərini başa düşürük".

"ARABNEWS"in hər gün yenilənən xəbərlərində COP29 çərçivəsində keçirilən görüşlərə, panel müzakirələrə geniş yer ayrılır.

### "Al Jazeera"

Qətərin "Al Jazeera" telekanalı və veb saytı xəbər verir ki, dünyanın 196 ölkəsindən nümayəndələrin qatıldığı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) əsas müzakirə mövzusu inkişaf etməkdə olan ölkələr üçün illik 100 milyard dollarlıq maliyyələşdirmə hədəfinin artırılmasıdır. "COP29 Azərbaycanda iqlimin maliyyələşdirilməsinə dair danışıqlar üçün açılır" sərlövhəsi ilə verilən materialda qeyd olunur ki, builki iqlim sammiti qlobal istiləşmənin təsirlərinin daha aydın hiss edildiyi və ekstremal hava hadisələrinin artdığı bir dövrdə keçirilir. İki həftə davam edəcək forumda ölkələrdən maliyyələşmə məsələsində yeni öhdəliklərin qəbul edilməsi gözlənilir.

Məşhur xəbər kanalı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stilin çıxışından bəzi məqamları nəzərə çatdırıb, bu kontekstdə qlobal əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Telekanalın digər reportajında deyilir ki, Azərbaycanın konfransa evsahibliyi etməsi, dünya liderlərinin qlobal iqlim maliyyələşdirilməsi üzrə daha ambisiyalı və təsirli tədbirlər görməsinə təkan verəcək bir platforma yaratmağa imkan verir. Ev sahibi olan dövlətin əsas vəzifəsi ölkələr arasında konsensus əldə edərək yeni qlobal maliyyə razılaşmalarının qəbul edilməsinə nail olmaqdır. COP29 dünya ölkələrini qlobal istiləşmənin təsirlərini azaltmaq və iqlim dəyişikliklərinə qarşı səmərəli tədbirlər görmək üçün bir araya gətirən əhəmiyyətli tədbir kimi qiymətləndirilir.

*Azər MUSTAFAYEV*

COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024

## Dostlarımızın, qardaşlarımızın qürur və sevinci

# Özbəkistan COP29-da fəal dəstəklə iştirak edir

**“BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı qlobal miqyasda iqlim dəyişikliyinə qarşı mübarizə tədbirlərinin planlaşdırıldığı və ölkələrin bu sahədəki mövqelərinin birləşdirildiyi beynəlxalq forumdur. Bu konfransda qəbul edilən qərarlar dünya iqtisadiyyatına, ekosistemlərinə və ümumilikdə, bəşəriyyətin təhlükəsiz gələcəyinə xidmət edir. Azərbaycan da bu prosesə öz töhfəsini verməklə, həm beynəlxalq əməkdaşlığı əlaqələndirir, həm də özünü bu sahədə lider kimi təqdim edir”.**

***Özbəkistanın Xərəzm Müəllimləri Təkmilləşdirmə Milli Mərkəzinin bölmə rəhbəri, professor Nəsibə Sabirova XQ ilə telefon bağlantısında bu açıqlamasını ölkələrimizin COP29 platformasında əməkdaşlığının önəmini vurğulamaqla davam etdirdi. Müsahibimiz qeyd etdi ki, Özbəkistanın Azərbaycanda keçirilən iqlim konfransında fəal iştirakı qlobal iqlim savaşında zəruri iştirakla yanaşı, dost ölkəyə verilən qartdaşlıq dəstəyini də ifadə edir:***

– Özbəkistan Prezidenti Şavkat Mirziyoyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Liderlər Sammitinin plenar iclasında bəyanatla çıxış etdi. Özbəkistanın rəhbəri öncə Azərbaycan Prezidenti İlham Əliyevi tarixi sammitin uğurla təşkil edilməsi münasibətilə təbrik etdi. O, müasir iqlim çağırışlarına qarşı mübarizədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində Azərbaycan tərəfinin fəal səylərinə dəstəyini bildirdi.

COP29-un Azərbaycanda keçirilməsi, ölkənin beynəlxalq aləmdəki mövqeyinin güclənməsinə, ekoloji siyasətinin inkişafına və qlobal iqlim dəyişikliyinə qarşı mübarizədəki rolunun artırılmasına səbəb olacaq. Azərbaycan COP29 liderliyi həm regionda, həm də dünyada iqlim dəyişikliyi ilə mübarizə sahəsində mühüm tərəfdaşlardan biri olduğunu dünyaya göstərir. Belə tədbirlərin Azərbaycan üçün gətirdiyi siyasi, iqtisadi və ekoloji faydalar ölkənin gələcək inkişafı üçün də əhəmiyyətli olacaq. COP29 həm də Azərbaycanın enerji keçidi və dayanıqlı iqtisadi inkişaf sahəsindəki tərəfdaşlıq imkanlarını daha da genişləndirir. Məsələn, Azərbaycanın təbii qaz və neft ehtiyatlarından istifadəsi ilə yanaşı, alternativ və bərpa olunan enerji mənbələrini inkişaf etdirməsi iqlim dəyişmələrinə qarşı mübarizədə atılan mühüm addımlardandır.

***– Türk dünyasının inteqrasiyasına COP29 hədəflərinin təsirini görürsünüzmü?***

– Türk dünyası iqtisadi, mədəni və siyasi sahələrdə bir-birinə yaxın olan ölkələrdən ibarət geosiyasi bir regiondur. Bu ölkələr arasında müvafiq əməkdaşlıq və inteqrasiya qlobal səviyyədə ətraf mühit məsələlərinə yanaşmada daha fəal bir mövqe ilə daha da güclənir. COP29 kimi beynəlxalq tədbirlər bu inteqrasiyanın gücləndirilməsində əhəmiyyətli rol oynayır. İqlim dəyişikliyi qlobal bir problem olduğu üçün Türk dövlətlərinin bu prosesdə birgə hərəkət etməsi onların kollektiv gücünü artırır və eyni zamanda, regionda qarşılaşılan ekoloji problemləri daha səmərəli həll etməyə imkan yaradar.

Türk dünyasının inteqrasiyası kontekstində BMT-nin İqlim Dəyişikliyi Konfransı kimi qlobal ekoloji və iqlim dəyişiklikləri məsələlərini müzakirə edən böyük beynəlxalq tədbirlərin rolu mühüm əhəmiyyət kəsb edir. Xüsusən də Türküstan, Qafqaz və Anadolunu əhatə edən türkdilli ölkələr zəngin təbii sərvətlərə, ekosistemlərə və rəngarəng iqlimə malikdir. Bu baxımdan, iqlim dəyişiklikləri ilə mübarizə və dayanıqlı inkişaf strategiyalarının hazırlanması bu regionun gələcəyi üçün önəmli rol oynayır.

***– Konfrans Azərbaycan–Özbəkistan əlaqələrinə hansı əlavə dividendlər qazandıracaq?***

– Azərbaycan və Özbəkistan arasında əlaqələrin inkişafı hər iki ölkənin siyasi, iqtisadi və mədəni sahələrdə bir-birinə yaxınlaşmasını təmin edən vacib bir məsələdir. Son illərdə iki ölkə arasında əlaqələrdə yeni mərhələ ciddi bir yüksəlişlə müşahidə olunur. Bu əlaqələrin genişlənməsi həm ikitərəfli, həm də regional səviyyədə bir çox müsbət nəticələr doğurur.

Əvvəla, hər iki ölkə regional və beynəlxalq səviyyədə möhkəm mövqe tutmağa çalışır və bu məqsədlə bir-birini dəstəkləyir. Özbəkistanın Prezidenti Şavkat Mirziyoyevin hakimiyyətə gəlməsindən sonra ölkənin xarici siyasətində açıq və çevik yanaşmaların tətbiq edilməsi ilə Azərbaycanla olan əlaqələr daha da inkişaf edib. Əlaqələrin siyasi tərəfi bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və daxili işlərinə müdaxilə etməmək prinsipinə əsaslanır. İki ölkə regional təhlükəsizlik məsələlərində də sıx əməkdaşlıq edir. Bu birgə səylər Türküstanda və Cənubi Qafqazda sabitliyin təmin edilməsinə yönəlib.

İkincisi, iqtisadi əlaqələr Azərbaycanın zəngin neft və qaz ehtiyatları ilə Özbəkistanın geniş kənd təsərrüfatı və sənaye potensialının qarşılıqlı – faydalı əlaqələndirilməsi üçün böyük imkanlar yaradır. İki ölkə arasında ticarət dövriyyəsi, o cümlədən məhsul və xidmət mübadiləsi artıb. Məsələn, Azərbaycanın neft və qaz sahəsindəki təcrübəsindən və texnologiyalardan Özbəkistanın enerji sektorunda istifadə olunur.

Eyni zamanda, Özbəkistan Azərbaycanın kənd təsərrüfatı məhsulları ilə maraqlanır, bu da iki ölkə arasında ticarətin inkişafına gətirib çıxarır. COP29 çərçivəsində noyabrın 14-də təşkil olunan “Daha yaxşı pambıq” konfransı zamanı Azərbaycan Tekstil Assosiasiyası ilə “Uztextilprom” Assosiasiyası arasında əməkdaşlıq üzrə anlaşma memorandumu imzalandı. Özbəkistan tekstil sektorunda zəngin ənənələri və geniş təcrübəsi ilə dünyanın aparıcı pambıq istehsalçılarından biridir. Azərbaycan Tekstil Assosiasiyası ilə bu tərəfdaşlıq hər iki ölkənin qlobal tekstil və pambıq bazarlarında iştirakını gücləndirmək üçün vacib bir addımdır.

Üçüncüsü, Azərbaycan və Özbəkistan arasında mədəni əlaqələr də güclənir. Tarixi və mədəni bağlılıqlar, hər iki xalqın öz aralarında dostluq və qarşılıqlı anlayış yaratmalarına şərait yaradır. Dil və ədəbiyyat sahəsində də əməkdaşlıq genişlənir. Özbəkistanın qədim şəhərləri (məsələn, Səmərqənd və Buxara) azərbaycanlı turistlər üçün maraqlı istiqamətlərdən biri olmaqla yanaşı, Azərbaycan mədəniyyətini ölkəmizdə tanıdan müxtəlif tədbirlər, eləcə də sərgilər və konsertlər bu əlaqələri möhkəmləndirir.



Nəhayət, təhsil sahəsində də əməkdaşlıq inkişaf edir. Bir çox azərbaycanlı tələbə Özbəkistan universitetlərində təhsil alır və əksinə, bizim gənc mütəxəssislər Azərbaycanda müxtəlif sahələrdə fəaliyyət göstərirlər. Belə əlaqələr iki xalqın bir-birini daha yaxşı tanımasına və dostluq əlaqələrinin möhkəmlənməsinə imkan yaradır. Ortaq irsimizi və müasir imkanlarımızı birləşdirərək beynəlxalq səviyyədə daha güclü və rəqabətqabiliyyətli bir mövqeyə nail ola bilərik.

O ki qaldı COP29-a, konfrans çərçivəsində özbək gənclərinin Səmərqənddə hazırladığı bəyanat 8 ölkədən olan gənclərin iştirakı ilə imzalanmaq üçün təqdim olundu. İqlim dəyişikliyi ilə mübarizə üçün gənclərin təşəbbüs və fəaliyyətlərinə böyük ehtiyac var. Gənclərin səsi eşidilməlidir, çünki onlar iqlim dəyişikliyinin nəticələri baxımından ən həssas kateqoriyadırlar. Ona görə ki, məsələn, 30 ildən sonra indiki liderlər olmayanda yeni liderlər onlar olacaq. Ona görə də gənclərin səsi çox önəmlidir. COP29-da bunun üçün hər cür şərait yaratdı. Bütövlükdə, Özbəkistan Bakı konfransında qardaşlıq dəstəyi ilə iştirak edir.

***– İkitərəfli əlaqələrimizin belə sürərli və sürəkli inkişafı, ortaq hədəflərimiz Türk birliyinin möhkəmlənməsi üçün də önəmlidir...***

– Azərbaycan və Özbəkistan arasında əlaqələrin inkişafı, yalnız ikitərəfli səviyyədə deyil, həm də regional və beynəlxalq səviyyələrdə uğurla davam edir. Bu əlaqələr siyasi, iqtisadi, mədəni və təhlükəsizlik sahələrində daha geniş əməkdaşlıq imkanları yaradır. Hər iki ölkənin beynəlxalq aləmdə daha güclü mövqe tutmasına və regionda sabitliyin təmin edilməsinə böyük töhfə verir.

Əsrlər boyu türk xalqları hər biri özünəməxsus dil və yazı sistemləri yaratsa da, son onilliklərdə biz hamımız mədəni irsimizin qorunub saxlanmasının və birliyə can atmağın vacibliyini dərk etmişik. Birliyimizin ən mühüm simvollarından biri ortaq türk əlifbasıdır. Bu məqsədlə, Türk Dövlətləri Təşkilatının çərçivəsində Vahid Əlifba üzrə Komissiya yaradıldı. 2023-cü ilin sentyabrında Bakıda Türk Akademiyasının nəzdində yaradılan komissiyanın əzmkarlığı sayəsində ortaq türk əlifbasının təklif olunan 34 hərfli variantı tamamlanıb və qəbul edilib.

Bu ortaq əlifba türk xalqlarının zəngin dil irsini qoruyub saxlamağa, qarşılıqlı anlaşmanı və əməkdaşlığı gücləndirməyə xidmət edəcək.

**– Qoy qardaşlığımız ölkələrimizi yeni uğurlara aparsın.**

# Azərbaycan – Qazaxıstan “yaşıl” əməkdaşlığı

**“Azərbaycan və Qazaxstan arasında ikitərəfli münasibətləri Qafqaz və Tütküstan regionları üzrə əməkdaşlıq daha da zənginləşdirir. Hər iki ölkənin rəhbərləri Mərkəzi Asiyada və Cənubi Qafqazda hərtərəfli inkişafı dəstəkləyir, sülh və sabitliyin qorunmasına çalışırlar. Qardaş ölkələrimiz beynəlxalq təşkilatlarda da bir-bininin mövqeyini fəal dəstəkləyir. Bugünlərdə Bakının evsahibliyi etdiyi COP29-da dövlətlərimiz bir yerdə olmağı bu çoxtərəfli tərəfdaşlığın növbəti parlaq təzahürüdür”.**

Bu barədə XQ-yə onlayn açıqlama verən Qazaxıstan Əl Fərabi Universitetinin dosenti Bakıtqul Kuljanova Bakı konfransın regional əməkdaşlıq və geosiyasi əhəmiyyətini vurğuladı:

– Dövlətlərimiz COP29 kimi qlobal ekoloji tədbirlərdə birgə iştirak etməklə, həm regional inteqrasiyasını möhkəmləndirir, həm də qlobal iqlim dəyişikliyi ilə mübarizəyə daha təsirli dəstək verir. Bu əməkdaşlıq yalnız Türk dünyasının ətraf mühit və ekosistemlərini qorumağa deyil, həm də ölkələrimizin beynəlxalq arenada ekoloji məsələlərə verdikləri önəmi nümayiş etdirmək üçün bir fürsətdir.

Gələcəkdə belə tədbirlər təkcə Azərbaycan və Qazaxstanın deyil, həm də Türk dövlətlərinin əməkdaşlığının və eyni zamanda, ətraf mühitin qorunmasında daha güclü bir iradə ortaya qoymalarına imkan yaradacaq. Azərbaycan və Qazaxıstan hər iki ölkə üçün strateji önəm kəsb edən regional təhlükəsizlik məsələlərində müştərək mövqedən çıxış edirlər, regional sabitlik üçün birgə addımlar atırlar.

**– COP29-un bu münasibətlərə töhfəsini nədə görürsünüz?**

– Türk dünyası ölkələrinin enerji istehsalı və sərvətlərin idarə edilməsi sahəsində əhəmiyyətli potensialı var. COP29 bu dövlətlərin də yaşıl iqtisadiyyatın inkişafı, bərpaolunan enerji mənbələrinin genişləndirilməsi və karbon emissiyalarının azaldılması kimi məsələlərdə birgə əməkdaşlığı üçün beynəlxalq platformadır. Burada Azərbaycan və Qazaxstanın fəal və önəmli mövqeyi diqqətçəkəndir.

Azərbaycan və Qazaxıstan enerji sahəsində zəngin təbii resursları olan ölkələrdir. Bu, onlara həm böyük bir iqtisadi potensial, həm də iqlim dəyişikliyinə qarşı mübarizədə mühüm rol oynamaq imkanı verir. Hər iki ölkənin karbon emissiyalarını azaldarkən hədəfi bərpa olunan enerji sahəsində irəliləyiş əldə etməkdir. Azərbaycan və Qazaxıstan, bu sahədə müsbət addımlar atmağı və regional əməkdaşlıq yolu ilə bu istiqamətdə irəliləyiş əldə etməyi hədəfləyirlər.

Azərbaycan neft və qaz sektorunun aparıcı olduğu iqtisadiyyatını diversifikasiya etmək üçün bir sıra yaşıl təşəbbüs irəli sürüb. Bu addımlar təbiətin qorunmasına, təmiz texnologiyaların tətbiqinə və enerji səmərəliyinin artırılmasına yönəlmişdir. Bərpaolunan enerji sahəsində, xüsusilə günəş və külək mənbəyindən istifadəni artırmaq yönündə ölkənizdə ciddi işlər aparılır. “Yaşıl iqtisadiyyat” və “yaşıl maliyyə” sahəsində beynəlxalq tərəfdaşlıqlara böyük önəm verilir.

Qazaxıstan da bərpaolunan enerji və yaşıl iqtisadiyyatın inkişafını əsas hədəf olaraq müəyyən edib. 2050-ci ilə qədər



Qazaxıstanın ümumi enerji istehsalında bərpaolunan gücün payını artırmaq niyyətindədir. Bu çərçivədə külək və günəş enerjisinin istifadəsinin genişləndirilməsi məqsədilə bir çox layihələr həyata keçirilir. Dövlət "yaşıl" infrastrukturun yaradılması və karbon azaldılması ilə bağlı siyasətlərini daha da gücləndirir.

**– Şübhəsiz, bu yaxınlarda qəbul edilmiş ortaq əlifba xalqıarımızın birgə hədəflər uğrunda səylərinə əlavə impuls verəcək, çoxtərəfli ünsiyyəti asanlaşdıracaq.**

– Türk xalqlarının bir-birilərinə yaxınlaşması ortaq tarix və mədəniyyətə dayaqlanan bir prosesdir. Ortaq türk əlifbasının yaradılması yalnız iki ölkə arasındakı əlaqələri inkişaf etdirmək deyil, eyni zamanda, bütün Türk dünyasının birliyininə yeni məna gətirən ortaqlıq timsalıdır.

Türk xalqlarının böyük bir qisminin istifadə etdiyi latın əlifbasına keçid daha bir toparlayıcı, yaxınlaşdırıcı amil olaraq çıxış etdi. Azərbaycan və Qazaxıstan Sovet İttifaqının dağılmasından sonra öz müstəqilliklərini bərpa edərək latın əlifbasına keçməyi qərarlaşdırdılar. Bu qərar türk xalqları arasında ortaq ünsiyyət imkanları və mədəni zənginləşmə üçün ümumi platforma yaratmaq məqsədi daşıyır.

Azərbaycan və Qazaxıstan ortaq türk əlifbasına yalnız dil məsələsində deyil, həm də ümumi mədəniyyət, tarix və inkişaf sahəsində əməkdaşlığı daha da möhkəmləndirməkdə hədəf və stimul kimi baxır. COP29 beynəlxalq əməkdaşlığı bu prosesə əlavə dəstək qazandıran yeni mərhələ açır. Azərbaycan – Qazaxıstan “yaşıl” əməkdaşlığı ölkələrimizi daha da yaxınlaşdırır.

**– Müsahibə üçün təşəkkür edirik.**

**Namiq QƏDİMOĞLU**
**XQ**

# Özbəkistanda Maqsud Şeyxzadəyə həsr olunmuş konfrans

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi Daşkənd Dövlət Nəqliyyat Universiteti ilə birgə böyük Azərbaycan şairi Maqsud Şeyxzadəyə həsr olunmuş “Maqsud Şeyxzadənin ədəbi yaradıcılığı və müasirlik” adlı beynəlxalq elmi konfrans keçirib.**

Universitetin Maqsud Şeyxzadə adına konfrans salonunda baş tutan tədbiri universitetin prorektoru Dilşad Baratov açaraq Maqsud Şeyxzadənin əsərlərinin gənc nəslin vətənpərvərlik, qəhrəmanlıq ruhunda yetişməsində böyük əhəmiyyətə malik olmasından söz açıb.

AMEA Tarix və Etnologiya İnstitutunun əməkdaşı Gülşən Kəngərli qardaş xalqlar arasındakı ədəbi-mədəni əlaqələrin möhkəmlənməsində Maqsud Şeyxzadə yaradıcılığının xüsusi rol oynadığını vurğulayıb. M.Şeyxzadə özbək xalqının qəhrəmanı Cəlaləddin Manguberdi, hökmdar Mirzə Uluğbəy kimi tarixi şəxsiyyətlərlə bağlı yaratdığı ölməz əsərlərlə özbək dramaturgiyasının əsasını qoyub. “Daşkəndnamə”, “Ağsaqqal” poemaları da oxucular tərəfindən rəğbətlə qarşılanıb. Daşkənddə yazıçının altı cildlik “Seçilmiş əsərləri” çap olunub.

Azərbaycan Mədəniyyət Mərkəzinin əməkdaşı Kərimulla Məmmədzadə, ABŞ Hofstra Universitetinin professoru Elyar Kərimov (onlayn), AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Almaz Ülvi (onlayn), Çinin Heyibey Universitetinin dosenti Jessi Liua, Kastamonu Universitetinin əməkdaşı dosent Murad Halmet (onlayn) Özbəkistan Milli Universitetinin dosenti Aybibi İsgəndərova və başqaları ədibin həyat və yaradıcılığından söz açıblar.

Sonra Maqsud Şeyxzadəyə həsr edilən sənədli film nümayiş olunub, tələbələrin iştirakı ilə onun əsərlərindən ibarət şeir kompozisiyası nümayiş etdirilib.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin Türküstan üzrə xüsusi müxbiri**



COP29 Baku Azerbaijan
COP29 Baku Azerbaijan NOVEMBER 11-22 2024
COP29 Baku Azerbaijan

# Beynəlxalq Muzeylər Şurasının rəhbərləri Bakıda



**Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində, Bakıda səfərdə olan Beynəlxalq Muzeylər Şurasının (ICOM) baş direktoru Medea Ekner və şuranın şöbə rəhbəri Kristian Soberq Azərbaycan Milli İncəsənət Muzeyini ziyarət ediblər.**

Muzeyin direktoru Şirin Məlikova qonaqlara ölkəmizin bu aparıcı mədəniyyət ocağının tarixi, milli və dünya incəsənətini əhatə edən zəngin kolleksiyası, müxtəlif auditoriyalar üçün nəzərdə tutulmuş mədəni və təhsil proqramları, digər fəaliyyət sahələri haqqında geniş məlumat verib. O, muzeyin müxtəlif beynəlxalq layihələrdə fəal iştirak etdiyini də nəzərə çatdırıb.

Sonra qonaqlar muzeyin Azərbaycan və dünya sənət incilərindən ibarət daimi ekspozisiyası, COP29 çərçivəsində açılmış "Səttar Bəhlulzadə – təbiətin ecazkar nağılı", "Vəcihə Səmədova –100 : Sənətkar ömrünün səhifələri" və Əməkdar rəssam Məmməd Mustafayevin "Gizli və aşkar" sərgiləri ilə yaxından tanış olublar. Ziyarət zamanı, həmçinin Beynəlxalq Muzeylər Şurası ilə Azərbaycan Milli İncəsənət Muzeyi arasında gələcək əməkdaşlıq və şuranın fəaliyyətində fəal iştiraka dair məsələlər müzakirə olunub.

Sonda Medea Ekner və Kristian Soberq muzeylə bağlı təəssüratlarını xatirə kitabına yazıb, səmimi duyğularını ifadə ediblər.

*XQ*



# COP29 şənlikləri

**Paytaxtın konsert salonlarında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) həsr olunmuş konsert keçirilib.**

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında konsert bədii rəhbər və baş dirijor, Azərbaycan Respublikasının Xalq artisti Fəxrəddin Kərimovun rəhbərlik etdiyi Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin müşayiəti ilə baş tutub. Solistlər Səid Məmmədov (skripka) və İrina Mehdiyeva (piano) olublar.

Konsert proqramına klassik musiqi şedevrləri və müasir musiqi ənənələrini ahəngdar şəkildə birləşdirən əsərlər – Cakomo Puççininin, Vaqif Mustafazadənin Antonio Vivaldinin, Robert Fuksın musiqiləri daxil edilib.

Beynəlxalq Muğam Mərkəzində isə Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestrinin (bədii rəhbər və baş dirijor Mustafa Aşurov) Milli Dirçəliş Günü münasibətilə konsert proqramı təqdim edilib.

COP29-a həsr olunmuş konsertlər çərçivəsində təqdim edilən proqramda Xalq artisti Gülnaz İsmayılova, beynəlxalq və respublika müsabiqələri laureatları Rəvanə Qurbanova, Günay İmamverdiyeva, Zabitə Əliyeva, Orxan Hüseynli, Seymur Həsənsoy, Anar Yusub, Rəvan Qaçayevin ifaları tamaşaçılar alqışlarla qarşılayıblar.

Konsertdə Fikrət Əmirov, Hacı Xanməmmədov, Oqtay Kazımi, Aşqin Əlizadə, Süleyman Ələsgərov, Səid Rüstəmov, Vasif Adıgözəlov, Xan Şuşinski, Ələkbər Tağıyev və dünya bəstəkarlarının əsərləri səsləndirilib.

***Ə.ƏLİYEV***
***XQ***

**Yeni kitablar**

# Azərbaycançılığın nəzəri-estetik qaynaqları

**Azərbaycançılıq təlimi XX əsrin əvvəllərindən milli ideologiyanın tərkib hissəsi kimi diqqət mərkəzinə çəkilib. Hələ siyasi təfəkkürün cəmiyyətin bütün zümrələrində dərk edilmədiyi bir zamanda bu ideologiyanın formalaşmasında mətbuat öncül mövqe tutub.**

Filologiya elmləri doktoru, professor Allahverdi Məmmədlinin yenicə çap olunmuş "Azərbaycançılıq mollanəsrəddinçilərin milli ideya kontekstində" (Bakı, Şərq-Qərb, 2024, 316 s.) adlı monorafiyasında göstərildiyi kimi, hətta satirik mətbuatın hədəfləri içərisində də milli özünüdərk problemi, milli kimlik, azərbaycançılıq təlimi ən əsas məsələlərdən idi. Bu cəhətdən "Molla Nəsrəddin" jurnalı və onun ətrafında toplaşan müəlliflərin yaradıcılığı azərbaycançılıq ideologiyasını və milli düşüncə stereotiplərini formalaşdırırdı. Bildiyimiz kimi, "Molla Nəsrəddin" jurnalı və mollanəsrəddinçilərin yaradıcılığı ətraflı tədqiq edilsə də, məhz azərbaycançılıq ideyası konseptual şəkildə araşdırılmamışdı. Bu mənada, monoqrafiya bir çox cəhətdən əhəmiyyətlidir.




Allahverdi Məmmədli "Azərbaycançılıq və mollanəsrəddinçilik" təlimini nəzəri istiqamətdə – azərbaycançılığın əsas prinsipləri, ictimai və elmi-ədəbi fikirdə təzahürü kontekstində tədqiq edir. Azərbaycançılığın ictimai-siyasi, ədəbi-mədəni əsaslarını təşkil edən faktorlar var ki, bunlar içərisində milli şüurun oyanması, milli kimlik problemləri, vətən, millət, Azərbaycan dili anlayışları mühüm yer tutur. Bu dəyərlərin azərbaycançılığın əsasını təşkil etməsində satirik publisistikanın da rolu böyükdür. Müəllif çox doğru olaraq azərbaycançılığın əsas prinsiplərini müəyyənləşdirərkən bu amillər üzərində dayanır və onun milli təlim kimi formalaşmasında "Molla Nəsrəddin" və mollanəsrəddinçilərin rolunu aydınlaşdırır. Tədqiqatçı belə bir qənaətində haqlıdır ki, "Mollanəsrəddinçilər ətrafına toplaşdıqları satirik jurnalda bir çox istiqamətdən bu məsələləri – milli özünüdərki, milli özünəqayıdışı önə çəkir və bütövlükdə, kiçik insanı böyük amal uğrunda mübarizəyə hazırlayırdılar. Bu məktəbin nümayəndələri azərbaycançılığın ifadəsində yaradıcılığın, ədəbi-bədii sənətin bütün növlərindən istifadə edirdilər".

Tədqiqatçı M.F.Axundzadə, Q.Zakir, S.Ə.Şirvani, H.Zərdabi, Ünsizadə qardaşları və başqalarının yaradıcılığında ilkin ideya olaraq təşəkkül tapan azərbaycançılıq ideyasının XX yüzilin əvvəllərində məhz satirik publisistika sayəsində yeni bir mərhələyə daxil olmasını faktlarla əsaslandırır. "Mollanəsrəddinçilik təlimi" yarımfəslində sözügedən ədəbi məktəbin azərbaycançılıq ideyasının formalaşmasındakı mövqeyini düzgün müəyyənləşdirir və onun milli-lideoloji konsepsiya səviyyəsinə yüksəlməsinə nəzər yetirir. "Molla Nəsrəddin" ədəbi məktəbi və azərbaycançılığın yeni mərhələsi" fəsli də problematikanın qoyuluşu baxımından yenidir. Dörd bölümdən ibarət olan bu fəsildə Molla Nəsrəddin ədəbi məktəbinin prinsipləri, estetik idealın yaxınlığı, əsas xüsusiyyətləri, nəşri yolları kimi məsələlər araşdırılır. Tədqiqatçı diqqəti "Molla Nəsrəddin"in prosesi formalaşdıran, ona böyük təsir göstərən və funksionallığını artıran ədəbi məktəb olmasına yönəldir.

Şübhəsiz, "Molla Nəsrəddin" və mollanəsrəddinçilərin azərbaycançılıq ideyası uğrunda apardığı mübarizənin əsasında ana dili problemi dayanırdı. İlk saylarından "açıq türk dilində" yazmağı əsas amalı hesab edən jurnal axıradək bu mövqeyinə sadiq qalaraq dilin təmizlənməsi, formalaşması və inkişafı yolunda mübarizəsini davam etdirdi. Tədqiqatçı çox doğru olaraq, mollanəsrəddinçilərin ana dili ilə bağlı mübarizəsini azərbaycançılığın təməl prinsiplərindən biri hesab edir. Jurnalın yayılma arealının genişliyi, mövzu, problematika zənginliyi, milli özünüdərkin rolu azərbaycançılıq idealını zənginləşdirən amillərdəndir.

Müəllif istər Tiflisdə, istər Təbrizdə, istərsə də Bakıda nəşr olunarkən "Molla Nəsrəddin"in azərbaycançılıq ideyasına sadiq qaldığını göstərir. Yaxşı haldır ki, tədqiqatçı azərbaycançılığın keçdiyi mərhələləri də müəyyənləşdirməyə çalışır və onu milli ideya axtarışları yolunda atılmış yeni bir mərhələ kimi dəyərləndirir.

Azərbaycançılığın mollanəsrəddinçilərin fəaliyyəti kontekstində araşdırılması həm də bu ədəbi məktəbin bir ideya (müstəqillik) ətrafında çalışdığını göstərir. Tədqiqatçı onların yaradıcılığına da nəzər yetirir və ayrılıqda hər birinin azərbaycançılıq xəttini təhlil edir. C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.S.Ordubadi, Ü.Hacıbəyli, Ə.Haqverdiyev, M.Ə.Sabir və başqalarının yaradıcılığında üslub, mövzu, problematika yaxınlığı olduğu kimi, ideya yaxınlığı da mövcud idi. Bu cəhətə diqqət verilməsi tədqiqatın məzmununu daha da artırmış olur. C.Məmmədquluzadənin "Azərbaycan" məqaləsinin azərbaycançılıq ideyasının yeni mərhələdə proqramı kimi təhlil edilməsi tamamilə doğrudur. Məqalədə yalnız Azərbaycanın tarixi və coğrafi ərazisi müəyyənləşdirilmir, həm də azərbaycançılıq ideologiyasının xəritəsi çəkilir.

Monoqrafiyanın "Mollanəsrəddinçi şairlərin yaradıcılığında azərbaycançılıq" fəslində M.Ə.Sabir, Ə.Nəzmi, Ə.Qəmküsar, M.Möcüz, B.Abbaszadə, Ə.Razi Şamçızadə və başqa satirik şairlərin yaradıcılığında azərbaycançılıq ideyası izlənilir. Bu fəsildə Mirzə Məhəmməd Hatif Axundov, Məşədi Həbib Zeynalov, Mirzə Cabbar Əsgərzadə, Əli Məhzun Rəhimov, Məmmədəli Nasir, Hacı Məhəmmədzadə və başqa şairlərin və felyetonçuların yaradıcılığı da ilk dəfə olaraq tədqiqata cəlb edilir. Tədqiqatda karikatura ustalarına yer verilməsi problemin tam olaraq araşdırılmasına geniş imkanlar yaradır. Oskar Şmerlinq, İozef Rotter, Əzim Əzimzadə, Xəlil Musayev, İsmayıl Axundov, Hüseyn Əliyev, Əli Behzad, Mirzə Məmmədəli Nəqqaş və başqa rəssamların karikaturalarında problemin tədqiqi azərbaycançılıq ideyasının "Molla Nəsrəddin"də bütün janrlar üzrə ifadəsini tapmışdır. Jurnalın 25 il ərzində dərc etdirdiyi karikaturalar xalqın milli mübarizəsinin və azərbaycançılıq ideyasının daha aydın şəkildə göstərir.

Tədqiqatçı A.Məmmədli azərbaycançılıq ideyasının keçdiyi mərhələləri araşdırarkən onun ədəbi-ictimai fikir sistemindəki yerini, mövqeyini də müəyyənləşdirməyə nail olur. Məhz bu ideyanın yayılması, nəzəri və praktik cəhətdən öz həllini tapması zəminində Azərbaycanda maarifçilik, tənqidi realizm, romantizm hərəkatının gücləndiyi və yeni tarixi şəraitdə millətin yeganə ideyası kimi formalaşmasına imkan verir. Hətta müstəqilliyə gedən yolda azərbaycançılıq ideyasının milli hərəkat və milli özünüdərk prosesinin hərəkətverici qüvvəsi olması ilə bağlı araşdırmalar faktlarla əsaslandırılır.

Ümumiyyətlə, filologiya elmləri doktoru, professor Allahverdi Məmmədlinin "Azərbaycançılıq mollanəsrəddinçilərin milli ideya kontekstində" monoqrafiyası yalnız ədəbiyyatşünaslıq deyil, həm də milli ideologiyamız və bədii-estetik dəyərlərimiz üçün də dəyərli nəticələr müəyyənləşdirir. Azərbaycançılıq ideyasının yaranması, təşəkkülü və təzahür formaları ilə bağlı zəngin faktlardan, nümunələrdən istifadə edilmiş əsər çağdaş elmi düşüncə və nəzəri-estetik qaynaqlar baxımından da olduqca əhəmiyyətlidir.

***Bədirxan ƏHMƏDLİ,***
***filologiya elmləri doktoru, professor***

# "Ulduzlar"da ədəbi görüş

**Xaçmazda 64 ildən bəri fəaliyyət göstərən "Ulduzlar" ədəbi məclisi 30 ilə yaxındır ki, dərnəyin ilk yaradıcısı olmuş şair Murad Qudyalçaylının adını daşıyır. Qələm sahibləri məclisdə vaxtaşırı toplaşır, kitab təqdimatları, şeir və hekayə müzakirələri keçirirlər.**



Məclisin növbəti toplantısında birliyin hazırkı sədri Fərzalı Ziyanur noyabr ayının milli bayramlarla zəngin olduğunu vurğulayaraq qeyd edib ki, 8 Noyabr Zəfər Günü, 9 Noyabr Dövlət Bayrağı Günü, 12 Noyabr Konstitusiya Günü və 17 Noyabr Milli Dirçəliş Günü bu məhz ayın payına düşür. Sonra toplantı Tahir Həsənlinin "Xaltanlı Tağı" kitabının təqdimatı ilə davam edib. Öz əsəri barədə danışan müəllif bildirib ki, Qubanın Xaltan kəndində yaşamış Tağı XIX əsr Azərbaycan aşıq sənətinin dəyərli simalarından olub. O, Şirvan aşıq məktəbinin qurucularından sayılan Xaltanlı Tağının müxəmməs və qəzəllərinin, "Quran"la bağlı deyişmə və qıfılbəndlərinin bədii xüsusiyyətlərindən danışıb, aşığın yaradıcılığının yetərincə öyrənilmədiyini, kitabın bu boşluğu doldurmaq üçün bir cəhd olduğunu deyib və əsərin nüsxələrini məclis üzvlərinə hədiyyə edib.

Daha sonra "Ulduzlar" ədəbi məclisinin üzvləri – Mehparə Sadıqova, Rübabə Mustafa, Zərnişan, Pakizə Zal, Gülümbala Nəsirli, Qərib Aşkarı, Firudin Həvəskar, Səxavət Ənvəroğlu, İbrahim Ağçaylı, Mövlan Şahid yeni şeirlərini oxudular. Azər Həsrət isə Neft Daşlarında çalışan istedadlı şair Aqşin Dadaşoğlunun yaradıcılıq məziyyətlərindən danışıb və onun bir neçə şeirini səsləndirib.

Məclisdə təqdim olunan bədii nümunələr ətraflı təhlil edilib.

*XQ*

# Tbilisidə Kəlağayı Festivalı

**Gürcüstan paytaxtındakı M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində "Sazlı-sözlü kəlağayı günləri" adlı festival keçirilib.**



Tədbirin təşkilatçıları kəlağayının tarixi, milli mədəniyyətimin təbliğindəki rolu və dünyada ona olan marağın artması barədə məlumat veriblər. Rustavi şəhər 18 nömrəli məktəbin şagirdlərinin ifa etdikləri milli rəqsləri, kəlağayı haqqında söylədikləri şeirləri tamaşaçılar alqışlarla qarşılayıblar.

Layihə çərçivəsində "Kəlağayı yaşıl dünyaya töhfədir" adlı sərgi də nümayiş olunub. Yaşı əsrlərə söykənən qədim kəlağayılarla yanaşı, Şəki və İsmayıllının Basqal qəsəbəsinin istehsalı olan müasir kəlağayılar, eləcə də "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin sədri Güllü Eldar Tomarlının əl işləri sərgidə nümayiş etdirilib.

Muzeyin eksponatları arasında həmçinin üzərində Mirvarid Dilbazi, Pənahəli xan, Aşıq Ələsgər, Üzeyir Hacıbəyli, Xan qızı Natəvan, Qasım bəy Zakirin portretlərinin həkk olunduğu kəlağayılar yer alıb. Vətən Müharibəsi şəhidi Orxan Məhərrəmovun bacısı Nuray Nəbiyevaya Mirvarid Dilbazi Poeziya Məclisi tərəfindən qırmızı rəngli Basqal kəlağayısı hədiyyə olunub.

Xatırladaq ki, Azərbaycan kəlağayısı 2014-cü ildə UNESCO-nun Bəşəriyyətin qeyri maddi mədəni irsi üzrə Reprezentativ Siyahısına daxil edilib.

***Fidan SALMANOVA***
***XQ***

# Çoban, salamat qal, dağ, salamat qal...

## *Goranboyda “Qışlaqda bir gün” şənliyindən fotoreportaj*



**Gözəl, yaddaqalan, hamının ürəyindən xəbər verən bir tədbir idi...**

Etiraf edək, biz bəzən elə peşə sahiblərini unuduruq ki, halbuki hər addımda onların əlinin zəhmətini hiss edirik, bişirdiyi çörəyin dadı damağımızdan getmir, pendirin yaxşısını fətirin arasına qoyub yeməyi xoşlayırıq, qaymağı bala qatırıq, göy kətəsinini sevirik, amma o adamları tanımırıq, üzlərini bir dəfə də olsun görməmişik, salam verməmişik. Hələ çoban yeməkləri olan qovurma, xaşıl, südlü aş, əvəlik supu, yaymanı demirəm. Çoxumuz hələ də kirkirə ilə un hazırlanmasını, yundan ip düzəldilməsini, arı yeşiklərini, cəhrə əyirmə və xalça toxunması, uşaqyürgəyi-nənni, at nalının və at yəhərinin hazırlanmasını heç vaxt görməmişik.

Amma... Bu şənbə Goranboy Rayon İcra Hakimiyyəti Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin rayon nümayəndəliyi ilə birlikdə hazırladığı tədbirlə bunların hamısını əyani şəkildə göstərdi...

Səhər saat 10-dur. Minlərlə Goranboy sakini və qonaqlar rayonun Yeniyol deyilən ərazisinə gəlib, “Qışlaqda bir gün” tədbirinə toplaşıb. Bura daimi qışlaq sahəsidir. Daha dəqiq desək, qışlaqda fəaliyyət



göstərən heyvandarlıq təsərrüfatındayıq.

Burada kənd təsərrüfatı sərgisi, milli kulinariya nümunələri, o cümlədən, südün bişirilməsi və süd məhsulları, motal, pendir, qatıq, süzmə, şor, kəsmik, qaymaq, xama, çiyə, atlama, nəhrənin çalxalanması-yağın alınması, təndirin çörəyi, kətə və yuxanın bişirilməsi, müxtəlif növ dağ çiçəkləri, bal, mürəbbələr və meyvə şirələri, hətta fermada saxlanılan heyvanlar və atlar nümayiş etdirilir, onların yarışı keçirilir.

Gəncə Dövlət Filarmoniyasının və rayon mədəniyyət evlərinin incəsənət ustalarının ifalarında musiqilər səslənir. Yarışa qoşulan atların kişnərtisi, cəngi sədaları altında qol götürüb oynayanların, yallı gedənlərin səsinə qarışır...

Budur, çomağına söykənib qarşılarındakı qoyun-quzu sürülərinə qayğı, həvəslə tamaşa edən, başına ağappaq saçaqlı quzu dərisindən papaq qoymuş iki çobanla həmsöhbət oluruq. Biri yaşlıdır, digəri cavan. Sir-sifətlərində dağın havasınun gətirdiyi al-qırmızı, qəribə bir xoş rəng var. Bir-birlərinə baxıb gülümsəyirlər. Hiss olunur ki,



adamların onları yada saldıqlarından, qışlağa qonaq gəldiklərindən, hal-əhval tutduqlarından çox razıdırlar.

Cavan çoban deyir ki, insanlardan daha çox qoyun-quzu ilə təmasda oluruq. Onların yerişindən də hiss edirik ki, vəziyyəti necədir, ağrımır ki, bu dəfə nə qədər süd verəcək, neçə bala doğacaq...

– İlin 8-9 ayını biz buralarda keçiririk, – deyə yaşlı çoban sanki cavan çobanın sözlərinə qüvvət verir, onu da bilməsək, biz nə çobanıq? Qışlaqda geniş örüşlərdə heyvanların otarılması qaydasına xüsusi fikir veririk. Əvvəlcə yataqlardan xeyli aralı yerlər qaydaya salınır ki, qış boyu heyvanların otarılmasına imkan olsun, qışda heyvan örüşsüz qalmasın. Sürülər yataq damlarından xeyli aralıda yerləşən otlaqlarda otarılır...

Çobanlardan ayrılıb öz əl işlərini, hazırladıqları məhsulları nümayiş etdirənlərə yaxınlaşırıq. Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev bütün pavilyonların qarşısında dayanır, nemətlərdən dadır, xoş sözlər deyir...

–Bilirsiniz, bu yerlər uzun illər belə qələbəlik, çal-çağır görməyib. Goranboy, o cümlədən bu Yeniyol kəndi 4 il qabağa kimi, necə deyərlər, başını belə qaldıra bimirdi, kəndə mərmilər yağdırılırdı, örüş sahələri müntəzəm atəşə tutulurdu... Biz buna görə Prezidentimizə, Ali Baş Komandanımıza – cənab İlham Əliyevə, ordumuza hədsiz minnətdarıq ki, bu günləri bizə qismət elədi. Belə tədbirləri hər il keçirmək niyyətindəyik. Hətta turizm marşrutlarına qışlaqları əlavə etmək fikrimiz var. Qoy xarici qonaqlar xalqımızın adət-ənənələrini görsün, öyrənsin, nemətlərimizlə tanış olsun...

Məhərrəm müəllim bu sözləri söyləyib göyə baxdı, qara buludları göstərib “yağmasa yaxşıdır”, – dedi. Hardasa lap yaxında bir aşığın səsi gəldi:

**Dağların pələngi, şiri də sənsən,**
**Şairi də sənsən, şeiri də sənsən.**
**Varı, bərəkəti, xeyri də sənsən,**
**Çoban, salamat qal, dağ, salamat qal.**

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***

**Goranboy**

---

**Kövrək xatirələr**

# Domino döyüşlərimiz

## *Baş rollarda: “idmançılar”, “müəllimlər”, “ədəbiyyatçılar”*

**Əvvəllər “Azərbaycan bədən tərbiyəçisi” – “Fiskulturnik Azerbaydjana”, 1968-ci ildən isə “İdman” – “Sport” adlanan qəzetlərin 80 illik yubileyi münasibətilə 2012-ci ilin baharında onun keçdiyi yol, nüfuzlu əməkdaşların idmanımızın təbliği və daha da inkişafı naminə gördükləri böyük işlər barədə həmin qəzetin səhifələrində bir neçə məqalə ilə çıxış etmişdim. Bu qəbildən sonuncu yazımı “Əgər uzun-uzadı xatirə qeydlərim sizi yordusa, onları domino məşğələlərimiz haqqında söhbətlə yekunlaşdırım” sözləri ilə bitirmişdim. İndi həmin yazını ixtisar və əlavələrlə “Xalq qəzeti” oxucularının diqqətinə çatdırıram.**

“İdman”–“Sport” “Azərbaycan” nəşriyyatının 9-cu mərtəbəsində “Azərbaycan müəllimi”, “Ədəbiyyat və İncəsənət” qəzetlərinin redaksiyaları ilə mehriban qonşuluq şəraitində yaşayıb-yaradırdı. Amma nahar fasiləsində və işdən sonra bizim redaksiyaya məxsus 330-cu otaqda əks-sədası təkcə aşağı mərtəbələrə yox, mübaliğə olmasın, bəlkə lap Dominikan Respublikasına gedib çatan domino yarışı başlayanda bu mehribanlıqdan əsər-əlamət qalmırdı. Bunu isə başa düşmək çətin deyildi. Cütlüklərdən heç kim uduzmaq istəmirdi, məğlub tərəfə həmin “seans” zamanı bir daha masa arxasında əyləşmək növbəsi çatmayacaqdı. Oynamaq istəyənlər həddən çox idi. Domino döyüşlərinin iştirakçıları təkcə “idmançılar”, “müəllimlər” və “ədəbiyyatçılar” deyildilər. Aşağı mərtəbələrdəki redaksiyalardan, “Azərbaycan kommunisti” jurnalından, “Vışka”dan , “Pioner”dən, “Azərbaycan gəncləri”ndən, “Molodyojka”dan, hətta nəşriyyatın elanlar şöbəsindən, mətbəədən də qonaqlarımız az olmurdu. Görüşlər nə qədər gərgin keçsə, uduzanlar nə qədər pərt olsalar da, oyun başa çatdıqdan sonra bayaqdan bir-birinə aman verməyi ağıllarına belə gətirməyən dost-rəqiblər qələbə və məğlubiyyətlərini qızğın müzakirə edir, sonra da mehribancasına sabahadək bir-birindən ayrılırdılar. Onların hər birinin domino ustalığı barədə danışmaq çox vaxt aparar. Təkcə özümüzünkülər – “İdman”ın əməkdaşları barədə danışım.

Baş redaktor Mirpaşa Miriyev nadir hallarda bizə qoşulardı. Amma, hər halda, hərdən maraq özünü göstərirdi. Bu zaman sakitcə “Dayanın, bir mən də oynayım” deyirdi. Oynayıb, əlindəki sonuncu daşla qələbə “topunu vurduqda” isə, bizlərdən fərqli olaraq, sevincini çox da büruzə vermirdi. Yalnız əlini başına aparıb, dümağ saçlarını yüngülcə “darayırdı”, üzünə isə xəfif bir təbəssüm gəlirdi.

Bu sonuncu sətirləri yazdım və 2005-ci ilin yayı yadıma düşdü. Əməkdar jurnalist, Prezident təqaüdçüsü M.P.Miriyevin 85 yaşının tamam olması münasibətilə həmin il iyunun 24-də artıq əməkdaşı olduğum “Xalq qəzeti”ndə kifayət qədər geniş həcmdə “Rekordçu redaktor” sərlövhəli bir yazı dərc etdirdim. Bu yazı Azərbaycanda idman mətbuatının ən parlaq simalarından biri Aqşin Kazımzadə ilə birgə təşəbbüsümüzün bəhrəsi idi, yubilyar üçün sürpriz olmalı idi.

Ertəsi gün Mirpaşa müəllim (indi o, “Neftçi” İdman-Sağlamlıq Mərkəzi sədrinin müavini idi) mənə zəng edib, “Sən nə eləmisən, o nədir yazmısan, bir vərəq də bəs edərdi, sən isə götürüb o boyda yazı vermisən” dedi. Unudulmaz redaktorumun bu hərəkəti əsl sadəlik və təvazökarlıq nümunəsi idi.

Qayıdaq dominoya. Baş redaktor müavini Aqşin Kazımzadə əlində bir vaqon daş olsa da, özünün “gəldi, bağla” prinsipindən heç vaxt geri çəkilmir və təbii ki, bəzən bundan zərər çəkirdi. Boks üzrə SSRİ idman ustası Paşa Əmirov tez-tez partnyoruna “Çox fikirləşmə, tərəddüd etsən, səhv oynayacaqsan” deyər və öz iradında əsasən haqlı çıxardı. Elman Çəfərli “hettrik” etmək üçün həftələrlə, aylarla imkan gözləyər (dominoçular yaxşı bilirlər ki, iki nəfərin iki nəfərə qarşı oynadığı görüşlərdə birdən-birə üç daşı yerə çırpıb, qalib gəlmək fürsəti heç də hər an ələ düşmür) və nəhayət, bu məqsədə çatdıqda, şəstlə üzünü jurnalistikada böyük ustad saydığı, dominoda isə həmişə özünə rəqib görmək



istədiyi Aqşin müəllimə tutub deyərdi: “Gördün, lələ, necə oynadım”…

“İdman”ın “Şahmat” əlavəsinin redaktoru, professor Azər Zeynallı Bakı Dövlət Universitetində gərgin elmi fəaliyyəti ilə bağlı gündüz “dərsləri”nə gələ bilməsə də, axşam “məşğələləri”nə özünü hökmən çatdırar, dərhal da portfelindən bir qutu “Marlboro” çıxarıb masanın üstünə qoyar və “Çəkin, uşaqlar” deyərdi. Uşaqlara da elə bu lazım idi.

Daha kimlər? Arif Şəfizadə çox düşünməz, dəqiq gedişlər edər, əli gətirəndə hədsiz sevinc keçirərdi. Anatoli Şilyayev Vladlen Busalayev və Vladimir Boqomolova qarşı oynadığı şahmat görüşlərindəki kimi, domino meydanında da hər şeyi yüz ölçüb, bir biçirdi. Fərhad Abdullayev çox güclü əli ilə sonuncu daşını zərblə masaya çırpanda sanki ildırım çaxırdı, özü isə sakitcə başını qaldırıb ətrafa boylanır, bu zaman həm də razı halda bığaltı gülümsəyirdi. Vladimir Koqanov yadımda ehtiyatlı oyun taktikası tərəfdarı kimi qalıb. Valeri Klokovun variantları hesablamaq bacarığına söz ola bilməzdi. Nəhayət, Telman Fərəcov, Zahir Zahirov, Namiq Əzizov, Raqif Sədrəddinov, Faiq və Qulu Əliyevlər, Firudin Əhmədov, Aleksandr Kompanetski və Əbdül Xəlilovun da öz oyun dəst-xətləri var idi.

Bir halda ki, dominolu günlərimizi xatırladıq, həmin döyüşlərin yadımda qalan bəzi digər iştirakçılarının da adlarını çəkim. “Müəllimlərdən” redaktor Şahin Səfərov, onun müavini Məhyəddin müəllim, məsul katib Vaqif Səmədov, fotomüxbir Əli Qafarov, “ədəbiyyatçılardan” Sabir Məmmədov, Vidadi (deyəsən, o da Məmmədov idi), Qafar Namazəliyev, baş mühasib, səhv etmirəmsə, Mürvət müəllim, nəşriyyatın elanlar şöbəsindən Asif Babazadə hər gün saat 13-ü və iş vaxtının sonunu səbrsizliklə gözləyirdilər. Hörmətli həmkarlarım, dominoçu dostlarım – hamımız sanki vahid bir komanda idik.

Fotomüxbirimiz Gennadi Malyov dominoda bizə qoşulmazdı, əvəzində, stolüstü tennisdə tayı-bərabəri yox idi. Daim redaksiya çempionatlarında mükafatçılar sırasında olardı. Bugünkü yazımızı müşayiət edən fotonu 80-ci illərin günəşli aprel günlərindən birində Elman müəllimin Bakıxanov qəsəbəsindəki evinin bağçasında lentə almışdı. Sonralar E.Cəfərli (şəkildə solda) bizdən birbaşa AZƏRTAC-ın baş direktorunun müavini vəzifəsinə yüksəldi, Aqşin Kazımzadə (ortada) isə 93-cü ildə “İdman”dakı baş redaktor vəzifəsini Trend İnformasiya Agentliyində baş redaktorluğa dəyişdi.

Bir qədər sonra tale məni də fasiləsiz 27 il əməkdaşı olduğum “İdman”dan ayırıb, yenicə fəaliyyətə başlayan “Kommunist”in davamçısı “Xalq qəzeti”nə gətirdi. 1995-ci ilin, indiki kimi, noyabr ayı idi. İyirmi üç il də Xalqın qəzetində çalışıb, Azərbaycan idman jurnalistikasında 1968-ci ildən bəri ümumi 50 illik bir yol keçdim…

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

SÖZÜN ÖLMƏZLİYİ

# "Dedilər, yazığın bağrı çatladı..."

**Bu günlərdə həyata vaxtsız əlvida demiş gənc və istedadlı şair Rauf Qədimovun yazdıqları və haqqında yazılanlar bu itkiyə görə acı təəssüf hissləri keçirməyimizə səbəb oldu. Onun həm ənənəyə söykənən, həm də modern üslubda ifadə olunan duyğu və düşüncələri bənzərsizliyi ilə seçilirdi.**



*Heç özüm də bilmədim,*
*mən sənə gecikməyə,*
*harda, necə tələsdim?*

Rauf qeydlərinin birində demişdi: "Fikirlərin kökü yoxdursa, tarix silahında boşa açılan güllə kimi unudulur". Onun fikirləri həmişə dolğun olub.

Gözəl şeirlərini oxuyan dostları təxəllüs seçimində ona kömək edərək: – Sən Azərbaycan ədəbiyyatının yeni günəşisən, imzan "Rauf Ra" (Ra – Günəş tanrısı deməkdir) olsun, – demişdilər ona. Sonra Rauf Ra "yarpaq.az" saytında yazılar verməyə başladı, təəssüf ki, özü də bir payız günü (amma ömrünün bahar fəslində) yarpaq kimi həyat ağacından qopub düşdü...

Deyilənə görə, çox sevdiyi Seyid Əzim Şirvanidən şövqlə qəzəl deyəndə Raufun gözləri işıldayarmış. Gərək milli poeziyamızın yeni dalğasının, Seyid Əzim demişkən, "nuri-didəsi, qönçeyi-növrəsidəsi" olan gənc şair ehtiyatlı olaydı ki, dəm qazının "şövq"ünə qurban getməsin və bizi "möhnəti-qüssəyə düçar etməsin"...

Nədənsə, onun imzası görünüşünə görə "Rəsul Rza" assosiasiyası yaradır. Yaşasaydı, bəlkə də, milli sərbəst şeirin atası sayılan Rəsul Rza kimi fərqli bir şair olardı. Nə yazıq ki, yaxınlarının verdiyi məlumata görə, bu günlərdə o, dəm qazından boğularaq dünyasını vaxtsız dəyişib (Bu dəm qazı da yaman tez-tez "dəm" olub xəta törədir).

Bir də deyirlər ki, rəsmləri sevirdi Rauf. Quba rayonunun Nügədi kəndində evlərinin divarına kömürlə rəssam Van Qoqun portretini çəkmişdi. İndi öz portreti daşa çəkilir onun... Bir şeirində isə elə Van Qoqdan misal gətirərək yazmışdı: "La tristesse durera toujours", yəni "Kədər əbədi olaraq davam edəcək". Qardaşı Teonun dediyinə görə, Van Qoqun son sözləri belə idi...

Nakam şairin yığcam, amma dolğun deyimləri çox olub. Məsələn:

*Güllələr boşa açılanda yox,*
*hədəfə dəyəndə ölürlər...*

Yaxud:

*Tələbələrə iş var yazılan bukletləri paylayır metro çıxışında işsiz tələbə, nə qəribə...*

Rauf Ra bir şeirində yazmışdı:

*Alov güllələrindən qızınır qazsız, işıqsız evlər, işıqlı şəhərdə...*

Taleyin istehzasına baxın ki, qazsız evlərdən yazan gənc şairi yaşadığı kirayə mənzildə toplanan dəm qazı tələf elədi...

Dostları onu da deyirlər ki, son vaxtlar ədəbiyyatdan küsərək, qaydasız döyüş məşqlərinə gedirmiş. Elə həyatın "qaydasız oyunu" onu cavankən – 23 yaşında aradan çıxardı...

Beləcə, Rauf Ra ədəbiyyatın bağrına dağ çəkib erkən qürub elədi...

Rauf Ranın tale yazısı olan bir şeirini təqdim edirik:

*Sonrası daha da qəribə oldu.*
*qorxular ümidə dönüşdü o gün,*
*mən sirri hamıyla bölüşdüm o gün,*
*bir ömür sirrimi bilən olmadı.*
*Günəş də üfüqdə ilişdi, qaldı,*
*qarşıma mürdəşir çıxdı sübh çağı,*
*dedim ki, bu gecə ölən olmadı.*
*Dedilər, yazığın bağrı çatladı.*

*Sonrası daha da qəribə oldu.*
*Bir topa adamın içinə girdim,*
*gizləndim bir azca, kimsə görmədi.*
*Uzaqdan qapqara tüstü göründü,*
*qarğalar səs salıb başımı qatdı,*
*ayağım altında qarışqa qaldı,*
*gecikdim, deyərək, tapşırdı canın.*
*Dedilər, yazığın bağrı çatladı.*

*Sonrası daha da qəribə oldu.*
*Bir sümük, bir dəri müqəvva gördüm,*
*külək də papağın götürdü qaçdı.*
*Bir dərviş dönürdü getdiyi yerə,*
*kölgənin kölgədə itdiyi yerə,*
*soruşdu, ey yolçu, Şəmsi gördənmi?*
*dedim ki, arxama baxmıram heç vaxt.*
*Dedilər, yazığın bağrı çatladı.*

*Sonrası daha da qəribə oldu.*
*İşığı güdərkən günəbaxanlar*
*tarlada bir nəfər yerə baxırdı,*
*kölgəsi aşağıdan göyə baxırdı.*
*Dəlinin biriydi rəssamabənzər,*
*cığıra baxaraq ağac çəkirdi,*
*ağaca baxaraq cığır çək, dedim.*
*Dedilər, yazığın bağrı çatladı.*

*Sonrası daha da qəribə oldu.*
*Azacıq söykəndim ot tayasına,*
*divartək güvəndim ot tayasına,*
*mən qalxdım, sökdülər sarı divarı.*
*Araba gedirdi yoxuşa sarı,*
*kiçik bir daş atdım buğda çuvalına,*
*qoca dəyirmanın çarxı dayandı.*
*Dedilər, yazığın bağrı çatladı.*

*Sonrası daha da qəribə oldu,*
*Ağacın altında bir yolçu vardı,*
*yuxardan aşağı baxdı halıma,*
*çək, otur, stulu, yorğunsan, dedi,*
*otur, hər ikimiz dincələk, dedi.*
*Mən çəkdim stulu, oturdum bir az,*
*o isə ağacdan asılı qaldı.*
*Dedilər, yazığın bağrı çatladı.*

*Sonrası daha da qəribə oldu.*
*Ağaclar yoruldu başucalıqdan,*
*ağaclar yol oldu balacalıqdan.*
*Bir palıd qurudu gövdəsi üstə,*
*qəfildən yıxıldı kölgəsi üstə,*
*oyatdı gecəni şirin yuxudan.*
*Dedilər, yazığın bağrı çatladı.*

*Sonrası daha da qəribə oldu,*
*əvvəli onsuz da qəribə idi…*

Məzarın nurla dolsun, əbədiyyətə çox tez qovuşmuş istedadlı soydaşımız.

***XQ***

# Türkiyədə 3 medal

**Azərbaycan qılıncoynadanları Türkiyənin Konya şəhərində keçirilən şpaga növü üzrə gənclərin açıq turnirində qızıl və bürünc medal qazanıblar.**

Xədicə Həsənli qızların şəxsi yarışında 100-dən çox iştirakçı arasında bütün görüşlərini qalib başa vuraraq, qızıl medala layiq görülüb. Daha bir təmsilçimiz Mirxətai Məmmədov isə oğlanların şəxsi mübarizəsində mükafatçılar sırasına yer alıb. Yarımfinala kimi irəliləyən şpaqaçı finalın bir addımlığında uduzaraq, 3-cü yeri tutub.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 254 (30658) 19 noyabr 2024-cü il, çərşənbə axşamı

# "Dəmir Mayk" necə bərkidi?

**Ayağa qalxan zaman dostların kim olduğunu bilirlər. Yıxıldığın zaman sən dostlarının kim olduğunu bilirsən.**

***Mayk Tayson***





ABŞ-də əfsanəvi boksçu Mayk Taysonla ondan 30 yaş kiçik bloqer Ceyk Pol arasında keçirilən döyüş dünyada böyük əks-səda doğurub. Döyüş səkkiz raund davam edib və qarşılaşma 79-73 hesabı ilə 27 yaşlı bloqgerin qələbəsi ilə yekunlaşıb. 58 yaşlı Tayson 2005-ci ildən sonra ilk peşəkar döyüşündə məğlub olub. Döyüş rəsmi hesab olunduğundan nəticə tanınmış boksçunun karyera statistikasına daxil edilib. Amma bu məğlubiyyət Taysona 20 milyon ABŞ dolları qazandırıb.

Mayk Tayson həm idman, həm də bioqrafik baxımdan qeyri-adi boksçudur. Onun həyatı kitab və ya film üçün hazır süjetdir. O, 1966-cı ildə Nyu-York şəhərinin ən təhlükəli rayonunda – Braunsvildə anadan olub. Cinayət və yoxsulluqla əhatə olunmuş əlverişsiz məhəllədə böyüyüb. Tanınmış fotoqraf bu rayonu belə xarakterizə edir: "Braunsvildə belə bir deyim var: əgər 25 yaşın varsa, sən ya ölüsən, ya türmədəsən, ya da quldur həyatına son qoymusan". Maykın 13 yaşında 38 dəfə həbs olunması bu faktı təsdiqləyir.

Kriminal mühitdən başqa, ailəsinin daimi yaşadığı ev də olmayıb: sökülməli olan evlərdə məskunlaşıb, istiliksiz, susuz və bəzən hətta işıqsız qalıb. Ailəyə anası baxıb, çünki Mayk heç vaxt atasını görməyib.

Gəncliyində Tayson heç ağlına gətirmirdi ki, vaxt gələcək planetin ən böyük boksçularından birinə çevriləcək. Çünki o, döyüşməyi belə bacarmırdı, amma küçə həyatı Maykı bunu öyrənməyə məcbur etdi. 2 il yetkinlik yaşına çatmayanlar üçün xüsusi məktəbə göndəriləndə orada bir vaxtlar perspektivli boksçu olan Bobbi Stüartın rəhbərliyi altında boksla məşğul olmağa başladı. 14 yaşlı Taysonu əfsanəvi məşqçi Kas D'Amatonun idman zalına gətirən də məhz Stüart oldu. Bundan sonra tanınmış məşqçi ilə istedadlı küçə cinayətkarının ortaq hekayəsi başladı, o, müəlliminə tamamilə etibar etdi və böyük bir idmançı adını qazandı.

1986-cı ildə, müəlliminin ölümündən sonra, 20 yaşında olan Tayson məşqçisi ilə birlikdə irəlilədikləri məqsədə çatdı – ağır çəkidə tarixin ən gənc dünya çempionu oldu. Onun sərt üslubu və böyük gücü ona "Dəmir Mayk" ləqəbini qazandırdı. 1980-ci illərin sonlarında Tayson boksda dominantlıq etdi, 400 milyon dollar qazandı.

1990-cı ildə Tayson Baster Duqlasa uduzaraq boks tarixindəki ən böyük məyusluqlardan birini yaşadı. Hüquqi problemlər, nəzarətsiz xərclər tezliklə onun həyatını məcradan çıxardı.



Tayson, həqiqətən, planetin ən sərt adamı olduğunu atdığı addımlarla da göstərdi. Qadınlara qarşı kobud davrandı. 1992-ci ildə qadına şiddətə görə həbs olundu. Həbsdə olarkən İslamı qəbul etdi, Malik Əbdül Əziz adını götürdü. Gücünü nümayiş etdirmək üçün üç bengal pələngini saxlamaq üçün 270 min dollar xərclədi.

2003-cü ildə Tayson iflas elan etdi. 400 milyon dollar qazanmasına baxmayaraq, məhkəmə çəkişmələri, yanlış idarəetmə və bədxərclik səbəbindən 23 milyon dollar borcu yarandı. Sonradan etiraf etdi ki, gənc, zəngin və axmaq olub.

Amma Mayk təslim olmadı. 2010-cu illərdə o, özünü bir sənətçi və sahibkar kimi yenidən kəşf etdi. Televiziyada "Mayk Taysonun tapmacaları" adlı animasiya şousunu təqdim etdi. Sonra "Danılmaz həqiqət" bestsellerini yazdı, "Veqasda subaylar yığıncağı" kimi filmlərdə rol aldı.

Tayson, eyni zamanda, "Mike Tyson ilə Hotbox" adlı podkast imperiyası da qurdu. Şouda məşhurlar, idmançılar və sahibkarlar iştirak edir və şou inanılmaz dərəcədə populyardır.

Bəs Tayson belə uğurlu geridönüşünə görə kimə minnətdar olmalıdır? Bunun səbəbi sadədir, Taysonun insanlarla əlaqə qurmaq qabiliyyəti onu bu qədər uğurlu nəticələr əldə etməyə kifayət etdi.

2024-cü il noyabrın 15-də Mayk Tayson Ceyk Pol ilə qarşılaşmaq üçün rinqə qayıtdı. Bu, "Netflix"in ilk canlı boks matçı idi və izləyici rekordları qırdı.

Döyüş 17,8 milyon dollardan çox gəlir gətirdi ki, bu da Veqasdan kənarda tarixdə ən yüksək gəlir gətirən boks hadisəsidir.

Ceyk Pol yekdil qərarla döyüşdə qalib gəldi. Tayson döyüşdən ən azı 20 milyon dollar qazandı. 58 yaşında Taysonun iştirakı onun ulduz gücünün hətta məğlubiyyətdə də bənzərsiz olduğunu sübut etdi.

Bu döyüş dünyaya Mayk Taysonun niyə boksda ən cəlbedici fiqurlardan biri olaraq qaldığını xatırlatdı.





Mayk Taysonun həyatı yenidən düşünmək üçün motivasiya hissi yaradır. Öncə 400 milyon dollar qazandı, sonra müflis oldu. Lakin sonradan özündə güc taparaq zənginləşdi. Bununla Tayson uğursuzluğun son hədd olmadığını sübut etdi. Özünün də dediyi kimi, "Ölməmisənsə, bu, heç də həyatın sonu deyil".

***Hazırladı:***
***S.ELAY***
***XQ***

Hava

## Aranda yağmursuz, dağlarda yağış və duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, noyabrın 19-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı gözlənilir.**



Gecə yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli intensivləşəcəyi ehtimalı var. Cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 9-11°, gündüz 12-16° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 764 mm civə sütununa yüksələcək,nisbi rütubət gecə 70-80, gündüz 60-65 % olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək.

Lakin gündüz bəzi dağlıq ərazilərdə, axşam isə bəzi şərq rayonlarında arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi ehtimalı var.

Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-8°, gündüz 14-18° isti, dağlarda gecə 2-5° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.

***Q. QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Ağcabədi rayonundan Rafil Hüseynov Nizami Sadıqova qardaşı

**YAŞAR SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımova atası

**ELDAR QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## "Salyan Nəqliyyat" ASC kreditorlarının nəzərinə!

"Salyan Nəqliyyat" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağının 12 noyabr 2024-cü il tarixli qərarı ilə "Salyan Nəqliyyat" ASC ləğv edilmişdir. Bununla əlaqədar olaraq "Salyan Nəqliyyat" ASC-nin kreditorları 2025-ci il yanvarın 25-nə kimi cəmiyyətin təsviyəçisinə (əlaqə nömrəsi–050-213-26-29) müraciət edə bilərlər.

***"Salyan Nəqliyyat" ASC-nin təsviyəçisi Fazil Ləzgiyev***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2654
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00